3 – 2
P – 59

**Redaktoru:** Şöhrət Səlimbəyli
**Hərbi məsləhətçi:** kapitan Füzuli Rzaquliyev

Yazıçı – jurnalist Xəqani Rzaquliyev və Rəhman Quluzadənin bu kitabı qədim Kolanı yurdlarının – Ağdərə kəndlərinin Qarabağ müharibəsində verdiyi şəhidlərdən söz açır. Torpaqlarımızın erməni işğalçılarından təmizlənməsində qəhrəman Kolanı oğullarının mübarizəsi konkret faktlar əsasında qələmə alınmışdır.

Müəlliflər tarixi mənbələrə əsaslnaraq əsrin əvvəllərindən bu günədək ermənilərin Ağdərə törətdikləri vəhşiliklərə də nəzər salmışlar. İnanırıq ki, bu kitab dəyərli mənbə kimi oxucuların və gələcək nəsillərin diqqətini cəlb edəcəkdir.

P 0503020907 / 024 Elansız

**Rzaquliyev Xəqani**
**Quluzadə Rəhman**

P-59 Ağdərədə nələr oldu. Şəhidlər və şahidlər. Azərbaycan Dövlət Kitab Palatası 1995. 96 səhifə.

Kitab “Sərbəst Düşüncə” qəzetinin computer mərkəzində yığılıb, “Zaqllar” mətbəəsində səhifələnmişdir.

Azərbaycan Dövlət Kitab Palatası
1995.

## TORPAĞA BASDIRMAYAN MEYİTLƏR, DAĞLAR VƏ BIR DƏ TƏZƏCƏ QIN TUTAN ÇÖL ÇIÇƏKLƏRİ

Beş il idi ki, adamlar güllə səsinə öyrənmişdilər. Atılan güllənin bizim, yaxud düşmənin olduğunu da bilirdilər. Düşmənlə tənha qalan bir elat, yalnız öz mərdliyinə sığınmışdı. Düz beş idi ki, Ağdərə kəndlərinə nə canlı qüvvə, nə də texniki cəhətdən kömək göstərilmirdi. Hər yerdə sahibsizlik hökm sürürdü. Tənhalıqdan adamlar yalquzaq kimi göylərə üz tutub haray çəkirdilər. Buna dağlar, göylərdəki tanrı və bir də təzəcə qın tutan qanlı çöl çiçəkləri şahid idi.

## SON DÖYÜŞ

12 mart 1992-ci il Manikli-Sırxavənd cinahlarından və "Sığnaq" yaylasında ağır texniki və on minlik qüvvə ilə hücuma keçən düşmən səhərə yaxın, yalnız Baş Güneypəyə postunu ələ keçirmiş və yerli qüvvələrin müqaviməti ilə geri atılmışdı. Əsas güc cinahlara verən düşmənin saat 10-dək 11 zirehli texnikası mina sahəsində partlamış onlarla əsgəri məhv edilmişdi. Əsir ermənilərin dediyinə və erməni qərargahlarının Xankəndinə verilən radioqramlarında (Ağdam da bu məlumat qərargahda saxlanılırdı) aydın olmuşdu ki, düşmən 268 nəfər canlı qüvvə və 11 zirehli texnika itirmiş və bütün mövqelərdən yerli özünümüdafiə dəstələrinin gücü ilə vurulub çıxarılmışdı. Sırxavənd cinahının yarılması başqa kəndlərin mühasirəsi həlqəsini daraltsa da kəndlər 14 saat müddətində çarpışaraq düşməni kəndə buraxmamış, lakin arxadan kömək gəlmədiyi və axşam düşdüyü üçün mövqeləri tərk etməyə məcbur olmuşdu. Ermənilərin bu döyüşdə böyük itki verməsini 14 martda Yerevanda, Qarabağda gedən müharibə əleyhinə olan nümayişlər sə sübut edir. Xatırladırıq ki, ermənilər yalnız bu zaman müharibə əleyhinə mitinqə çıxmışdılar. Azərbaycanlılar ilk dəfə düşmənə ağır zərbə vurmağa müvəffəq olmuş, lakin arxadan kömək gəlmədiyi üçün qələbəni başa çatdıra bilməmişdilər.

Ən qızğın döyüş Baş Güneypəyə və Ortay Güney kəndlərində getmişdi. Onlarla meyit elə döyüş meydanlarında qalmış və onları çıxarmaq mümkün olmamışdı. Mühasirəni daraldan düşmən gediş-gəliş yollarını nəzarətə götürərək Baş Güneypəyəni tam mühasirəyə almış və Ortay Güney özünümüdafiə dəstəsinin köməyi ilə mühasirənin yarılması mümkün olmuşdu.Bütün Azərbaycanın gözü qabağında 14 saat uzanan faciədə 30-a yaxın adam həlak edilir, torpaqlar əldən gedir... Azərbaycan cinayətkarcasına susurdu. Rəhmətlik Ş.Mirzəyev körpüdən keçmək əmri almışdı. O, uzaqdan döyüş səhnəsinə baxıb: "Orda igid oğlanlar məhv edilir, bizəcə icazə vermirlər heç olmasa köməyə gedək" – deyirmiş. Bu anlar Baş Güneypəyədə İsmayıl Həsənov düşmənə eşitdirmək və döyüşçüləri ruhlandırmaq üçün ucadan haraylayırmış: "Atın, gözünə dönüm, gör bir Ağdamdan nə qədər qüvvə gəlir?!"

Özləri də uydurduqları yalana inana-inana, qurban verə-verə axşama qədər düşmənin qarşısını aldılar. O vaxtlar kimi dindirirdin deyirdi: "Bizi ermənilər məğlub etmədi. Bizi rəhbərlərimizin xəyanəti məğlub etdi".

Bir faktı da xatırladım ki, Dağlıq Qarabağ kəndlərinin boşaldılmasında erməni tərəfi bütün bir azərbaycanlı rayonu boşaltmaqdan qat-qat çox itki veriblər. İstər Qaradağlıda, istər Malıbəylidə, istər Kosalarda, istər Xocalıda, istərsə də Baş Güneypəyə, Sırxavənd və başqa kəndlərdə. Bu faktdır. Azərbaycan rəhbərliyi yerli əhaliyə qarşı biganə münasibətini nəinki dəyişmiş, hətta Ağdərə azad edildikdən sonbra yerliu əhali ilə məsləhətləşmədən həm Sırxavənd ərazi vahidini, həm də Ağdərə rayonunu ləğv etmişdi. Daha bir fakt kimi xatırlatmaq olar ki, 14 nəfər ən yüksək ada təqdim edilən döyüşçünün heç biri bu adı almayıb. Azərbaycan hərb tarixində ilk dəfə olaraq özünü xüsusi partlayıcı ilə tankın tırtılları altına atan Ziyadxan Aslanovun haqqını və layiq olduğu adı danan hakimiyyət səmimi ola bilməz. Xatırladırıq ki, Z.Aslanov Ağdərə istiqamətində hücum edən ilk əsgərlərdən olmuşdur.

Yalnız iki nəfər "Azərbaycan Bayrağı" ordeni və bir nəfərə isə "Şərəf" döşnişanı verilib.

Ağdərə kəndlərini qəhrəmanlıq mübarizəsinin özünəməxsusluğu onda idi ki, hər kənddə bir ağsaqqal bu işlərə rəhbərlik edirdi. İndi onların çoxu şəhid olub, əbədiyyətə qovuşmuşlar. Manikli kəndində Alıyev Möhü (şəhid olub), Xatınbəylidə Sarıkişiyev Vaqif, Orta Güneydə Aslanov İsacan, Baş Güneydə Həsənov İsmayıl, Novruzov Əvəz (şəhid olub), Çərəkdarın əfsanəvi qəhrəmanı Məmmədov Yunus (şəhid olub), Kərəmlidə Mirzəyev Mahmud (şəhid olub), Sırxavənddə Məmmədov Bəhmən (şəhid olub), və başqaları düşmənə nifrət yaş baxmır – deyə əsl döyüşçü atılmışdılar. Gənclərə məsləhət verir, onları öz müdrikləri ilə qoyuruq və düşmənə layiqli cavablar verirdilər.

## AĞDƏRƏDƏ NƏLƏR OLDU?

Ağdərə Azərbaycanlılarının həm əsrin əvvəllərində, həm də indi Azərbaycan başbilənlərinin günahları böyükdür. Əsrin əvvəllərində dəfələrlə əldən-ələ keçmiş və dörd dəfə yandırılmış bu kəndlər 1922-ci ilin mart günlərində, 1905-ci ilin oktyabr. Noyabr günlərindəki qədər köməksiz və baxımsız olmuşdur. Xatırlatsaq ki, 1905-ci ildə heç bir hakimiyyət orqanımız olmayıb, onda 1922-ci il faciəsinin böyülklüyünü təsəvvür etmək mümkünsüz olar. M.S.Ordubadi "Qanlı illər" kitabında yazırdı: "3-cü sahədə islam göyləri... Dəmirli, Hacıqərvənd, Çıraqlı, Ümidli, İmarət-Qərvənd, Göynəpay, (Güneypəyə - X.P.), Əliağalı (Ağdam rayonu), Şəxavənd (Qalayçılar – X.P.), Sırxavənd, İsmayılbəyli, kimi dağlıq göylərindən ibarətdir ki, Kolanlar (kolanılar – X.P.) adlandırılmışdır".

Bu kitabda müraciət heç də təsadüfi deyil. O vaxt və bu vaxt arasında oxşsr cəhətləri tutuşdurduqda eyni milli dəsti-xəttin şahidi oluruq. Satqın məmləkət

bəyləri (bu söz şərtidir) bu rəhbərləri, köməksiz məzlum qara camaat düşmən qabağından qaçmaq. Fəqət biz istəsək də, istəməsək də tarix bizi ifşa edir və yəqin ki, buna layiqik. Çünki nəyə qadiriksə, ona qadirik.

Sırxavənd hadisələri. 1905-ci il oktyabr. Sırxavənd sakinləri Abbasqulu və İmam Həsənxan oğlu meşədə öldürülüb yandırılmışdır. 1991-ci ildə İmam Həsənoğlunun və Abbasqulu yandırılan yerdə Novruz İmanov və oğlu və Həsənov Qəzənfər oğlu ilə birgə həmin yerdə yandırılıb. 1905-ci il 3 oktyabrda Hamazaspın rəhbərliyi ilə Sırxavəndə hücum başlanır. M.S.Ordubadi yazır: "Sırxavənd kəndi islam cəsədləri ilə dolub qandan çoxlu əmələ gəlmişdi. Əlağalı kəndi də dağıdılmışdı. Vəhşi yırtıcılar südəmər körpələri beşiyi ilə odlayıb, bəzən də anasının qucağından alıb divarlara vurmaqla parça-parça edir, süngülərə keçirirdilər.

Cavanşir bəylər isə naçanlik Pivarovla hər gün bir ziyafətxana da keyf çəkməkdə, gün keçirməkdə idilər"...

1905-ci il, 27 noyabr. Dəmirli faciəsi. Xatırladaq ki, bu kənd elə o vaxtdan da işğal altında olmuş və yalnız 1992-ci ildə azad edilmişdi. Ermənilər bu kəndi dörd tərəfdən əhatə edərək hücuma keçirdilər. M.S.Ordubadi yazırdı: On min camaatın qarşısında dörd nəfər kimsəsiz islam axşama qədər kəndi mühafizə edirdilər. Qalan camaat isə ailələrini götürüb düzlərə və Çıraqlı kəndinə dağılmağa davam edirlər... Bu müharibədə can tələfatı 8 nəfər, ermənidən isə 40 nəfərə qədər olmuşdur".

"31 noyabr 1905-ci ildə Hacıqərvənd və Çıraqlı (Moxrataq)" kəndlərində faciə baş verdi. "Xatırladırıq ki, hər iki kənd 89 ildir ki, Azərbaycan rəhbərliyinin vətənpərvərliyi" sayəsində işğal altındadır. Yalnız 1992-ci ildə müvəqqəti azad edilmişdir. M.S.Ordubadi yazır:"Bu kəndlərdə tələf olan islamların sayı 10 nəfər, ermənilərin sayı isə 100 nəfərə qədərdir".

1905-ci il, 25 dekabr. Erməni əhatəsində tənha qalan Umudlu kəndi bu tarixdə köməyə başlayır. Heyvalı (Drombon) adlı kəndinin yanına yetişməkdə Abram bəy Həsən Cəlalov bunloara rast gəlir və Heyvalıda qalmalarını təklif edir. İsmayıl kəndxuda ona inanıb razılıq verir.

M.S.Ordubadi yazırdı: "Bu halı görən əliboş camaat nə edəcəklərini bilmirlər. Əvvəlcə kişiləri övrətlərindən ayırıb başlarını kəsir, sonra övrətlərin bir hissəsini saxlayıb, bir hissəsini də öldürürlər.

"Bu qarışıqlıqda həmən insanların sallaqxanasından ancaq 30 nəfər canının qurtarmışdır ki, bu sözləri nəql eləyirlər"...

Sonra İmarət – Qərvənd kəndini də işğal edən ermənilər Xaçın və Qabartı dərəsi kəndlərinə keçirlər. Bu hadisələrdən 90 ilə yaxın bir vaxt keçir. Dəyişən nədir?

Biz nutduq, fəqət bir şeyi unutduq. Düşmən əhatəsində yaşaya-yaşaya dost obrazı yaratdıq. Sanki milli yaddaşsızlıq xəstəliyinə tutmuşduq.

Bəs 90 il sonra ərazidə nələr baş verdi?

Ağdərədə nələr oldu?

Dağlıq Qarabağda ilkin olaraq Qaralar kəndi və Gəncxana adlı fəhlə qəsəbəsi yandırılır. Hakimiyyət orqanları nəinki bu faktları dünyaya yayırlar, hətta susmağa üstünlük verirlər. Üstəlik, Qazançı kəndinin ərazisində məskunlaşmaq istəyən Yeni Qaralar əhalisi üçün maneçilik törətməyə başlayırlar. (1989-1990).

Yerli ziyalıların nümayəndəsi Vaqif Sarıkişiyev yazırdı: "1989-cu ilin noyabr ayında xəbər gəldi ki, Ağdərənin Gəncxana adlı kəndində 3000 erməni quldur hücum etmiş və xeyli adamı girov götürmüşlər...

... Baş Güneypəyə kənd sakini İsmayıl Həsənovu Ermənilər tutub 21 gün işğəncə veriblər.

... 1992-ci ildə Sırxavəndə kəndinə ermənilərin birinci, böyük hücumu oldu. Döyüşdə 21 nəfər erməni əsgəri məhv edildi...

Biz ciddi surətdə gizli qisasçı "Kolanı" təşkilatı yaratdıq. Üzvlər konspirasiya üsulu ilə bir-biriylə əlaqə saxlasyır və heç indi də onların haradan idarə olunduqlarını bilmirlər. Bütün bu dövr ərzində hakim dairələri bizə kömək etməmişlər. Camaat  özü öz müdafiəsini təşkil etməyə başlamışdı... (R.S. qəzeti 6 aprel 1993-cü il).

Vaqif Sarıkişiyev yazırdı: "Kolanı" qisasçı təşkilatı irili-xırdalı 15 əməliyyat keçirmikş və əməliyyatların hamısını qabiliyyətlə başa çatdırmışdı. Yalnız Cahid Gəncəliyev xüsusi qəhrəmanlıq göstərərək həlak olmuşdu.

Martın 12-də Manikli-Sırxavənd arası 7 kəndin faciəsi baş verdi. Təxminən 40-dan artıq zirehli texnika və 10 minə yaxın qüvvə ilə düşmən hücuma keçdi. İnsan dar günündə kömək gözləyib onu görməyəndə dəhşətli olur". ("Azad Azərbaycan" qəzeti 16 dekabr 1992-ci il).

## "KOLANI" QISASÇI TƏŞKILATI

Bu təşkilat hökumət biganəliyinin yaratdığı boşluğu doldurmaq və kənd cavanlarını birləşdirmək məqsədiylə yaranmışdı. Əsas təşkilatçı və rəhbəri Xatınbəyli kənd orta məktəbinin direktoru, şəhid atası, "Azərbaycan Bayrağı" ordeniylə təltif olunan qəhrəman A. Sarıkişiyevin atası Vaqif İbrahim oğlu Sarıkişiyev idi. Təşkilat 100-ə qədər şəxsi birləşdirərək erməniləri daim vahimə altında saxlayırdı. Onun  əsas planlarını Aliyev Möhü, Həsənov İsmayıl və Həsənov Rəfayıl qardaşları hazırlayıb həyata keçirirdilər. İsmayıl Həsənov 21 gün ermənilərin işgəncələrinə məruz qalan ilk Azərbaycanlı idi. Onu xüsusi bir erməni dəstəsi günlərlə izləyib tutmuşdu və bu gün fəxrlə demək olar ki, Azərbaycanda ikinci bir adam tapmaq olmaz ki, onun qədər düşmənə zərbə vursun. İstər texnika, istər canlı qüvvəsini məhv etsin. Əfsuslar olsun ki, Əlahiddə kəşfiyyat rotasının komandiri olmuş bu şəxsi mükafatlandırmaq əvəzinə, dəfələrlə təzyiqlərə məruz qoymuşlar. İstərsə də Vətən yolunda öz doğma balasına qıymış Vaqif Sarıkişiyevin özü, nə də yaratdığı təşkilast layiq olduğu adla mükafatlandırılmayıb. Ağdərə

Azərbaycanlı kəndlərinin işğalından sonra da silahı yerə qoymayan bu təşkilat, məhz Ağdamda Əlahiddə kəşfiyyat rotası kimi fəaliyyətinin davam etdirmiş və Ağdərənin azad olunmasında daim ön dəstədə olmuşlar.

Bir faktı xatırladım ki, Ağdərə azad edildikdən sonra rayon prokurorluğundan təşkilat üzvlərinin məhkum olunması haqqında "Məhkəmə işi" sənədləri götürülmüş və buradan aydın olmuşdur ki, ermənilər təşkilat üzvlərinə 8-10 il iş kəsmişlər.

Sənədlər saxlanılır.

"Azad Azərbaycan" qəzeti yazırdı: "Vəziyyətdən çıxmaq üçün dörd kəndin qeyrətli oğullarını birləşdirmək üçün təşkilat yaratmaq lazım idi. Belə bir təşkilat yarandı. (16 dekabr 1992-ci il)".

"Müxalifət" qəzeti yazırdı: "Bu vaxta qədər qeyri-formal "Kolanı" təşkilatı dəfələrlə düşmən arxasına keçir, erməni faşistlərinə dinclik vermirdilər".

Təşkilat üzvlərindən şəhid olmuş Cəlal Quliyev, Möhü Aliyev, Əli Qurbanov, Cahid Gəncəliyev, Altay Sarıkişiyev, Ziyadxan Aslanov, Nazim Xanquliyev, Ələddin Abdullayev, Alim Göyüşov, Əvəz Novruzov və başqalarının xüsusi xidmətləri omuşdur.

Kərəmlinin yandırılması bütün Azərbaycanı sarsıtdı. İllərcə düşmənə layiqli cavab verən bir kənd məhv edildi. Azərbaycan susdu. Umudlu dişiylə, dırnağıyla uzunsürən blokada şəraitində yaşadı. Azərbaycan susdu.

Çərəklər kəndi onlarca igid itirdi. Düşmənə sağalmaz yara vurdu və Ağdərə azərbaycanlılarının sonadək döyüşən məntəqəsi sayıldı. Azərbaycan susdu.

Sırxavənd onlarla oğlu itirdi, müdafiə olundu v çoxminlik düşmən qarşısında tənha qaldı. Azərbaycan susdu.

Ən böyük haqsızlıqlarla rastlaşan, öz dədə-baba yerindən didərgin düşən və Yeni Qaralar adlı bir kənd salan Qaralar yenidən yandırıldı. Narışlar oda qalandı. Azərbaycan susdu.

Bu altı ildə Ağdərədə hələr olmadı. Tarix öz gözüylə yüzlərlə igidin qəhrəman kimi həlak olduğunu gördü, torpaqlara gömülmüş oğlulların ruhuyla müqəddəsləşən məmləkət öz varlığıyla titrəmədi, coşmadı və haqsız tarixin yaxasından yapışıb öz haqqını qoparmadı. Bu gün Ağdərə faciəsi ümumi Azərbaycan faciəsi fonunda bir damladı. Sadəcə tarix üçün söyləməliydik: "Ağdərədə nələr oldu?".

## SIRXAVƏND

Ulubab və Ballıqaya silsilə yüksəkliklərinin əhatəsində yerləşən Sırxavənd kəndi Xaçın çayının sol sahilində salınmışdı. Bura aranla dağın Qırxqızla Murovun görüş yeridir. Ta qədimdən əhalisinin məşğuliyyəti əkinçilik və maldarlıq olub. Kənd strateji cəhətdən çox əhəmiyyətli yerdə yerləşirdi. 60-cı illərin əvvəllərində çəkilmiş Ağdərə-Xankəndi dağ yolu (o vaxt qocalar bu yola

“daşnak yolu” deyirdilər). Sırxavəndin başının üstündə keçir. Sırxavənd Ağdərə və Ağdamdan 30, Xankəndindən 40 km məsafədədir. Qazançı, Çıldıran, Ballıqaya, Dovşanlı, Seyidbəyli kimi erməni kəndlərinin əhatəsində yerləşirdi. Sırxavənddə 250-yə yaxın ev və 1250 nəfər yaşayırdı. Qarabağın bu qədim yurdu dörd dəfə düşmənin hücumuna məruz qalmış və yerlə yeksan edilərək daşı-daş üstə qalmamışdı.

1988-ci ilin fevralında başlamış erməni-azərbaycanlı münaqişəsinin ilk günündən Sırxavənd kəndi erməni quldurlarının hişangahına çevrilmişdi. Əslində 1923-cü ildən DQMV-nin yarandığı ilk gündən, gözdən, könüldən kənarda qalmış bu kəndlər xüsusilə 50-ci illərin əvvəllərində burada yaşayan azərbaycanlılar düşünülmüş gizli miqrasiyaya məruz qalmışlar. On illiklər ərzində azərbaycan kəndlərinin sosial-iqtisadi və mədəni inkişafı üçün heç bir iş görülməmiş, yeni iş yerləri açılmamış, mütəxəssislərə qsədən iş verilməmiş və bunu nəticəsində minlərlə azərbaycanlı dolanışıq çətinliyi ucbatından rayondan baş götürüb getməyə məcbur edilmişdir. Təkcə bir faktı qeyd edək ki, qonşu erməni kəndlərinin hamısında xəstəxana, poçt, klub olduğu halda 12 azərbaycanlı kəndinin hüç birində bu obyektlər olmamışdır. Nəticədə Ağdərə rayonunda 12 min nəfər azərbaycanlı qalmışdı. Təxminən hesablamalara görə dədə-baba yurdunun zaman-zaman tərk edənlərin sayı bu rəqəmdən ən azı iki dəfə çoxdur. Ağdərənin ən böyük azərbaycanlı kəndlərindən olan Sırxavənddə işğala qədər 250-yə yaxın ailə yaşayırdı. Həmin dövrdə respublikanın müxtəlif şəhər və rayonlarında 270-ə yaxın əslən Sırxavəndli olan ailə möcvud idi. Təkcə bu faktın özü muxtar vilayətdə (54 azərbaycanlılar yaşadığı məntəqələrin hamısında vəziyyət eyni cürdür) uzun illər erməni ağalığına məruz qalmış azərbaycanlılara qarşı aparılan mərkli düşmən siyasəti haqqında çox mətləbləri açıqlayır.

1991-ci ilin aprel ayında mənlum hadisələrlə əlaqədar o zamankı respublika hökumətinin qərarı ilə Sırxavənd ərazi icraiyyə komitəsi yaradıldı. Məqsəd Ağdərə rayonundakı 12 azərbaycanlı kəndinə idarəetmə mərkəzi yaratmaq idi. Sırxavənd bu günlər əsl mərkəzə çevrildi. Ərazi polis bölməsi, kənd təsərrüfatı idarəsi, təhsil şöbəsi, maddi-texhiki təchizat bazası, avtomobil bazası, iki yol təmir tikinti idarəsi və s. idarə, müəssisələr yaradıldı və fəaliyyətə başladı. Amma bu kəndlərin müdafiəsi, toxunulmazlığı üçün heç kim fikirləşmədi. Bu kəndlərin camaatı ibtidai icma quruluşundakı kimi ağacdan, daşdan özünə silah düzəldib, gecəli-gündüzlü düşmənin hər bir həmləsinə sinə gərirdilər.

Yaxın qonşuluğu Ballıqaya kəndi quldur yuvasına döndükdə, Sırxavəndin yuxusuz gecələri gündüzə qatılırdı. Ömrün ən ağır anlarında bu balaca kəndin ər oğulları müdrik ağsaqqalların, nur camallı ağbirçəklərin öyüdlərini özlərinə örnək tutmaqla sinələrini doğma yurdun sinələrinə döndərirdilər.

Təkcə bir il müddətində strateji cəhətdən son dərəcə əhəmiyyətli olan Sırxavənd kəndinin bəşər tarixinə yazılacaq səhifələri neçə-neçə kitablara sığmayacaq qədərdir. 1991-ci ilin payızından bəri olaraq təcavüzünə məruz qalan

bu dağ dözümlü kəndin iş ahəngi yavaş-yavaş pozulur, qeyri-bərabər döyüşlərdə qüvvəsi azalırdı. Ətrafda baş verən doğma Qarabağ oğullarının dəhşətli faciələri də bir tərəfdən bu ulu diyarın sinə yaralarına dönürdü.

Kərgicahan qanları, Meşəli, Quşçular, Cəmilli kimi neçə-neçə kəndlərin qaralar ocaqları, Malıbəylinin başına gətirilən görünməmiş dəhşətlər, bəşərin vicdan xanəsini yerindən oynadan Xocalı soyqırımı, Sırxavəndin ağlar gözləri qarşısında baş verirdi. Amma kənd hələ döyüşürdü, müdafiə olunurdu. Bu ulu diyarın ər igidləri doğma torpaqların hər qarışından ötrü qəhrəmanlıq nümunəsi göstərirdilər. 1991-ci ilin dekabrında rəsmi olaraq kəndin özünümüdafiə batolyonu yaradıldı. Əli silah tutan sırxavəndlilər Bəhmən Məmmədovun komandanlığı altında kəndi müdafiə edir, ölüm-dirim savaşları aparırdılar. Yeri gəlmişkən, sırxavəndlilər  düşmənə sarsıdıcı zərbələr endirir, canlı qüvvəsini və texnikasını məhv edirdilər. Topçu Fərhadın gözündən düşmən hədəfinin heç biri yayınmırdı.

1992-ci ilin martın 12-də sübh tezdən başlayan qanlı savaşda Sırxavəndin igid oğulları düşmənin böyük qüvvəsi və texnikası ilə axşam çağına kimi əlbəyaxa döyüşdülər, son güllələrinə kimi vuruşdular. Onlar erməni qulduru və texnikasını məhv etdilər. Heç bir tərəfdən kömək göstərilməyən sırxavəndinlilərin 4 iilik ölüm-dirim savaşlarına nöqtə qoyuldu. Ata-bab yurdundan didərgin düşdülər. Köçkünlük ömrü yaşayan Sırxavəndin bu gün də onlarla vətənpərvər oğlu Vətənin müdafiəsində dayanıb.

Bir əcnəbi səyyahı Qarabağı gəzib dolaşarkən demişdi: Adam elə gəlir ki, bura dünyanın gözüdür. Burada yaşayıb ömür sürən adamlar isə dünyanın ən xoşbəxt insanlarıdır. Elə burada istər-istəməz öz-özünü danlamalı olursan. Əgər həmin səyyahın gedişindən neçə il sonra "Dünyanın gözü" olan doğma torpaqlarımızda müxənnətlərə sığınacaq verdiyimizi bilsəydilər bizi lənətləyərdilər. "Sadəlövh olmayan insanlar, bu gün namərdlərə çörək versəniz, sabah üzünüzə ağ olacaq, bu müxxənətə qapınızda sığınacaq versəniz bir gün doğma ocağınıza shib çıxacaqdırlar. Belələrindən ehtiyatlı olun. Özünüzə qənim bəsləməyin".

İndisə onun hər qarış torpağı, hər zərrə daşı, hər açan tumurcuğu bir nikbin arzunun  yenilməzliyi naminə öz nurlu səhərini gözləməkdədir. O səhəri ki, Sırxavənddə alovlanan doğma ocaqlarının alovu Xankəndinin zirvəsində şölələnən sönməz ocaqın oduna qovuşacaqdır.

Təqdim edilən "Ağdərədə nələr oldu?", "Şəhidlər və şahidlər" kitabının birinci bölümündə Vətənimizin azadlığı, müstəqilliyi yolunda canından keçib şəhidlik zirvəsinə yüksələn Sırxavənd kəndinin qəhrəman oğullarından, onların göstərdikləri igidlik və şücaətlərdən az da olsa söhbət açılır. Azərbaycan xalqının bu yenilməz oğullarının hər biri haqqında ayrıca kitab yazılsa da yenə azdır. Yəqin siz kitabın adındakı "Şəhidlər və şahidlər" vurğusundan duydunuz ki, ömrünü torpaqlarımızın bütövlüyü naminə qurban vermiş şəhidlərimizlə bərabər həmin döyüşlərin iştirakçıları, şahidləri olan qəhrəman oğullarımızın barəsində də gələcəkdə yazılacaq kitablarda söhbət açılacaq. Belə ki, qardaşlarımızla çiyin-

çiyinə döyüşən oğulların adı çəkilmədiyi və yazılmadığı üçün onlar bizi bağışlasınlar.

Əslində isə Vətən onun yolunda canından və qanından keçməyə hazır olanları heç vaxt unutmur.

## SIRXAVƏNDİN İLK ŞƏHİDLƏRİ




Novruz Göyüş oğlu İmanov, Qəzənfər Aşur oğlu Həsənov.

Mahal Novruz oğlu İmanov, Vaqif Qəzənfər oğlu Həsənov.

Dörd ilə yaxındı ki, sırxavəndlilər naxələf 1qonşuları Ballıqaya erməniləri tərəfindən atəşə tutulur, oda qalanırdı. Bu illərdə kəndin camaatı atışmaya, güllə səsinə vərdiş etmişdi. Gündüzlər təsərrüfat işlərində olur, gecələr isə müdafiə postlarında dayanırdılar. Hər il olduğu kimi bu il də Novruz və Qəzənfər kişi Ulubabda ot çalırdılar.

Novruz kişi əsgərlikdən təzə qayıtmış oğlu Mahalın sözünü sındırmadı. Və onu da özüylə ot biçiminə aparırdı.

Novruz kişi həmişəki kimi zarafatından qalmırdı. Dostu Qəzənfər maşının o tərəf, bu tərəfinə keçə-keçə səsi ətrafa bürümüşdü. Bu il də Ulubab bizi naümid qoymadı. Mal-qara üçün ot ehtiyatımızı gördük. Birdən istilərin düşdüyünü hiss edərək Vaqiflə Mahalı səslədi.

-Ay uşaqlar, vaxt keçir, axı, biz iş adamıyıq. Yəqin ki, bu gün də Mahalın görüşünə dostu-tanışı gələcək, hazırlaşın. Yoxsa gecikərik.

Vaqif sükan arxasına keçdi və maşını işə saldı. Heç 30-40 metr aralanmışdılar ki, maşının hər iki tərəfdən avtomat və pulemyotlardan atəşə tutdular. Erməni quduzları gülləlləri kabinəyə iki tərəfdən yağış kimi yağdırırdılar. Maşın kabinəsində oturmuş ata və oğulların əli heç bir yerə çata bilmədi. Düşmən yaman yerdə onları oda tutmuşdu. Bu ər igidlərin, bu yenilməzlərin o an harayına hay verən olmadı. Quldurlar bu ata və oğulları amansızcasına qətlə yetirib, qanlarını qəltan elədilər. Qaniçənlərin ürəkləri bununla soyumadı, elə maşın kabinəsindəcə meyitlərin üzərinə benzin töküb od vurdular. Həmin an avtomat və pulemyotların səsindən Ulubab dağı, Xaçın dərəsi, Tünnün qayası, Şahqulu dağı lərzəyə gəldi, bu vəhşiliklərin şahidi olan quşlar qıy vurdular, sanki köməyə el-obanı çağırırdılar.

7 iyul 1991-ci il. Həmin gün düşmən ilk əməliyyatını, verilən tapşırığını yerinə yetirdi. Həmin gün Həsənovlar və İmanovlar ailələrinin taleyinə, ümumi sırxavəndlilərin tarixinə qara hərflə yazıldı. Həmin gün Kolanı elinə, onun mərd övladlarının sinəsinə çalın-çarpaz dağ çəkildi. Həmin gün Sırxavənd torpağına ilk şəhid qanı töküldü. O gündən etibarən düşmənin iç üzləri açıldı. Düşmənlə qana-

qan savaşları başladı. Bir neçə gün içində neçə-neçə erməni quldduru murdar qanına qəltan edildi. Amma sırxavəndlilərin ürəyinə vurulan yara sağalmaz oldu.

Doğrudan da onu tanıyanlar Novruz kişinin qorxmazlığına, qoçaqlığına yaxşı bələd idilər. Onunla yaxından yoldaşlıq edənlər deyərdilər ki, Novruz sərçəni gözündən vurur. Hər iki ağsaqqal öz alın təri ilə ev-eşik qurmuşdular.

Bu gün Novruz kişinin oğlu Nağı "N" hərbi hissəsində komandiri. Döyüşdüyü bölgələrdə ad-san çıxarıb. "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub. Dəfələrlə istər atasının, istərsə də el oğullarının qanını alıb. Onlarla erməni quldurunu məhv edib.



Vaqif Qəzənfər oğlu Həsənov 1957-ci ildə anadan olub. Ailənin ikinci övladı idi. Uşaqlıqdan istiqanlığı və gözəl rəftarı ilə hamının sevimlisi idi. Özündən böyük olan yerdə dinib danışmazdı. Hər şeyin yerini bilər, yeri düşəndə məzəli söhbətləri ilə hamının könlünə yol tapardı. Vaqif orta məktəbi qurtardıqdan sonra sürülücük sənətinə yiyələnmişdi. Hərbi borcunu Uzaq Sibirdə yerinə yetirmişdi. Vaqif Rusiyadan Qarabağın üzərini qara buludlar aldığı güdən havası, suyu ilə boya-başa çatdığı Sırxavəndə qayıtmışdı. Həmkəndliləri kimi kəndin müdafiəsində, qorunmasında yuaxından iştitrak edirdi.

İki qız körpəsi var idi. Təzə aldığı evindən indi-indi gün-güzəran görürdülər. Həyat yoldaşı Qızbəslə Rusiyada yaşadığı o əzab-əziyyətli, iliyə işləyən o şaxtalı, boranlı günlərin buzu yenicə əriməyə başlayırdı. Bu gənc ailə indi özlərini xoşbəxt sayırdı. Doğmaları arasında qurub yaratmaq, Vətən üçün el-oba üçün nəsə etmək arzusu ilə yaşayırdılar. Vaqifin ölümündən sonra yadigarı dünyaya gəldi. İndi Vaqifin iki qızı, bir oğlu böyüyür.

Bir neçə gün idi ki, kəndin adamları Novruz kişiyə, Bəsdi xalaya gözaydınlığı verir, Mahalın görünüşünə gəlirdilər. Mahal uşaqlıqdan qorxmazlığı, çevikliyi, bacarığı, xasiyyəti ilə hamının hörmətini qazanmışdı. Elə ona görə də hamı Mahalın xətrini əziz tuturdu. Mahal hər yanına gələnə Qarabağ münaqişəsi ilə bağlı suallar verir, diqqətlə qulaq asırdı. Gəldiyi günün ilk gecəsi dözməyərək, evlərinin yaxınlığındakı posta baş çəkmişdi.

Mahal kəndin ətrafındakı meşəni gəzməyə çıxıbmış. Təsadüfən yolunu azmış, kiçik yaşlı bir erməni uşaqı ilə rastlaşır. Mahal onu evlərinə gətirir, çay-çörək verir. Anası onu danlayır ki, sən uşaq oğurlayıb gətiribsən? Mahal öz insanlıq, qonşuluq borcunu yerinə yetirir. Erməni uşağını yedirtdikdən sonra onu sağ-salamat aparıb komendantlığa verir ki, valideynlərinə çatdırsınlar.

Novruz kişi də, Qəzənfər kişi də başqa atalarımız kimi qeyrətli. Mərd oğul böyütmüşdülər. Vaqifin, Mahalın Sırxavənddə dünyalar qədər hörməti vardı. Amma tale yazısına bax ki, yağı iki atanı, iki oğlu vəhşicəsinə qətlə yetirdi. Bunu

unutmayın. Düşmənin kimliyini, onun törətdiyi ağlasığmaz vəhşilikləri unutsun, bu faciələr təkrar oluna bilər.

Məzarları Sırxavənd kəndindəndir.

## DAN YERİNƏ ÇİLƏNMİŞ ŞƏHİD QANLARI



Yelmar Təhməz oğlu Cəfərov; Nazim Xosrov oğlu Bəşirov.

19 oktyabr 1991-ci ildə Sırxavənddə erməni quldurları növbəti vəhşilik törətdilər. Sübh tezdən kənd camaatı avtomat silahların aramsız atəş səslərinə oyandı. Quldurlar kənddən Ağdama gedən yolun üç kilometrliyində - Xaçın çayının sahilində pusquda dayanaraq, qəfil atəşlə kəndin iki igidini – Cəfərov Yelmar Təhməz oğlunu və Bəşirov Nazim Xosrov oğlunu amansızlıqla qətlə yetirmişdilər. Hər iki ayağından yaralanan Həsənov Allahverdi Rəhim oğlu yalnız təsadüf nəticəsində sağ qalmışdı.

Yelmar Təhməz oğlu Cəfərov 1955-ci ildə anadan olub. Kənddə elektrik mantyoru işləyirdi. Vətənin üzərinə qara buludlar aldığı ilk gündən silaha sarılaraq doğma kəndinin müdafiəsində dayanırdı. Gündüzlər işləyir, gecələr isə doğma kəndinə keşik çəkirdi. Vətənin bir qarış torpağı üçün canından keçməyə hazır idi. Yelmar dostluqda çox möhkəmdi. İstəməzdi ki, kimsəni incitsin, xatirinə, qəlbinə dəysin. Çətin bir iş olanda həmişə çalışırdı ki, bütün ağırlığı öz üzərinə götürsün. Elə bu xasiyyətlərinə görə də Yelmar onu tanıyanların qəlbinə yol tapmışdı.

Yelmar həm də gözəl ailə başçısı idi. İki oğul, iki qız böyüdürdü.

Nazim Xosrov oğlu Bəşirov 1959-cu ildə Sırxavənddə dünyaya göz açıb. Nənə və baba himayəsində boya-başa çatan Nazim zəhmətsevərliyi, torpağa bağlılığı ilə tay-tuşlarından seçilirdi. O, hərbi xidmətdən sonra sovxozda işləməyə başlamış, sonra isə sürücülük peşəsinə yiyələnmişdi.

Nazim altı bacısının bir qardaşı idi. Sinəsini vətənin hər qarış torpağı üçün sipər etmişdi. Vətənin üzərində əsən qasırğa Nazimdən də yan keçmədi. Düşmən gülləsinə tuş gəldi. Həmin gün Nazimin bircə oğul körpəsinin gözündə əbədi həkk olunub. Nə zamansa bu intiqamı hissi körpəsinin gözü önündə canlanacaq, müxənnət yuvasını darmadağın edəcəkdir.

Yelmar Cəfərovun və Nazim Bəşirovun məzarı Sırxavənd kəndindəndir.

## GƏLİN TƏKBƏTƏK DANIŞAQ

Kolanı elində İomanov Qurban Pənah oğlunu qorxubilməz, heyrətamiz gücü olan igid kimi tanıyırdılar. Pəhlivan cüssəli igidin səsi gələndə onu sevənlərin ürəyi atlanırdı.

Erməni quldurlarının bəd əməllərindən söz düşəndə Qurban deyərdi ki, bu yaşımda onların beşinə cavab verərəm. Qonşuluqda onlar mənim əlimin suyuna bələddirlər. Əgər onlar özlərini kişi sayırlarsa gəlsinlər mərdi mərdanə, üz-üzə danışaq. Yoxsa rus qardaşlarının hesabına daşın-qayanın, kolun-kosun arxasında gizloənib igidlikdən dəm vurmasınlar.

Qurban üç oğul, dörd qız boya-başa çatdırmışdı. Halal zəhməti ilə ailəsi üçün hər bir şərait yaratmışdı.

Qonşu erməni kəndi Ballıqaya ilə Qurban kiişinin evi üz-üzə idi. Hər bir atılan gülləyə Qurban kişinin evi sipər idi. Elə kəndin müdafiə postlarından biri də onun evinin lap yaxınlığında qurulmuşdu. Hərdən o yaxınlıqdakı postda gəncləri əvəz edir, onların istirahət etməsinə şərait yaradırdı. O, həmişə gənclərlə söhbətində deyirdi ki, çalışın özünüzü zəhmətə alışdırın, təbiətin qoynunda çox gəzin. Onda həm sağlam, həm də qüvvətli olarsınız.

Xaçın çayının sahilində Qurban kişi öz mal-qarasını, qoyun-quzusunu otarırdı. Bu məqamı çoxdan gözləyən erməni dığaları onu hər tərəfdən aralarına alırlar. Qurban kişini yaxından tanıyan erməni yaraqlısı buna razılıq vermir. O bilirdi ki, Qurban kişi onların ikisinə-üçünə tək cavab verə bilər. Ona görə də hər tərəfdən onu atəşə tutdular. Qurban kişi də ov tüfəngi ilə bir iki dəfə onları susdurur. Hətta yaraqlıların birini ağır yaralayır. Amma xilas ola bilmir. 1991-ci il noyabrın 20-də erməni quldurları bir sırxavəndli ailəsini də başsız qoyurlar.

O gün Sırxavənd naxələf qonşularının alçaqlığının, nankorluğunun bir daha şahidi oldu. 1991-ci il noyabrın 20-də kənd camaatı igid bir oğlu ilə vidalaşdı.

Qurban kişinin oğlu Lənkəran altı ildir ki, düşmənlə üz-üzə döyüşür. Lənkəranın bir adamı var:

-Torpaqlarımızı yağı tapdağından azad etməyincə geriyə dönməyəcəyəm.

-Allah səni arzuna çatdırsın qardaş!

Məzarı Sırxavənd kəndindəndir.

## XATİRƏLƏRDƏ ƏBƏDİ YAŞAR QƏHRƏMAN



Səməd Ərşad oğlu Fərzəliyev 1961-ci il noyabrın 4-də dünyaya göz açmışdı. Orta məktrəbi bitirəndən sonra Bakı Bədən Tərbiyəsi Texnikumuna daxil olmuşdu. 1979-cu ildən Monqolustanda hərbi hava qüvvələrində xidmət etmiş, 1981-ci ildə orduda tərxis olunmuş, texnikumda təhsilini başa vurduqdan sonra öz kəndlərində müəllimlik fəaliyyətinə başlamışdı. 1990-cı ildə təhsilini Bakı Dövlət Bədən Tərbiyəsi İnstitutunda davam etdirmişdi. S. Fərzəliyev 1989-cu il avqustun 14-də keçmiş DQMV üzrə təşkilat komitəsinin sədri A.Volskinin əmrinə əsasən general Safovnov tərəfindən həbs edilmişdi. Bəs, Səmədi niyə həbs etmişdilər? O vaxtlar Sırxavənd kəndinin 10 km-də Dovşanlıdakı mərmər zavodu daşnakların mərkəzi qərargahı idi. Erməni quldurlarının Qarabağı işğal planı burada hazırlanırdı. Həmin qərargahı isə Səməd partlatmışdı.

Ağdərədən Xankəndinə gedən yolda ermənilərin maşın karvanının qabağını kəsmiş və avtomobillərinin təkərlərini güllədən keçirmişdi. Bununla da Ağdərə ermənilərinin Xankəndində keçirilən mitinqində iştirak etmək planlarını pozmuşdu. Həmin hadisədən sonra Sırxavənd kəndinə rus ordusu desant tökdü. Lakin Səmədin tutulmasına kənd camaatı imkan vermirdi. Əksinə Səməd desantçılara bələdçilik edən erməniləri güllənbaran etdi.

Xaçın körpüsünün üstündə yerləşən və ermənilərin "Andronik" adlandırıb yığışdıqları pavliyonu da Səməd partlatdı. Bundan başqa onlarca "boevik"i məhv etdi. Daşnaksütun partiyasının iki nəfər üzvünü ermənilərə silah paylayıb qayıdarkən Sızqa dərəsində qanlarına qəltan etdi.

Çıldıran-Ballıqaya yolunda erməni quldurlarının BMII-1-nin partladıb bütün heyəti ilə məhv etdi. Səməd həmin bölgədə ermənilərin işğalçı siyasəti qarşısında əsas maneə idi. Onun göstərdiyi igidliklər bütün Qarabağ ermənilərini vahiməyə salmışdı. Ona görə erməni başbilənləri çalışırdılar ki, əyin bahasına olursa olsun Səmədi ələ keçirsinlər.

1989-cu il avqustun 14-dən 15-nə keçən gecə saat üç radələrində hər tərəfdən Sırxavənd kəndinin rus əsgərləri mühasirəyə alır. General Safanov həmin vaxt A.Volskinin əmrini yerinə yetirir. Səməd və Nazim Fərzəliyev qardaşlarını həbs edir.

Nazim Fərzəliyev: "Bizi həbs edən kimi Xankəndinə gətirdilər, ayrı-ayrı kameralara saldılar. Elə ilk gündən bizə olmazın işgəncələr verməyə başladılar. Hər dəfə də bizi başqa-başqa adamlar danışdırır, sorğu-suala tutur, əzab-əziyyət verirdilər. Düzü düşmənin verdiyi işgəncələr nə qədər dözülməz olsa da tab gətirirdik. Hərdən bir Səmədin qonşu kameradan zümzüməsini eşidirdim. Bir dəfə özümü ələ alıb və bütün ağrıları unudaraq ona diqqətlə qulaq asmağa başladım. O mahnı ilə mənə açıqca deyirdi: "Möhkəm dayan qardaş, mən heç nəyi boynuma

almamışam, sən də alma. De ki, heç nədən xəbərim yoxdur. Müvəqqəti çətinlikdir, qorxma. Bizləri dardan çıxaran oğullar tapılar. İgidin başı qalda gərək. Özünü əsil kişi kimi apar. İnşallah tezliklə görüşərik".

Nəhayət 103 gündən sonra qardaşlar görüşdülər. Bu müddət ərzində olmazın əziyyəti çəkmişdilər.

Amma bu igidlər hər bir işgəncəyə dözmüş, düşmən qarşısında əyilməmiş, sınmamışlar. Həmin dözülməz günlərdə Səməd dediyi sözün üstündə durmuşdu: "Qarabağ bizim dədə-baba yurdumuzdur. Canımızdan, qanımızdam keçərik, bir qarış torpağımızı vermərik".

Bəs, Səmədgil həbsdən necə azad olundu.

Fazil Fərzəliyev: "Qardaşlarımın saxlandığı yer gizli saxlanılırdı. Keçmiş SSRİ-nin elə bir təşkilatı yox idi ki, ora müraciət etməyək. Hətta Birləşmiş Millətlər Təşkilatına da teleqrama göndərmişdik. Amma səsimizə səs verən, köməklik göstərən olmadı. Rəhmətlik Vaqif Cəfərovun köməkliyi ilə 25-ci günü xəbər tutduq ki, uşaqlar Xankəndində həbsxanadadırlar. Nazim aldığı zərbədən ölümcül vəziyyətdədir. Ümidimiz hər yerdən kəsilmişdi. Ağdərə-Xankəndi yolunda Ağdərə rayon polis şöbəsinin rəisini, baş müstəntiqini və rayon prokurorunu girov götürdük. Bu bizim üçün üzümüzə açılan kömək qapısı idi. Uzun sürən danışıqlardan sonra qardaşlarım həbsxanadan buraxıldı.

Səmədgil azad olunduğu gün Sırxavənd camaatı toy-bayram etdi, hamı onların görüşünə gəldi. Ermənilər elə hesab etdilər ki, bu qardaşların artıq müqaviməti qırılıb. Bir daha torpaq təəssübü çəkməyəcəklər. Amma yanılmışdılar. Səməd həbsxanadan azad olunan kimi yenə torpaqlarımızın müdafiəsində dayandı.

Səmədin başçılığı ilə Ballıqaya kəndində aparılmış yoxlama hər tərəfə səs saldı. Səməd qrimlənərək rus əsgəri formasında silahdaşları – Seymur, Rizvan və Azərlə Ballıqayada axtarışlar aparmışdı. Son altı ayda gecəsi gündüzü olmayan Sırxavənd igidləri düşmən qarşısında qəhrəmanlıqlar göstərirdilər. S.Fərzəliyevin bölməsi verilən hər tapşırığı uğurla yerinə yetirir, düşmənin atəş nöqtələrini, texnikasını sayıb, hansı qüvvəsi olmasını dəqiqliklə öyrənib, qərargaha çatdırırdılar. Yeri düşdükdə düşmən arxasına keçib, zərbələr endirir, hücum planın pozurdular. Səməd bir neçə dəfə əlbəyaxa döyüşlərdə erməni quldurlarının burnunu ovmuşdu. Gecədən başlanan qar bütün yol-izi bağlamışdı. Döyüşçülər arasında əhatə çətinləşmişdi. Sübh tezdən kəndin üzərinə yağdırılan güllə boran hərəkəti lap ağırlaşdırırdı. Düşmən topunun, texnikasının səsindən Sırxavənd kəndi lərzəyə gəlmişdi. Yenə də Səmədin sol cinahdan döyüşün ağırlığını öz üzərinə götürdü. Mərkli düşmən çalışırdı ki, Sırxavəndi ələ keçirsin və aran Qarabağa yol açsın. Amma yeri düşdükdə Səmədgil sərrast atəşlə erməni quldurlarının atəş nöqtələrini susdururdu. Səmədin özü fasiləsiz atəş açaraq ermənilərin diqqətini özünə cəlb etdi. Düşmənin hər birinin açıdığı atəş onun tutduğu mövqeyə yönəlmişdi. Səməd bir anlığa atəşini dayandırdı. Başqa mövqelərdən düşmənə qarşı atəşin güclənjdirilməsini yodaşlarına əmr etdi. Az da olsa Səməd düşməni

özündən yayındırmışdı. Qəflətən akrobatik sıçrayışda irəli daha əlverişli mövqe tutdu.

Və ayaq üstə atəşi davam etdirdi. Bu döyüşdə Səmədə bəlkə də onlarca əsgərin işini gördü. Düşmən hücumunun qarşısını aldı. Amma sən demə bu Səmədin sonuncu döyüşü imiş. Qəfil atılan snayper gülləsi onun gənc həyatına son qoydu.

Şəhidlik zirvəsinə yüksələn və öz ölümü ilə Vətənini ucaldan igid döyüşçü Səməd Fərzəliyev bu gün onu tanıyanların, el-obasının xatirində bir qəhrəman kimi yaşayır. O, sağlığında qəhrəman adını qazanmışdı. Əfsuslar olsun ki, dövlət Sırxavənd igidi Səməd Fərzəliyevi qiymətləndirilməyib.

Qəhrəman döyüşçü Səməd Fərzəliyevin adı əbədiləşdirilmişdir. Sırxavənd kənd orta məktəbi 31 yaşlı şəhidin adını daşıyır. Haqqında mətbuat dəhifələrində yazılar, oçerqlər dərc olunub. “Şəhid şəhərin şəhid oğulları” kitabında Səməd Fərzəliyevin qısa da olsa döyüş yolundan, onun qəhrəmanlıqlarından söhbət açılıb. Efir dağlarında Səmədə həsr edilmiş verilişlər və radio-oçerqlər səsləndirilib. Radio verilişləri fondunda S.Fərzəliyevin qəhrəmanlığına həsr edilmiş veriliş saxlanılır.

S.Fərzəliyevin yurdunda bir oğul və iki qızı böyüyür.

Məzarı Ağdam rayonunun Şəhidlər xiyabanındadır.

## GÜLLƏLƏR YAŞA BAXMIR



İslam Mürşüd oğlu Ağayev Sırxavənd kəndinin sayılan adamlarından olub.

1992-ci ilin fevral ayında Sırxavəndə ezam olunmuşdum. Məqsədim kənd camaatı və döyüşçülərlə görüşüb onların səslərini lentə almaq idi. Yolda eşitdim ki, Sırxavənd kəndi od içində yanır, orada ölüm-dirim döyüşləri gedir. Heç bir yerdən köməyi olmayan Sırxavənd igidləri düşmənin ağır hücumlasrına mərdliklə sinə gərir, yeri düşdükcə erməni quldurlarının atəş nöqtələrini susdururdular. İslam kişi də öz evində oğlanları ilə mövqe tutub quldurlarla atışırdı. Onun evini yaxınlığında Cahangirin evində 8 nəfər Sırxavənd igidi erməni yaraqlılarının mühasirəsinə düşmüşdü. Quldurlar istəyirdilər ki, həmin yenilməz oğulları diri tutsunlar. Amma buna imkan verməyəcəyəm, – deyən İslam kişi sərrast atəşlə quldurları irəliləməyə qoymurdu. Cahangirgilin patronu tükənirdi, Qardaşxan Mehdiyev baş nahiyəsindən ağır yara almışdı. Buna dözməyən İslam kişi oğullarına tapşırdı ki, atəşi davam etdirin, mən isə uşaqlara patron çatdırım. Özünü evdən həyətə atan İslam kişinin düşmən gülləsi haqladı. El ağsaqqalı İslam kişi 1992-ci ilin fevralın 8-də qeyrət döyüşündə əbədiyyətə qovuşdu.

İslam kişi ilk gündən silaha sarılaraq kəndin müdafiəsində dayanan ağsaqqallar idi. Elə gün olmazdı ki, o gənclər arasında olmasın. Gecəli-gündüzlü bir-bir postları gəzir, keşik çəkənlərə məsləhət verirdi. Kəndin əsas postu olan "Güney" postuna nəzarət də ona tapşırılmışdı. Dəfələrlə Xankəndi-Ağdərə yolunda öz dəstəsi ilə erməni quldurların ağır zərbə vurmuşdu.

Hüseyn Məmmədovun dediklərindən: "İslam əmim bütün qohum-qonşunun ağsaqqalı idi. Hamımız onun yolunu saxlayır, xətrini çox istəyirdik. Bakıdan kəndə gələndə birinci İslam əmimə baş çəkər, sonra evimizə gedərdim. Bu gün İslam əmisiz hamımız üçüçn çətindir."

Üç oğul, bir qız atası idi.

Məzarı Sırxavənd kəndindəndir.

## HAMININ İSTƏKLİSİ



İntizam Köçəri oğlu Bəşirov 1970-ci ildə anadan olub. Ata-anasının və bacı-qardaşlarının istəklisi idi.

Orta məktəbi qurtardıqdan sonra təhsilini davam etdirə bilməmişdi. Əsgəri xidmətdən sonra doğma kəndi Sırxavəndə qayıtmışdı. Elə həmin il İntizam Şuşa Kənd Təsərrüfütı Texnikumunun zootexnik şöbəsinə daxil olub. Həmin vaxtlar erməni təcavüzü get-gedə genişlənirdi. Şuşa-Ağdam marşrut avtobusunda atəşə tutulmuşdu. Hətta bir dəfə Xankəndi yaxınlığında qəfil açılan güllə bir tələbə yoldaşının həyatına son qoymuşdu. Yurdumuzun vətənpərvər oğlu İntizamın arzusu Vətəni, elini, obasını azad görmək idi. Günü-gündən alovlanan Müharibə Sırxavənd kəndini hər tərəfdən bürümüşdü. Bunu görən İntizam təhsilini qoyub kəndin sakinlərindən təşkil olunmuş özünümüdafiə batalyonuna daxil oldu. Hər bir silah növündən zustalıqla istifadə edən İntizam az zamnada bacarıqlı bir döyüşçü kimi yoldaşlarının hörmətini qazanmışdı. Dəfələrlə onların dəstəsi erməni quldarlarının hücumunu dəf etmiş, böyük zərbələr endirmişlər.

Sırxavənd kəndində vəziyyət günü-gündən gərginləşirdi. Bütün gün ərzində kəndin üzərinə hücum ara vermirdi. Bir neçə gün ərzində Sırxavəndin say seçmə oğulları Səməd Fərzəliyev, Bəhmən Məmmədov və el ağsaqqalı İslam Ağayevin ölümü düşmənin əl-qolunu açmışdı. Düşmən bütün qüvvəsi ilə Sırxavəndi işğal etməyə, oda qalmağa çalışırdı. Əsas hücumlar əsasən bir nömrəli post olan "Güney" postuna edilirdi. Həmin post Sırxavəndin açarı idi. Postun alınması Sırxavənd kəndinin məğlubiyyəti idi. Ona görə Güney postu həmişə təcrübəli və qorxmaz oğullara tapşırılırdı. İntizam bütün çətinliyi öz üzərinə götürmüşdü. Tez-tez yoldaşlarına ehtiyatlı olun deyirdi. Mayası zəhmətlə yoğrulan İntizam hər an vətənin bir qarışı üçün canından keçməyə hazır idi. Odur ki, heç vaxt razı olmazdı ki, yoldaşlarının birinə bir şey olsun.

Elə ona görə də döyüşlərdə öndə gedir, ölümün gözünə dfik baxırdı.

1992-ci il 13 fevral. Həmin gün Sırxavənd cəngavərlərindən biri - İntizam Köçəri oğlu Bəşirovun ömrünə son qoyuldu. Qızğın atışmada snayper gülləsi İntizamı haqladı. Fevral ayında bir həftənin içində Sırxavənd kəndi dördüncü ər igidini itirdi.

Məzarı Ağdam Şəhidlər Xiyabanındadır.

**“Ölümə hazır olmaq da bir silahdır”**



Bəhmən Fərman oğlu Məmmədov 1939-cu ildə anadan olub.

Sırxavəndin yaman günüydü. Bu kəndin dadına çatmaq istəyən oğullardan biri də Bəhmən Məmmədov idi. Nə silahın azlığı, nə düşmənin fəndgirliyi, arxalı olması bu itidi yolundan döndərə bilmədi. Özü kimi yenilməz oğullarla birlikdə Sırxavəndə dayaq oldular. Nə qədər uğurlu əməliyyatlar keçirdilər, neçə yağınmın burnunu ovdular, dost itgisindən yanıb yaxıldılar. Bəhmən orta məktəbi qurtardıqdan sonra hərbi xidmətə çağrılır. Sonra Ağdam rayonunda Mexanizasiya texnikumuna daxil olur. Uşaqlıqdan öz çevikliyi və qüvvəsi ilə hamını heyran edən Bəhmən, ali və orta məktəb tələbələri arasında keçirilən güləş yarışında iştirak edərək Xankəndində üç erməni tələbəsinin kürəyini yerə vurmuş və birinci yeri tutmuşdu. Az keçmir ki, Bəhmən Məmmədov Quba şəhərində keçirilən respublika miqyaslı yarışa dəvət olunur. Həmin yarışda da birinci yeri tutan Bəhmənin sevincinin həddi-hüdudu yox idi. Bəhmən texnikumu əla qiymətlərlə başa vurduqdan öz doğma kəndi Sırxavəndə qayıdır. Öz təhsilini indiki Gəncə Kənd Təsərrüfatı Akademiyasında davam etdirir. Babası Qasım kişinin erməni-müsüəlman davası haqqında etdiyi söhbətləri Bəhmən tez-tez xatırlayırdı:

“Erməni daşnakları yenidən azərbaycanlıların soyqırımına başlayıblar. Yenə də azərbaycanlıları diri-diri odlanacaq, başları kəsiləcək, böyük işgəncələrlə öldürüləcək və qanlarına qəltan ediləcəklər. Babası Qasım kişi də erməni yaraqlılarına qarşı amansız olmuş, onlarca ermənininin qanına qəltan etmişdi. Qasım kişinin səsi gələndə düşmən özünə yer tapmırmış”.

Bəhmən Məmmədov bütün varlığı ilə kəndin müdafiəsini qurmağa başladı. Kəndin əli silah tutan gənclərini başına yığdı. Müharibədən başı çıxan ağsaqqallardan məsləhətlər aldı. Kəndin ətrafında müdaifə postu yaratdı. Günü-gündən hər bir silah növü ilə təhciz olunan erməni yaraqlıları bütün Qarabağ torpağında hücumlarını genişləndirirdilər. Üç tərəfdən erməni kəndlərinin əhatəsində olan Sırxavəndlilərin vəziyyəti ağırlaşırdı. Bəhmən kənd gənclərinin qorxmazlığına, cəsarətinə, yenilməzliyinə yaxşı bələd idi. Erməni quldurları hər bir hücumunda hərbi texnika və müasir silah növlərindən istifadə edirdilər. Buna

baxmayaraq, Bəhmən erməni quldurlarının hər təcavüzünə qəhrəmanlıqla sinə gərir, döyüşçülərdə böyük döyüş əhval-ruhiyyəsi yaradırdı. Hər döyüşdə bir gözü düşmənin, bir gözü isə cavanların üstündə olardı.

1991-ci ilin payızında quldur yuvası Ballıqayadan erməni yaraqlıları saatlarla Sırxavənd kəndini topa tutur, gülləbaran edirdilər. Ulubab yerində törətdikləri qanlı faciədən sonra quldurlar daha üç nəfər sırxavəndli igidini qətlə yetirdilər. Qonşu azərbaycanlı kəndləri günü-gündən oda qalanır, erməni vəhşiliklərinin hücumuna məruz qalırdılar. Günü-gündən təklənən bu kəndlərin səsinə səs verən, dərdinə şərik olan yox idi. Düşmən Sırxavənd kəndini məhv etməyə çalışırdı. Bu məqsədlə də bütün qüvvəsini quldur yuvası Ballıqayaya toplayırdı. Çünki, yaxşı bilirdi ki, nə qədər Sırxavənd yaşayır, quldurlar öz məqsədlərinə çata bilməyəcəklər. Həqiqətən də Sırxavənd kəndi Aran Qarabağın açarı, ona açılan pəncərə idi. Əsgərlərimiz kənddə özünümüdafiə batalyonu yaratmaq qərarına gəldilər. Rsəmi olaraq 1991-ci ilin dekabr ayında Sırxavəndin əli silah tutan sakinlərindən özünümüdafiə batalyonu yaradıldı. Kənd ağsaqqlarının məsləhəti ilə Bəhmən Məmmədov batalyonun komandiri seçildi. Bütün el-oba Bəhməni sadə, təmiz, qorxubilməz, qüvvətli, həddən artıq çevik, cəsarətli bir adam kimi tanıyırdı. Söz düşəndə deyərdilər ki, rəhmətlik babası Qasım kişiyə oxşayır. Əslin əvvəlində Qasım kişi həmkəndliləri ilə ermənilərə yaxşı dərs vermişdi. Bəhmənin üzərinə daha böyük məsuliyyət düşmüşdü. Gecəsi-gündüzü yox idi. Bir komandir kimi hər an postları dolaşır, əsgərlərin vəziyyəti ilə tanış olur, onlara məsləhətlər verirdi.

Polis podpolkovniki Güloğlan Məmmədov:

-Sırxavəndə gəldiyim gündən kənd camaatının qonaqpərvərliyi, qayğıkeşliyi, vətənpərvərliyi məni heyran etmişdi. Özümü doğmalarımın arasında hiss edirdim. O kənddə böyük döyüş yolu keçdim. Sırxavəndin əyilməz oğlanları Bəhmən Məmmədovun, Səməd Fərzəliyevin, Natiq Əliyevin, Seymur Quliyevin və Nuru Ağayevin döyüşlərdə göstərdikləri şücaətlər bu gün də gözümün qabağındadır. Bu gün inanmıram ki, belə qəhrəman oğullar aramızda yoxdur. Bəhmən Məmmədovla tanışlığım Güney postunda oldu. Şiddətli döyüşlər gedirdi. Erməni yaraqlıları cəhd göstərirdilər ki, Güney postunu ələ keçirsinlər. Amma Bəhmənin planlı döyüşü düşməni çaş-baş salmışdı. Bəhmən hərdən öz başaltılarını da işə salırdı, o dəqiqə də bir erməni qulduru o dünyalıq olurdu. Qoymazdı ki, hara gəldi güllə atasan və düşmən hədəfini dəqiq öyrənəndən sonra əmr verərdi. Həmin döyüşdə Sırxavənd oğlanlarının igidliyini, Bəhmənin qorxmazlığını gördüm. Döyüş səngiyən kimi ona yaxınlaşıb əhsən komandir dedim. Elə o gün də Bəhmən Məmmədovla yaxından tanış oldum. Həmişə polis şöbəsinə gələrdi, bir yerdə məsləhətləşib, döyüş planları hazırlayardıq. Bəhməndə əsl hərbçi nizma intizamı vardı. Hər zaman komandir olduğu özünü müdafiə batalyonun əsgərləri arasında o, tez-tez bu cümləni işlədərdi: “ölümə hazır olmaq da bir silahdır. Bir dəfə də onu

işlətmək gərəkdir”. Bu gün Sırxavənd camaatı Bəhmən kimi qəhrəmanla fəxr etməlidir.

Sırxavənd özünümüdafiə batalyonu əsgərlərinin düşmənə qarşı göstərdikləri igidliklərə görə Qarabağda və respublikada ad-san çıxarmışdı. Bəhmən ilk Milli Ordumuzun təməlini qoyan peşəkar hərbçi Şirin Mirzəyevlə görüşüb məsləhətlər alardı.

Mənim yaddaşımdan silinməyib. Qış günləri, qarlı-şaxtalı, boranlı-çovğunlu Sırxavənd yolları. Bir neçə gün idi ki, yağan güclü qar bütün bəndləri, bərələri kəsmişdi, heç bir yer görünmürdü. Fəndgir düşmən şəraitindən istifadə edərək kəndi artilleriya atəşinə tutur, nəyin bahasına olursa olsun Sırxavəndi ələ keçirmək istəyirdi. Getdikcə döyüşlər şiddətlənir, güllə Sırxavəndin üzərinə yağış kimi yağdırılırdı.

Güney postu düşmənin əlinə keçmişdi. Həmin yüksəklikdən Sırxavənd kəndi əlin içi kimi görünürdü. Camaatın əl-qolu bağlanmışdı. Səmədfin əbədiyyətə qovuşması onları yaman sarsıtmışdı. Bundan istifadə edən qarı düşmən kəndə soxularaq bir neçə evi yandırmış və Cahangirin evində özünə mövqe tutan 8 nəfər Sırxavənd döyüşçüsünü mühasirəyə almışdı. Hər ötən dəqiqə kəndin müqəddəratını və mühasirəyə düşmüş igidlərin taleyini həll edə bilərdi. Bəhmən qəti hyücumunun qarşısını almalı, ikinci dəstə isə xəlvəti yolla Əzgilli şişinə qalxmalı, düşmənə arxadan zərbə endirməlidir”.

Dağlara düşmüş qalın qar hərəkəti çətinləşdirirdi. Bəhmənin dəstəsi isə tələsirdi. Hər keçən saniyə bir insan həyatına bərabər idi. Böyük çətinlikdən sonra Bəhməngil Əzgilli şişinə çatdılar. Bəhmən dəstəni iki yerə bölüb tapşırıq verdi. Düşmən qəflətən arxadan atəşə tutuldu. Bunu gözləməyən erməni quldurları çaş-baş qaldılar. Cəsur komandir və onun döyüşçüləri düşməni sərrast atəşlə bir-bir yerə sərirdi. Bəhmənin beşatılanının səsi bütün Əzgilli şişini, Ballıqayanı lərzəyə gətirmişdi. Atdığı hər bir güllə düşməni elə yerindəcə öldürürdü. Sağ qalan erməni quldurları qaçıb canlarını qurtarmağa yol axtarırdılar. Bəhmən neçənci dəfə idi ki, öz döyüşçüləri ilə düşmənin arzusunu gözündə qoyurdu.

Güney postunun erməni yaraqlıları vermək istəmirdilər. Amma arxadan vurulan zərbələrə də tab gətirə bilmirdilər. Düşmən hər tərəfdən gülləbaran edilirdi. Çünki Güney postunu əldən vermək həlledici döyüşü uduzmaq demək idi. Artıq qarşısı alınmaz hücumu görən erməni quldurları geri çəkilməyə başladılar. Bəhmənin komandası ilə ikinci dəstənin döyüşçüləri Güney postunu ələ keçirmişdilər. Amma sayıqlığı əldən vermək olmazdı. Hər şeydən əli çıxmış erməni quldurları növbəti məğlubiyyətlərini görüb, Ballıqayaya tərəf geri çəkilirdilər. Bu günkü döyüşdə Bəhmənin komandirlik etdiyi əsgərlər böyük sınaqdan çıxdılar. Bir daha Sırxavənd igidləri düşmənin böyük qüvvəsi qarşısında əyilməzliklərini qızıl hərflərlə tarixə yazdılar.

Güney postu öz doğma müdafiəçilərinin əlində idi. Bəhmən öndə Güney postuna tərəf irəliləyirdi. Qəfil açılan güllədən Bəhmən səndələdi. Heç bir ağrı

hiss etmədən özünü düzəldib yaxınlıqda gizlənmiş erməni quldurunu yerindəcə gəbərtdi. Başından ağır yara almış Bəhmən Məmmədovu çətin dağ cığırları ilə kəndə gətirdilər. Bəhmənin yarası ağır,Sırxavəndin dərdi isə dözülməz idi. Onu Bakıya gətirdilər.

Xəstəxananın cərrahı:

-25 ilə yaxındır ki, tibbi sahədə çalışıram. Bu illərdə müxtəlif xəstələrim olub. Ancaq Bəhmən Məmmədov kimi sağlam, dözümlü, dağ ürəkli adam görməmişdim. Səkkiz saatlıq cərrahiyyə əməliyyatından sonra üç gün ürəyinin hesabına yaşadı.

Bəhmənin ürəyində Vətən sevgisi, xalq məhəbbəti, düşmənə qarşı sonsuz qəzəb və nifrət var idi. Sənə ölüb deməyə heç kəsin dili gəlmir Bəhmən! Sən Sırxavəndin igid oğlu, xilaskarıydın. Uşaqdan tutmuş böyüyə kimi hamı sənin qəhrəmanlığından danışır. Son döyüşündə düşmənin cəngindən azad etdiyi körpələr sənin yadigarın, gələcəyindir Bəhmən!

Bəhmən Fərman oğlu Məmmədovun vətənə xidməti dövlət tərəfindən layiqincə qiymətləndirilməyibsə sə o qəhrəman adını sağlığında qazanmışdı. İgid komandir Bəhmən Məmmədovun adı əbədiləşdirilib. İndi Sırxavənd kəndinin böyük təssərüfatı Bəhmən Məmmədovun adını dayışır. Mətbuat səhifələrində Bəhmənə həsr olunmuş yazılar dərc olunmuş, efir dalğalarında ona həsr edilmiş verilişlər və radio oçerqlər səslədirilir.

Məzarı Ağdamın Şəhidlər Xiyabanındadır.

## DAĞLARDA İZİ QALDI.



Süleyman Cəmil oğlu Bayramov Sırxavənd kəndində, Kolanı elində tanınıb, sayılan ağsaqqallardan idi. Kolanı dərəsində elə bir adam tapılmazdı ki, Süleyman kişini tanımasın, ona böyük hörmət bəsləməsin. O, qışı aranda, yayı isə uca dağlar qoynunda keçirərdi. Kolxozun mal-qarası hər yay Dəlidağda, Laçınqayada, Ağdoğanda və Qızılqayada köç salırdı. Süleyman kişi bu yerlərin hər yoluna, izinə, qayasına, daşına, dağına yaxşı bələd idi. Sırxavənd maldarlıq fermasının müdri işləyirdi. Qayğıkeş, mülayim xasiyyətli bu el ağsaqqalından köç düşdüyü yerlərdə heç kim inciməmişdi. Həmişə çalışardı ki, bacardığı yaxşılığı etsin. Elə ona görə də Kəlbəcər, Laçın yerlərində bu Kolanı ağsaqqalının öz ad-sanı vardı.

Bir neçə ildir ki, Süleyman kişi o yaylaqların yoluna-izinə diş göynədən bulaqlarına həsrət qalmışdı. Torpaqlarımızda yaranmış ağır vəziyyət bir ağsaqqal kişi Süleyman kişini bərk narahat edirdi. Süleyman kişi heç vaxt təsəvvür etmirdi ki, bu yaşında əlinə silah alacaq, doğma torpaqlarımızın müdafiəsinə qalxacaq.

Kəndin vətənpərvər oğulları razı olmurdular ki, Süleyman kişi yaşda olanlar əlinə silah alsınlar. Amma Süleyman kişi öz silahı ilə düşmənlə üzə-üzə dayanırdı.

Süleyman kişi evini həyət-bacasının Ballıqayadan bir kiçik çay ayırırdı. Döyüşlər qızışanda erməni quldurları kəndə hücum eliyəndə Süleyman kişinin evini oda qalayırdılar. Buna baxmayaraq Süleyman kişi öz isti ocağından, həyət-bacasından çıxmırdı. Süleyman kişi elə öz həyətində quldur gülləsindən ağır yara aldı. Bu xeyirxah, insanpərvər adam 1992-ci ilin mart ayında vətən, torpaq uğrunda ağsaqqal yaşında şəhid oldu. Süleyman kişi, həmişə ağız dolusu danışdığın bacın oğlu Azərbaycanın Milli Qəhrəmanı kimi ad qoyub əbədiyyətə qovuşan Nadirin, yeznən İnqilabın şəhid olduğunu yaxşı ki, görmədin.

Məzarı Əlicalı kəndindədir.

## BİZ DƏMİRYOLÇU OLACAĞIQ



Məzahir Məhərrəm oğlu Həsənov: Zahid Qulu oğlu Süleymanov.

Neçə il əvvəl Sırxavənd kəndində hər səhər məktəbə əli çantalı iki uşaq tələsirdi. Zahidlə Məzahir.

Orta məktəbi başa vurduqdan sonra ürəklərində baş qaldıran arzuları da bir oldu.

Zahid Qulu oğlu Salmanov 1966-cı ildə anadan olub. Zahid körpə ikən atasını itirmişdi. Ailədə yaranmış vəziyyətə görə dayısı Məhərrəm Zahidi öz himayəsinə götürmüşdü. Orta məktəbi qurtardıqdan sonra əsgərliyə çağrılır. Və Uralda daxili qoşun hissəsində öz borcunu yerinə yetirir. Zahiddlə uşaqlıqdan baş qaldıran arzusu onu Qazaxıstan Respublikasındakı Dəmir yol texnikumuna apardı. Zahid həm işləyir, həm də təhsilini davam etdirirdi. Qarabağda cücərən hadisələr haqqında Moskva televiziyası ilə verilən xəbərləri eşitdikdə bu mətbuat səhifələrindəki yazırları oxuduqca çox narahat olurdu. Tez-tez məktub yazır, telefonla əlaqə saxlayırdı. Nəhayət, dəmiryolçu diplomu ilə Vətənə qayıdır.

Zahid doğma kəndinə qayıdanda artıq erməni kəndlərinin əhatəsində yerləşən Sırxavəndin də səksəkəli, narahat günləri başlamışdı. Zahid həmyaşıdları ilə birlikdə kəndin müdafiəsində durur, erməni quldurlarının təxribatlarının qarşısını alır, çətin məqamlarda soyuqqanlılığı, cəsarəti ilə fərqlənirdi. Kəndin üzərinə olan hücumlarda Zahid qorxmazlığı ilə əlbəyaxa döyüşdə neçə-neçə erməni quldurunu məhv etmişdi. Zahid kənddəki özünümüdafiə batalyonunun ən təcrübəli, bacarıqlı səriştəli döyüşçüsü kimi hamının hörmətini qazanmışdı.

Zahid Salmanov Bakıya hərbi kursa göndərilir. Altı aylıq hərbi təlim keçdikdən sonra zabit kimi Kəlbəcər bölgəsinə göndərilir. Zahid komandanlığı tərəfindən dəfələrlə bütün əsgərlər qarşısında göstərdiyi şücaətlərə görə nümunə göstərilmişdir. O, söz düşəndə deyərdi ki, bizim Sırxavənd kəndi də dağlar

əhatəsində yerləşir. Elə Ural dağlarında hərbi təlimdə olanda da birincilər sırasında idim. Kəlbəcərin dağlarında, qayalarında, dərələrində döyüşmək mənə çətin deyil. Zahidgilin bölməsinə Kəlbəcər-Ağdərə istiqamətində irəliləmək tapşırığını vermişdilər. Dəfələrlə bu istiqamətdə kəşfiyyata çıxmış, düşmənin mövqelərini dəqiqliklə öyrənmişdi. Ağdərə rayonunun Çapar, İmarət-Qərvənd; Aterk, Qozlu, Qızılqaya kəndlərinin erməni quldurlarından təmizdənməsində igidliklər göstərmişdir. Döyüşlərin birində qarın nahiyəsindən ağır yaralanan Zahid müalicə olunandan sonra yenə də "N" hərbi hissəsinə qayıtmış və döyüşə atılmışdır.

Məzahir Məhərrəm oğlu Həsənov 1968-ci ildə doğulmuşdur. Orta məktəbi qurtardıqdan sonra Bakı Dəmir Yolu Texnikumuna daxil olmuşdu. Birinci kursda hərbi xidmətə çağrılmışdı. Uzaq Şərqdə 6 aylıq hərbi kursda olub, hərbi texnikanın sirlərini öyrənir. Dəfələrlə valideynlərinə hərbi hissənin komandanlığı tərəfindən təşəkkür məktubu göndərilib.

Uzaq Şərqdə iki illik hərbi xidmətini başa vurduqdan sonra Məzahir təhsilini davam etdirir və 1990-cı ildə Bakı Dəmir Yolu Texnikumunu əla qiymətlərlə başa vurur. Onun təlimatını Bakı şəhəri Dəmir yolu idarəsinə verirlər. Lakin kənddə yaranmış vəziyyətlə bağlı doğma yurdu Sırxavəndə qayıtmağa çalışır. Çox keçmir ki, Məzahir təyinatını Ağdam tikinti trestinə alır. Kəndə gələn Məzahir gündüz kənddə inşa edilən sosial tikintilərdə işləyir, gecələr isə postlarda dururdu.

Müxtəlif cəbhələrdə döyüşən Zahidlə tez-tez əlaqə saxlayır, görüşündə keçdikləri döyüş yolundan danışırdılar. Məzahir Ağdam, Zahid isə Kəlbəcər bölgələrində dəfələrlə düşmənlə üz-üzə gəlmişdilər. Dayı oğlu, bibi oğlu hərdən toylarını bir yerdə edəcəklərindən söhbət açırdılar.

Son dəfə valideynləri məskunlaşdığı Kəngərli kəndində görüşmüşdülər. Bütün gecəni yatmayıb, səhərə kimi söhbət etmişdilər. Sübh tezdən isə hər ikisi cəbhə xəttini yollanırlar.

1992-ci il iyulun 7-də dörd nəfər yoldaşı ilə birlikdə Məzahirə istehkam qurmaq tapşırığı verirlər. Bu tapşırığı yerinə yaterərkən qəhrəmancasına həlak olub. Həmin gün Sırxavəndlilər igidini torpağa tapşırdı.

Ağdərə torpaqlarının erməni quldurlarından təmizlənməsində Zahidin adı-sanı hər tərəfə yayılmışdı. Dəfələrlə ölümlə üz-üzə gələn Zahid qardaşının qanını yerdə qoymamaq üçün düşmənin texnikasını məhv etmişdi. İki dost, eyni əqidə yolçusu olan bu igidlər hər ikisi yayda şəhid olub.

Zahid Qulu oğlu Salmanovun son döyüşü Ağdərədə oldu. Payızada dünyaya gələn Zahid 1993-cü ilin yayında əbədiyyətə qovuşdu.

Vətənin azadlığı, müstəqilliyi, bütövlüyü uğrunda şəhid olan el oğullarımızın ruhu düşməndən qisas alacaq.

Məzahir Salahlı Kəngərlidə, zahid isə Bakıdakı Şəhidlər Xiyabanında dəfn edilib.

## BURDA BİR İGİD ÖLDÜ...



Telman Xasay oğlu Həsənov 1973-cü ildə dünyaya göz açıb. Kənd orta məktəbinin səkkizinci sinfini bitirdikdən sonra Ağdam rayonunda 136 N-li taxniki peşə məktəbinə daxil olmuşdu. Eyni zamanda idmanla, karate ilə məşğul olurdu. Gələcəkdə ali təhsilli idmançı olmaq istəyirdi. Lakin tale buna imkan vermədi.

Müharibə alovları Qarabağ torpaqlarını kəndbəkənd bürüyəndə Telmanın 14 yaşı vardı. Yaşının az olmasına baxmayaraq həmişə kəndin müdafiəçiləri arasında olur, onlara əlindən gələn köməkliyi göstərirdi. Müharibənin günü – gündən genişlənməsinə, erməni quldurlarının azğınlaşması Xasay kişini, Süsən xalanı narahat edirdi. Axı bu ixtiyar valideynlər dünyanın düz vaxtı oğul dağını görmüşdülər.

Dərdim bir-iki deyil,
Yüküm qəm yükü deyil,
Hər kimin dərdi varsa,
Mənimki təki deyil.

Bəli, dilə gətiriləsi dərdlərdən deyil, Süən xalanın dərdi. Beş oğul iki qız böyütmüşdü. Oğulları bir-birindən boylu-buxunlu idi. Tale onun sinəsinə üç oğul dağı çəkmişdi. Nə edəsən, fələyin çərxi dönəndə birdən dönür, dərd gələndə batmanla gəlir. Yaxşı ki, nə Süsən ana, nə də ömür gün yoldaşı Xasay kişi həyat eşqini itirməmişdi. Onlar öz ümidlərini ailənin son beşiyi Telmana bağlamışdılar.

Qarabağ torpağında ermənilərin həyasızlıqlarını getdikcə artır, torpaqlarımıza təcavüzləri genişlənirdi. Telman da u neçə ildə kəndi döyüşçüləri ilə müxtəlif əməliyyatlarda olur, getdikcə mətinləşirdi. Günlərin bir günüdə ot sahəsində Telmanın əmisi Qəzənfər və xalası oğlu Vaqifi quldurlar vəhşicəsinə qətlə yetirmişdi. Kolanı elinə baş vermiş bu ilk hadisə az qala bütün Qarabağı bürümüşdü. Qisasçılıq hissi Telmanı rahat buraxmırdı. 18 yaşı tamam olan kimi könüllü olaraq həqiqi əsgəri xidmətə yollandı. Üç aylıq hərbi təlimdən sonra Ş.Mirzəyev adına özünümüdafiə batalyonunda vuruşmağa başladı. Fiziki hazırlığı, qorxmazlığı, zirəkliyi ilə döyüşçü yoldaşlarına elə ilk günlərdən nümunə göstərirdi. Komandanlığın və döyüşçü yoldaşlarının hörmətini qazanan Telmana həmişə təcrübəli döyüşçü kimi məsul tapşırıqlar verilir, döyüş zamanı ən ağır mövqenin müdafiəsi ona tapşırılırdı. O, Fərrux, Manikli, Canyataq, Gülyataq, Dəhraz, Naxçıvanik, Sırxavənd kəndlərinin quldurlardan təmizlənməsində düşmənlə üzbəüz dayanmışdır.

1992-ci il avqustun 27-si idi. Ağdərənin Qazançı kəndi uğrunda ağır döyüşlər gedirdi.

Axı biçarə ana lap elə dünən öz əli ilə oğluna və silahdaşlarına sovqat aparıb qayıtmışdı. O gün döyüş yoldaşları Telmanı o qədər tərif etmişdilər ki, Süsüən ananın nigarançılığı birə beş azalmışdı.

Bəs indi nə demək idi. Allah, yoxsa doğrudan da biçarə ananın bəxti tərsinə yazılıbmış?! Bu da daha bir oğul dağı.

Bulaq başdan qaradır,
Dibi daşdan qaradır,
Məni soruşan olsa,
Baxtım başdan qaradır.

Hər dağı çəkmək olar. Bala dağı çəkilməzdir deyirlər. Telman kimi igidin dərdini təkcə Süsən ana və Xasay kişi yox, onu tanıyan həmyerlilərinin hamısı, qohum-qardaşları, döyüş dostları da göynəyə- göynəyə çəkirlər.

Ağdam Uzundərə Şəhidlər Xiyabanında dəfn edilib.

## "YURDDA GERİYƏ YOL YOXDUR"



İnqilab Əyyub oğlu Əliyev müharibənin ağrısını, acısını lap uşaq vaxtlarından dadmışdı. Böyük Vətən müharibəsi onu ata üzünə həsrət qoymuşdu.

Qarabağın üzərində əsən küləklər, erməni quldurlarının törətdikləri vəhşiliklər, başqaları kimi İnqilabı da çox narahat edirdi. Müharibədən söz düşəndə uşaqlıq illərini yada salırdı. "Getsin o günlər bir də gəlməsin" – deyirdi.Qonşu Ballıqaya ermənilərinin atdığı güllə İnqilabın həyət-bacasından keçirdi. Düşmən gülləsindən evinin divarları deşik-deşik olmuşdu. "Baba-yurdundan geriyə yol yoxdur" – deyirdi.

İnqilab dəfələrlə bu yerləri tanıyan adam kimi bələdçilik etmişdi. Doğma yurda baş çəkmişdi. Erməni quldurlarının pis əməllərinin canlı şahidi olmuşdu. Cəbhələrdəki uğurlar İnqilabı çox sevindirirdi. Əsgərlərimiz 1992-ci ilin payızında Sırxavənd istiqamətində uğurlu döyüşlər aparırdı. Əldən-ələ keçən Sırxavəndin daşı daş üstünə qalmamışdı. Söz düşəndə İnqilab deyirdi ki, təki quru torpağımıza qayıdaq. Atalar yaxşı deyib: "Sən saydığını say, gör fələk nə sayır".

Vətən təəssübü ilə yaşayan İnqilab Əliyev 1992-ci ilin sentyabrında sürdüyü maşında minaya düşdü.

İnqilab beş qız, bir oğul atası idi. Oğlu Yaşar bu gün atasının yolunu davam etdirir.

Məzarı Ağdam Uzundərə Şəhidlər Xiyabanındadır.

## ANAMA DEYİN GÖZLƏMƏSİN



Nuru Çərkəz oğlu Ağayev 1970-ci ilin yanvarın 13-də anadan olub. Nuru Ağayevlər ailəsinin ikinci oğul payı idi. O gəlişi ilə Çərkəz əmiyə, Fənar xalaya bir dünyaya sevinc gətirmişdi. İncə dodaqlarında təbəssüm dolaşan, qaraqaş, qaragöz, qaraşın, suyuşirin balaca Nuru hamının sevimlisi oldu. Əldən-ələ, qucaqdan-qucağa gəzdi. Əzizlənə-əzizlənə, oxşana-oxşana böyüdü. Orta məktəbi doğma Sırxavənd kəndində qurtardı. Ucaboylu, mehriban, mülayim davranışlı, şən, nikbin təbiətin Nuru dostlarının sevimlisi oldu.

1988-ci ilin yazında Nuru hərbi xidmətə çağrılır. İki illik əsgərlik borcunu Ukraynanın Xmelnitski vilayətində başa vurur. O vaxtlar erməni daşnakları Xankəndində, İrəvan Tetar meydanında gecə-gündüz “Qarabağ bizimdir” deyə qışqırırdılar. Günü-gündən bütün Qarabağ torpağını bürüyən erməni quldurlarının bəd əməlləri Nurunu narahat edirdi. Onun gecəsi-gündüzü fikir içində keçirdi. Nurunun uşaqlıq və əsgərlik yoldaşı Həsən Abdullayev deyir:

-Nuru ilə uşaqlığımız bir yerdə keçib, orta məktəbi də bir yerdə qurtarmışıq. Tale elə gətirdi ki, əsgərlik borcumuzu da bir hərbi hissədə başa vurduq. İki illik əsgərlik dövründə bir günümüz bir il kimi görünürdü. Nuru təşkilatçılığı və bacarığı ilə hamımızdan fərqlənirdi. Biz vətənə tez qayıtmaq üçün yollar axtarırdıq. Nuru ilə dəfələrlə qaçmaq istədik. Amma baş tutmadı. Moskva televiziyası ilə verilən xəbərlər bizi daha da əsəbiləşdirirdi. Elə ona görə də erməni, rus uşaqları ilə dəfələrlə rotamızda mübahisələrimiz düşmüşdü. Nuru vətənpərvərliyi ilə yanaşı, həm də əvəzedilməz dost idi. Dost yolunda canından keçməyə hazır idi. Əlinə düşən bir tikəni bizsiz yeməzdi.

1990-cı ilin mayında Nuru doğma Sırxavəndə qayıtdı. Nuru ilk gündən torpaqlarımızın müdafiəsinə qalxdı. Polad bilək, boy-buxunlu bu igid az müddətdə kənd camaatının hörmətini qazandı. Qarlı-şaxtalı günlərdə vətənin keşiyini çəkdi. Sırxavəndinin bir ovuc torpağı üçün canından-qanından keçməyə hazır oldu. Dəfələrlə düşmən hədəfini susdurdu. Çətin əməliyyatlarda şücaətlər göstərirdi. Neçə erməni quldurunu məhv etdi. Sırxavəndin özünümüdafiə batalyonunun qorxmaz, bacarıqlı bir əsgəri kimi ad-san çıxardı.

Nuru qoçaqlığına, igidliyinə görə sonralar Ağdərə polisinə qəbul edilmişdi. O, hiss edirdi ki, Vətənin azadlığı, müstəqilliyi yolunda lazım gəlsə canından keçməlisən. Ona görə də hər bir döyüşdə irəliyə can atırdı.

Nuru Ağdərə bölgəsində hər bir kəndin, məntəqənin, qəsəbənin ermənim quldurlarından azad edilməsində gedən ölüm-dirim savaşlarında igidliklər göstərmişdi.

Son dəfə yanvarın əvvəlində evlərinə baş çəkir. Evdə: “elə vaxtında gəlmisən” – dedilər. Üç gündən sonra yəni yanvarın 13-də ad günüdür. Keçən il də sənə ad günü keçirmədik. Amma bütün dost – tanışlara xəbər vermişik. Sənin ad

gününü bu dəfə necə lazımdı elə də keçirəcəyik. Nuru heç kimin qəlbinə toxunmasın deyə dinmədi.

...Şaxtalı bir yanvar gecəsi idi. Qış küləyi aləmi bir-birinə qatmışdı. Beş addım irəlini görmək olmurdu. Nurugil kəşfiyyatdan qayıdanda axşamdan xeyli ötmüşdü.

Erməni quldurları isə hücuma keçmişdilər. Ağır döyüşlər gedirdi. Ağdərə polis şöbəsinin əməkdaşları sağ cinahdan düşmənə zərbə vurmaq tapşırığını özü üzərinə götürmüşdü. Xeyli irəliləmişdilər, lakin erməni quldurları tutduqları mövqeləri vermək istəmirdilər. Ölüm-dirim mübarizəsi gedirdi. Getdikcə döyüş şiddətlənirdi. Quldurlar sağ cinahdan vurulan zərbələrə tab gətirməyib, geriyə çəkilməyə başladılar. Nurugilin bölməsi verilən tapşırığı yerinə yetirmişdilər. Ağdərə-Kəlbəcər yolunun bir hissəsinə nəzarət edirdilər. Nurugil yeni aldıqları mövqedə yerlərini möhkəmlədirirdilər. Sübh tezdən başlayan şiddətli döyüşdə əsgərlərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Nuru həmişəki kimi bu dəfə də fərqlənmişdi. Döyüş yoldaşları Nurunu döyüşün qəhrəmanı adlandırırdılar. Qəfil atılan "qrad" mərmisi dörd tərəfi alt-üst etdi. Mərminin bir qəlpəsi Nurunu haqlamışdı. Nurunun köməyinə çatan yoldaşları onu hərbi səhra qospitalına çatdırdılar. "Anama deyin gözləməsin" – deyərək Nuru əbədiyyətə qovuşdu.

Nuru söz düşəndə deyərdi ki, özünüzü "Boz qraddan" gözləsin. O, "qradı" boz qrad adlandırırdı.

Bu döyüş Nurunu son döyüşü idi. Aldığı yara yanvarın 13-də 24 yaşı tamam olan gün 5 iilik keçdiyi döyüş yoluna nöqtə qoydu. Ən mühüm tapşırığını yerinə yeritdikdən sonra Nuru torpaq, Vətən yolunda özünü qurban verdi.

Məzarı Bərdə rayonunun Şəhidlər Xiyabanındadır.

## ONDAN XƏBƏR GƏLMƏYİR...

Erməni quldurları torpaqlarımıza təcavüz edəndə Ələmdar Allahverdi uşaqlıq illərini yaşayırdı. Bu 11 yaşlı oğlan əmiləri Bəhmən və Famildən, qonşuları Bilal, Əhməd və Arifdən əl çəkmir, bütün günlərini səngərlərdə, kəndin müdafiəçiləri arasında keçirirdi. Ələmdar qorxmazlığı, çevikliyi ilə yaşıdlarından seçilirdi. İllər keçdikcə Ələmdar döyüş sirlərini, müxtəlif silahlardan istifadə etmək qaydalarını öyrənirdi. Döyüşlərdə Ələmdar qüvvəsi çatan köməklikləri edir, verilən tapşırıqları yerinə yetirirdi. Çox keçmir ki, kənddə ad-san çıxarır. 1992-ci ilin fevralın 9-da ölüm-dirim savaşında o qəhrəmanlıq göstərir. Düşmən arxasında keçmiş Bəhmən Məmmədovun dəstəsinin patronu tükənirdi. Onlara patron çatdırmaq lazım idi. Bu ağır işi kiçik yaşlı Ə. Abdullayev öz üzərinə götürür və qarlı-şaxtalı gündə keçilməz dağ-dərələri keçərək ər igidlərə patron çatdırır.

Döyüşdən-döyüşə mətinləşən Ə.Abdullayev könüllü olaraq Ş.Mirzəyev adına batalyona üzv sayıldı. O, heç bir təlim keçməmiş batalyonun tərkibində erməni quldurlarının hücumlarına girir, bələdçi kimi verilən tapşırıqları yerinə

yetirirdi. Fərrux, Qazançı, Manikli, Naxçıvanik, Canyataq və Gülyataq kəndlərinin erməni quldurlarından azad edilməsində iştirak edir, onlarla düşməni məhv edir. 1992-ci ilin yayında Ələmdar doğma kəndi Sırxavənd uğrunda gedən döyüşlərdə bələdçi kimi iştirak edir.

Azərbaycan Milli Ordusunun baş leytenantı "Şərəf" döş nişanına layiq görülən Bilal Məmmədovun dediklərindən:

-Ələmdar əsgərlərimizin yaşca ən kiçiyi idi, amma buna baxmayaraq hər döyüşdə onun göstərdiyi şücaətlər hamımızı heyran edirdi. Qorxu nə olduğunu bilmədi. Pulemyot və qrantamyotlardan ustalıqla istifadə edirdi. Dəstəmizin kəşfiyyat işi ona tapşırılırdı. Onun əldə etdiyi dəqiq faktlar döyüşlərdə bizə uğur qazandırırdı. Mehmana kəndi uğrunda qanlı savaşda biz bir qrup döyüşçü mühasirəyə düşmüşdük. Özünə əlverişli mövqe seçən Ələmdar düşmənin bir tankını məhv edərək bizi mühasirədən çıxartdı. Biz onunla Ağdərə, Ortakənd, Maqavuz, Dəmirçi, Çaylı, Çardaxlı, Umudlu, Qozlu, Aptek, Çıldıran və digər Elvin və başqa yoldaşların işıqlı dünyada yaşamasını, məhz Ələmdar bəxş edib. Umudlu kəndinin müdafiəsində bizi ölümdən qurtardı. Həmin an qranatomyotla düşmən hədəfinin gününü göyə sovurdu.

1993-cü ilin payızında Ələmdargilin bölməsi Ağdam cəbhəsinə göndərilir. Ergi, Mərzili döyüşlərində Ələmdar igidliklər göstərir. Dekabrın 29-daq Mərzili uğrunda döyüşləd başlayır. Ələmdarın qranatomyotunun səsi bütün Mərzilini bürümüşdü. O, döyüşün ağırlığını öz üzərinə götürmüşdü. Hər döyüşdə olduğu kimi bu dəfədə Ələmdar əlverişli mövqe tutmuşdu. Döyüşün əvvəlində düşmənin bir tankını məhv etmişdi. Sübh tezdən başlayan döyüş axşamçağına kimi davam edir. Ələmdarın ikinci bir düşmən tankını məhv etməsi döyüşün müqəddaratını həll edir. Ələmdarın ikinci bir düşmən tankını məhv etməsi döyüşün müqəddaratını həll edir. Çox keçmir ki, döyüşlər yenidən qızışır. Düşmən arxasında keçən Ələmdarla əlqə kəsilir. O, gündən bu günə hamı igid Ələmdarın sorağındadır.

## CƏSUR PULEMYOTÇU



Natiq Sevindik oğlu Əliyev 1971-ci il yanvarın 20-də anadan olub. Anamı Odlar diyarının başı üstünü qara buludlar alanda Natiq Rusiyanın Amur vilayətində hərbi xidmətdə idi. Qarabağdan gələn qanlı xəbərlər onu bərk sarsıtmışdı.Göz açıb ərsəyə yetdiyi doğma torpağının düşmən tapdağında qalmasını Natiq heç cürə qəbul edə bilmirdi.Odur ki, hərbi xidməti başa vuran kimi Sırxavəndə qayıdır. Doğma yurdu erməni quldurlarının vurduğu zərbələri görəndə Natiq azğın düşmənə qarşı qan-qan deyə silaha sarsılaraq Sırxavənd batalyonuna qoşulur. Düşmənə qarşı keçirilən hər bir döyüş əməliyyatında Natiqin cəsarəti, hünəri, döyüşkənliyi az müddətdə onu silah dostlarının sevimlisi edir.

1992-ci il martın 5-də Qazançı kəndinin erməni quldurlarından təmizlənməsində düşməni Natiq döyüşün önündə gedərək düşmənin bir tankını və bir neçə yaraqlısını məhv etdi. Gün-gündən döyüşlərdə bərkiyən cəsur döyüşçü Naxçıvanik, Xramord, Aranzəmin, Pircamal, Ağbulaq kəndlərində şücaət göstərir. Fərrux kəndi uğrunda gedən döyüşlərin birində həmişə ön xətti olan Natiq ağır yaralandı. Hərbi qospitalda bir müddət müalicə olunduqdan sonra yenidən düşmənlə üzbəüz səngərə qayıdır.

1993-cü ilin fevralında Daşbaşı yüksəkliyi uğrunda gedən qanlı savaşda dörd nəfər silahdaşı ilə birlikdə gizli yollarda düşmən qüvvələrinin arxası ilə keçərək onlara sarsıdıcı zərbələr endirirlər. Düşmən gözlənilməz zərbədən pərən-pərən düşərək geri çəkilir. Natiq Daşbaşı yüksəkliyinə birinci qalxaraq Azərbaycan milli bayrağını əlçatmaz mövqeyə taxdı. Göstərdiyi igidliyə görə batalyon tağım komandiri seçildi və komandanlıq tərəfindən ona 200 min manat verildi. Düşmənə qarşıamasız olan Natiqi onun yoldaşları "Ermənilərin qənimi" adlandırırdı.

1993-cü ilin mart ayında Natiq sevindi ki, könüllü olaraq Ağdərə RPŞ-də işə qəbul olunur. Polis starşinası doğma torpaqların müdafiəsini öz polis yoldaşları ilə qorumaqda davam edir. Onun ermənilərə qan udduran PK pulemyotunu Koroğlunun Misri qılıncına bənzədirdilər. Natiqin PK-sı şaqqıldayanda hamı bilirdi ki, düşmən xeyli itki verirdi. Marquşevan, Lelinavan, Çaylı, Madakis, Çardaxlı, Akop-Kamari, Ortakənd, Dəmirli, Mehmanə, Drombon, Qızılqaya, Çıldıran, Külyataq, Çanyataq, Dovşanlı, Ballıqaya, Aterk, Qozlu, Umuddu və bir sıra başqa kəndlərin erməni quldurlarından təmizlənməsində, əsl qəhrəmanlıq göstərdi.

1993-cü ilin soyuq yanvar ayıl idi. Natiq öz silahdaşı və dostu ilə Ağdərənin Akop-Kamari kəndində üç erməni qrupu ilə rastlaşaraq onlarla əlbəyaxa döyüşə keçir. Natiq və onun döyüşçü yoldaşı hər üç qulduru məhv edərək onların murdar meyitlərini Ağdərə RPŞ-ə gətirirlər.

Ağdərənin azad edilməsində də Natiqin böyük əməyi olmuşdu. 1994-cü ilin may ayının 6-da düşmən böyük qüvvə ilə Ağdərə rayonunun 3 N-li Savxozuna hücumuna keçmişdi. Düşmən tərəfdən ağır texnika döyüşürdü. N.Əliyev öz polis yoldaşları ilə qeyri-bərabər döyüşə girməli oldu. Döyüşün qızğın yerində hiss edəndə ki, onun döyüş yoldaşları düşmən mühasirəsinə düşmək üzədir, o səngərdən qalxaraq öz PK-sını şaqqıldadaraq düşmənin bütün diqqətini özünə cəlb etdi. Bundan istifadə edən döyüşçülərimiz mühasirədən çıxa bildilər. Düşmən Natiqi diri girov götürmək istəyirdi. Dörd tərəfdən onun üstünə gələn düşmən həlqəsi getdikcə qaralırdı. Natiq son gülləsinə qədər düşmənlə atışdı. Və nəhayət axırıncı günlər... Ani olaraq qəti qərara gəldi-alçaq düşmənə əsir düşməkdənsə vətən uğrunda kişi ölmək şərəfli idi. Daraqda qalan sonuncu güllə Natiqin qəhrəmanıqlarla dolu həyatının son akkordlarını çaldı. Döyüş ərzində o öz pulemyotu ilə düşmənin 35 döyüşçüsünü və bir texnikasını məhv etmişdi. Bu faktı girovlar dəyişdiriləndə düşmən tərəf bildirib. Göstərdiyi şücaətlərə görə

komandalıq Natiq Sevindik oğlu Əliyevə “Azərbaycan Milli Qəhrəmanı” na təqdimat verib.

Məzarı Bərdə rayonunun Şəhidlər xiyabanındadır.

## DAĞLARDA ÇAXAN ŞİMŞƏK



Seymur Sarı oğlu Quliyev 1969-cu il martın 11-də dünyaya göz açmışdı. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmışdı. Seymur iki illik əsgərlik borcunu Xabarovsk vilayətində başa vurur. 1989-cu ildən hərbi xidmətdən təxris olunduqdan sonra əkəndə qayıdır. Həmin vaxt yurdumuzda müharibə ocağının alovu günü-gündən dağ Qarabağda azərbaycanlı kəndlərini bürüyürdü. Sırxavənd camaatı səksəkəli günlərini yaşayırdı. S.Quliyev ilk gündən ermkəni quldurlarına qarşı açıq-açığına bayrağını göstərir. Daşnakların bayrağını kim çıxarıb gətirsə, onu böyük mükafat gözləyir. Günün günorta çağında Seymurla Rizvan həmin bayrağı çıxardıb yerinə qara parça bağlayır.

1990-cı ilin martında erməni quldurları Sırxavənd üzərinə böyük qüvvə ilə basqın etmişdi, kənd camaatı əli yalın olsa da mərdliklə döyüşürdü. Seymur silahdaşları Rizvan, Azər və Əhmədlə düşmənin arxasına keçərək sarsıdıcı zərbə endirir. 1991-ci il sentyabrın 29-da Yavər, Azər, Rizvan Göygəzoğlu Ballıqya kəndində rus əsgəri formasında yoxlama aparır bir erməni yaraqlısını tutub qərargaha təhvil verirlər. Bu əməliyyatın aparılması çox adamları narahat edir. Erməni başbilənləri Qarabağ Təşkilat Komitəsinin sədri Volskidən qəti tələb edir Ki, erməni quldurу azad edilməli, yoxlama aparanlar isə həbs olunmalıdır. Sırxavənd kəndi rus əsgərləri tərəfindən mühasirəyə alınır və bütün evlər axtarılır. Üç gün kənd camaatına olmazın əzab-əziyyəti verilir. Seymur silahı ilə rus əsgərlərinə ətəslim olsun. Yavər öz silahı ilə rus əsgərlərinə yaxınlaşır. Bunu görən rus komandiri əsgərlərinə əmr verir ki, həmin oğlanı tərksilah edib, BTP-ə otuzdursunlar. Bu hadisə kənd camaatını bir anlığa sarsıdır.

Seymur bir neçə dəqiqə keçməmiş əlində əlində qumbara rus əsgərlərinə yaxınlaşır və komandirə deyir:

-Mən doğulub boya-başa çatdığım torpağın azadlığı, müstəqilliyi, onu erməni quldurlarından təmizlənməsi yolunda ölərəm, bəs sən nə üçün öləcəksən?

Çıxılmaz vəziyyətdə qalan rus zabiti bir anlığa ölümlə üz-üzə dayandığını hiss edir və kəkəliyə-kəkəliyə Seymurdan soruşur ki, tələbin nədir?

Dostumu azad elə, özündə əsgərlərinə əmr ver ki, kəndin tərk etsinlər, sonra isə səni sağ-salamat yerinə qaytaracağıq. ÖLümündən qorxuya düşən rus zabiti Seymurla razılaşır və zəif səslə deyir: “Sizin kimi oğlu olan vətən heç vaxt basılmaz”.

1992-ci ilin fevralın 6-da erməni daşnakları Sırxavənd üzərinə böyük qüvvə və ağır texnika ilə hücuma keçir. Kənd üç tərəfdən mühasirəyə alınır. Ölüm-dirim savaşı gündən-günə qızışır, sırxavəndlilər isə köməksizlikdən təklənirdi. Kəndin əsas postu şimaldan Sırxavəndin giriş qapısı adlanan Kərimin Güneyi quldurların əlinə keçmişdi. Həmin postun yaxınlığında Cahangir Qadiroğlunun evində özlərinə mövqe tutmuş 8 nəfər Sırxavəndli quldurların mühasirəsinə düşmüşdü, kəndin baş hissəsində bir neçə ev yandırılıb yerlə-yeksan edilmişdir. Hər ötən dəqiqə 8 nəfər Sırxavəndli döyüşçünün erməni quldurunun ələ keçirəcəyindən və onların qətlə yetirilməsindən xəbər verirdi. Onların patronu tükənmişdi. Mühasirədə qalanlara patron çatdırmağı Seymur öz üzərinə götürür və ağa bürünərək 600 metr məsafəni sürünməyə başlayır. Polis leytenantı Şükran Cəfərovun dediklərindən:

-Adambaşına bir patronumuz qalmışdı. Qərara gəlmişdik ki, içərimizdə hamımızdan yaşca kiçik olan Rizvan Talıboğlu bizi güllələsin. Hər tərəfdən əlaqə kəsilmişdi. Erməni quldurları getdikcə bizə yaxınlaşırdı. Bizim mövqe tutduğumuz evə tərəf ağ geyimdə bir nəfərin sürünməsi diqqətimiz cəlb etdi, əvvəlcə elə başa düşdük ki, quldurlarin növbəti bir hiyləsidir ki, bizi sağ ələ keçirmək istəyirlər. Amma erməni quldurları həmin sürünən adamı gülləbaran edirdi. Həmin adam gah dayanır, gah da bizə tərəf sürünürdü. Bizə lap yaxınlaşanda tanıdıq ki, Seymurdur. Son anda elə bildik ki, onu vurdular. O, bir müddət yerində qaldı və tez durub özünü evin zirzəmisinə atdı. 8 nəfər bu gün Seymura borcluyuq. O, bizi ölümdən xilas etdi.

Sırxavənd kəndi düşmən əlinə keçdikdən sonra S.Quliyev döyüşçü yolunu Şirin Mirzəyevin komandanlıq etdiyi batalyonda davam etdirir. Çox keçmir ki, öz qorxmazlığı, cəsarəti, döyüşkənliyi və bir təcrübəli kəşfiyyatçı kimi bütün batalyon əsgərlərini hörmətini qazanır. Fərrux, Pircamanl, Xromord, Cinli, Xaçın-Dərbənd, Əliağlı kəndlərində şücaətlər göstərirdi. Daşbaşı yüksəkliyinin alınmasında böyük rol oynadı. İki nəfər girov əsgərimizi xilas etdi. 1992-ci il ilunun 10-da Sırxavənd kəndi istiqamətində ordumuzun geniş miqyaslı hücumu başlanır. Həmin əməliyyatın təşkilində Seymur həmkəndliləri Həsən, Ələmdar, Fərhad və Bilalla kəşfiyyata getmiş və düşmənin qüvvə və mövqeləri diqqətlə öyrənmişdi. Bu döyüşdə əfsanəvi qəhrəmanlıq göstərən Seymur kəndin azad olunmasında düşmənin bir texnikasını və bir neçə quldurunu məhv etdi.

1992-ci ilin sentyabrında S.Quliyev Ağdərə rayon polis şöbəsinə işə götürüldü. Polis podpolkovniki Güloğlan Məmmədov:

S.Quliyev Sırxavənd kəndindən tanıyırdım. Onun döyüşlərdə göstərdiyi rəşadət məni heyran etmişdi. Kəşfiyyatçı kimi də əvəz edilməz idi. Ona görə də Seymurun Ağdərə polis şöbəsinə qəbul olunmasını məsul yoldaşlardan xahiş etdim. Çox keçmədi ki, S.Quliyev hər bir döyüşdə mənim ümidimi doğrultdu.

Cəsur döyüşçü S.Quliyev Marquşevan, Leninavan, Çaylı, Çardaqlı, Qısavet, Mehmanə, Sərsəng su anbarı, Umudlu, Zəylik, Qozlu, Moqavuz, Dəmirli,

Qazançı, Dovşanlı, Manikli, Xatınbəyli və Baş Güney kəndlərinin "vışka", "qlobus" yüksəkliklərinin erməni quldurlarından təmizlənməsində döyüşlərin önündə getmişdi.

Çıldıran döyüşlərində əvəzediləz xidmətləri olub.

8 may 1994-cü il 3 N-li sovxoz ərazisində düşmənin iri miqyaslı hücumunun qarşısının alınmasında S.Quliyev öndə olan igidlərdən biri idi. Tərtərin işğalını qarşısına məqsəd qoymuş düşmənin mərkli planının pozulmasında S.Quliyevin də xidmətləri danılmazdır. Bu qanlı döyüş onun qəhrəmanlıqlarla dolu döyüş yoluna son döyüş günü oldu. Ölümündən sonra S.Quliyeva komandanlıq tərəfindən Azərbaycan Milli Qəhrəmanı adına təqdimat verildi. Bu onun layiq olduğu addır. Seymur haqqında "Dağlarda şimşək çaxır" kitabı çapdan çıxmış, mətbuat səhifələrində yazılar dərc edilmişdir. Məzarı Bakıxanov qəsəbəsindəki şəhidlər xiyabanındadır.

## ƏBƏDİYYƏTƏ QOVUŞAN ÖMÜR



Həsən Soltan oğlu Cavadov 1956-cı ildə anadan olub. Orta məktəbi bitirdikdən sonra Politexnik texnikumunun avtomobil nəqliyyatı fakultəsində təhsil almışdı. Təbiətin çox sadə və mehriban olduğundan uşaq yaşlarından dost-tanışların dərin hörmətini qazanmışdı.

Qarabağın üzərini qara buludlar aldığı ilk gündən Həsən özünə yer tapa bilmirdi. Dəfələrlə Sabunçu rayon hərbi komissarlığına müraciət etmişdi. Amma ona: "Lazım olanda səni çağıracağıq"- demişdilər. Bir neçə dəfə könüllü olaraq cəbhə bölgələrinə öz yük maşını ilə hərbi sursat və lazımi paltarlar, ərzaq aparmışdı. Həsən daima özünü əsgərlər arasında hiss edir, can atırdı ki, Vətənin müdafiəsində dayansın.

Həsənin həyat yoldaşı Məleykə xanımın dediklərindən: "Əvvəllər cəbhəyə getmək üçün hərbi komissarlığa müraciət eləsə sə aparmamışlar. Xocalı qırğınından sonra özünə yer tapmırdı. Yola düşməzdən əvvəl gecə yata bilmədi. İndi üstümüzə iki yorğan örtüb yataqmı?-deyirsiniz. Bu nə kişilikdir ki, arvad-uşaqlarımız düşmən əlində əsir-yesir olub, qızlarımızın namusuna sataşırlar. Səhər tezdən çörək alıb gətirdi və tezdə geri qayıtdı ki, cəbhəyə gedirəm. Qəfil xəbərdən özümüzü itirdik, qohum-əqrəba ilə görüşməyə belə imkan olmadı. Xudahafizləşib yola düşəndə: "Arxayın olun, sağ-salamat qayıdacağam, te-tez zəng vurub, məktub yazacağam" – dedi.

H.Cavadov 1992-ci ilin martında könüllü olaraq Ağdam Cəbhəsinə yola düşdü. Naxçıvanik, Xromord kəndləri uğrunda gedən döyüşlərdə igidliklər göstərdi. Sübh tezdən Əsgəran istiqamətində gedən döyüşdə Həsən idarə etdiyi PDM düşmənə qan uddurdu. Bir neçə erməni quldurunu qanına qəltan etdi, bir düşmən texnikasını heyəti ilə birlikdə məhv etdi. Həsən piyadalarının döyüş

maşınını komandiri idi. Onlar döyüşə-döyüşə Əsgərana çatdılar. Erməni postunu dağıtdılar. Kömək olmadığı üçün məcbur oldular ki, geri çəkilsinlər. Bu zaman düşmən mərmisi onların maşınını partlatdı. Bir anda dörd insan ömrü spndü. Onlar dörd cəbhə dostları idi. Həsən Cavadov, Kamal Sabitov, İnşallah Qarayev və İlham Qarayev.

Soltan kimi oğlunun ölümündən sonra Qazax, Goranboy və Ağdərə cəbhə bölgələrində ixtiyar yaşında bir topçu kimi ad-san çıxardı. Bir il səngərlərdə düşmənlə üz-üzə dayandı. Öz topu ilə onlarla erməni quldurunu yavasını dağıtdı.

Həsənin üç körpəsi qaldı. Onun yurdunsa iki oğul, bir qızı böyüyür.

Eldar təzəcə dünyaya gəlmiş oğluna qardaşı Həsənin adını qoyubdur. Bu da talenin işidir.

Bakıda Şəhidlər xiyabanında dəfn edilib.

## BAŞ GÜNEYPƏYƏ KƏNDİ

Ağdərə bölgəsinin şimal-qərbidə yerləşir. Qədim kolanı obasıdır. Baş Güneypəyə tarixən 4 dəfə yandırılıb. Hələ 1905-1920-ci illərdə də ermənilərə güclü müqavimət göstərən kəndlərdən olub. Bu kəndi erməni hücumunun dəf edilməsində qəhrəman kənd adlandırmaq olar.

Əhalisi 1200 nəfər və 130 evdən ibarət idi. Mövqecə hərbi-strateji əhəmiyyətə malik idi. Son dövr hadisələrdə qəhrəman övladları sayəsində erməni kəndlərini daim qorxu altında saxlayırdı. 1992-ci ilin martında işğal edilib. 22 nəfər şəhid olmuş və 10 nəfər yaralanmışdır.

Buralarda ölüm var,
Yoxsa sor özündən
Nədən çox sevir bizi,
Sizin sevmədiyiniz qədər?
(F.Tuncər "Əsgər məktubu")

## BAŞ GÜNEYPƏYƏNİN İLK ŞƏHİDİ



Qəribov Mahir Ataş oğlu 1 avqust 1967-ci ildə anadan olub. Hələ Şuşa Kənd Təsərrüfatı texnikumunda oxuduğu vaxt Şuşa özünümüdafiə dəstəsinə daxil olmuş Nəricahan və Ardışlı kəndlərinin müdafiəsində iştirak etmişdi. Vətən torpağının hər qarışı onunçün əziz idi. Məktəbi bitirdikdən sonra dərhal Baş Güneypəyə özünümüdafiə dəstəsinə daxil olur. O, həm də kolxozda işləyirdi. Gecələr doğma kəndin müdafiəsi üçün qurulmuş postlarda dayanırdı.

Hələ 1991-ci ilin yazında yollar bağlansa da kolxozun qoyun sürüsünü atışa-atışa yaylaqaaparanların önündə olmuş və əsl qəhrəmanlıq göstərmişdi. Məhz

bu göl dədə-baba yoluyla yaylağa qalxan son köç oldu. Erməni kəndlərindən keçib Murova qalxan bu köçün sağ-salamat aparılmasında Maarifin böyük əməyi vardı.

Qəribov Maarif hələ Milli Ordu yaranmamışdan dəfələrlə Ağır döyüşlərə atılan eloğullarımızda idi. O, Sırxavənd, Manikli, Orta Güney, Xatınbəyli və s yaşayış məntəqələrinin müdafiəsində yerli özünümüdafiə dəstələrinin təşkil etdiyi Fısdıqlı, Qızılca, Gərdan adlanan yerlərdə keçirilmiş əməliyyatlarda iştirak etmişdi. O vaxtlar ermənilər bu yerləri "ÖLüm dərəsi" adlandırırdı.

Hamı Maarifin əsl qəhrəman kimi tanıyır və ona rəğbət bəsləyirdi.

20 iyun 1991 ci ildə M.Qəribov ermənilərin dağda qurduğu pusquya düşür və iki tərəfin atəşlə qətlə yetirilir.

Məzarı Baş Güneypəyə kəndindədir.

## ONLAR QOCAYA DA RƏHM ETMİRLƏR



Abdullayev qoşun Süleyman oğlu 1920-ci ildə anadan olub. Böyük Vətən Müharibəsi adlanan rus-alman savaşında iştirak etmişdi. Müharibə veteranı idi. 1991-ci ildə erməni terrorçuları tərəfindən meşədə öz heyvanlarını otararkəın vəhşicəsinə qətlə yetirilib.

Məzarı Baş Güneypəyə kəndindədir.

## GÜNAHSIZ QURBANLAR

Novruzova Səkinə kəndin yaşlı sakinlərindən idi. Onun oğlu Novruzov Şəmsəddin isə xəstə idi. Mart işğalı zamanı hər ikisi qətlə yetirilib.

## O DÜŞMƏNƏ QAN UDDURURDU



Abdullayev Ələddin Salman oğlu 1952-ci ildə anadan olub. Sürücü idi. Hadisələrin ilk günlərindən fəallıq göstərənlərdən olub. Hərbçi olmasa da silahların və hərbi texnikaların sirlərini yaxşı bilir, döyüş yoldaşlarına öyrədirdi.

Ə.abdullayev dəfələrlə təxribat xarakterli əməliyyatlarda iştirak etmişdi. Kəndin müdafiəsi üçün əlindən gələni əsirgəməzdi. Postların təşkil olunmasında böyük əməyi vardı. Məkrli düşmənə qarşı həmişə ayıq-sayıq olmağa çağırırdı.

12 mart 1992-ci ildə ermənilərin irimiqyaslı hücumu vaxtı Ələddin dayandığı mövqeyə düşmən yaxın düşə bilməmiş, onlarla əsgərini itirmişdi. Şahidlərin dediyinə görə Ələddin tək dayandığı mövqedə erməni meyitlərini sayı blinmirmiş. Döyüşün gedişində daha əlverişli mövqe tutmaq üçün yerini dəyişmək istəyərkən Ələddin Abdullayev snayper gülləsinə tuş gəlir. Onun qəhrəmanlıq dolu qəlbi əbədi susur. İndi kiçik oğlu onun yolunu davam etdirir.

Ağdam rayonu Şəhidlər xiyabanında dəfn edilib.

## SORAQSIZ VƏ ÇIRAQSIZ QALAN AİLƏ

Qəribov Balay, Qəribova Saray, Qəribova Ema, Qəribova Nərgiz, Qəribova Zabel 12 mart işğalı zamanı ataları xəstə olduğu üçün kənddən çıxmırlar. 17 yaşlı Nərgiz döyüşçülərdən avtomat alıb öz evlərinə qayıdır. Düşmənə qarşı bu gənc qız döyüşçülərlə bərabər döyüşür. Artıq kənd işğal edildikdən sonra onların taleyindən heç bir xəbər olmur.

Ağdərə azad edilərkən ələ keçən əsirlər Baş Güneynəyə kəndində bir neçə qadının özünü yandırdığını söylədilər. Daha sonra əldə olunan məlumatlarda 17 yaşlı Nərgizin son anadək düşmənə qarşı vuruşduğu bildirilirdi. Kəndi işğal edən düşmən arxayıncasına mağazanın yanına yığışarkən Nərgiz sərrast atəşlə 17 nəfər erməni quldurunu məhv edir. Onu tuta bilməyən düşmənlər əl qumbarası ilə Nərgizin dayandığı mövqeni partladır. Ailənin sonuncu nəfəri beləcə həlak olur.

## VƏTƏN MÜDAFİƏÇİLƏRİ



Aslanov Qəzənfər Qurban oğlu Baş Güneynəyə kəndində sayılan ağsaqqallardan olub. Hadisələrin ilk çağlarından istər müdafiə postlarının qurulmasında, istərsə də müdafiə dəstələrinin yaradılmasında həmişə fəallıq göstərib.

Düşmən hücumlarını qarşısının alınmasında dəfələrlə iştirak edib. 12 mart 1992-ci il erməni birləşmələrinin hücumunun qarşısının alınmasında iştirak edib və ağır yaralanıb.

Aldığı yaradan həlak olub.

Ağdam rayonu Şəhidlər xiyabanında dəfn edilib.

## "TARİXƏ QƏHRƏMANLIQ DƏRSİ KEÇƏN UŞAQLAR"



Novruzov Ziya Əvəz oğlu 1974-cü ildə anadan olub. Cəmi 16 yaşı olan Ziya həmişə öndə olub. Dəfələrlə öz dostu Qurbanla qonşu Çıldıran kəndində təxribatlar törədiblər. Yaşlarının az olmasına baxmayaraq bu iki dost istər müdafiə postlarında, istər hücumda kimsədən geri qalmazdılar.

12 mart 1992-ci il hər iki məktəblinin son döyüşü oldu. Düşmənin qabağını saxlayan Ziya bu döyüşdə həlak oldu və bu ölümlə tarixin özünə bir qəhrəmanlıq dərsi keçdi.

Indi onun haqqında əfsanəyəbənzər həqiqətlər danışırlar. Rus-sovet pioner və komsomolçularının şişirdilmiş qəhrəmanlıq tarixçəsini öyrənən millətimiz üçün Qurbanın və ziyanın döyüş yolu haqqında öyrənməli, təbdiq etməlidirlər.

Məzarsızdır.

Göyüşov Qurban Ramazan oğlu 1974-cü ildə anadan olub. Məktəbli Qurban kəndin müdafiəsi üçün böyüklərdən çox iş görmüşdü. Postlarda yaşlılarla çiyin-çiyinə durmuşdu.

Ov tüfəngiylə müxtəlif əməliyyatlarda iştirak etmiş bu qəhrəman məktəbli dostu Ziya ilə birlikdə Çıldıran kəndinə dinclik vermirdi.

12 mart 1992-ci il işğalı onun sonuncu döyüşü oldu və bu ölümüylə tarixə öz adını həkk elədi. Böyük gələcəyin, bəlkə də görkəmli sərkərdəsi olacaqdı? Bəlkə də.

İndi bu iki nəfər məktəbli haqqında yalnız əfsanələr dolaşır!

Məzarsızdır.

## İMARƏT-QƏRVƏND KƏNDİ

İmarət-Qərvənd kəndi Murovdağ silsiləsi ilə Qocaqurd (Xocaqurd) dağı arasında böyük bir vadidə yerləşir. Kəndin şimal, şimal-qərb və qərb hissəsi meşəliklə örtülmüş sız təpəlikdən ibarətdir.

İmarət-Qərvənd kəndi iki hissəyə bölünür. Kəndin şərq hissəsi kərəmli, qərb hissəsi isə Alməmdədli (Alməətli) adlanır. Evlərin çox hissəsi Kərəmli adlanan hissədədir. Almaməmdədli adlanan hissəni Gərək çayı iki hissəyə bölür. Gərək çayı mənbəyinin Murovdağ silsiləsinin ətəklərindən – Daşağıl, Çayqovuşan, Qaraqaya, Yelli yal deyilən yataqlardan götürür və İmarət-Qərvənd kəndini keçərək “Xot” deyilən günbəzin sağ tərəfindən Tərtər çayına tökülür. Gərək çayının sağ qolu Ağdaban çayı adlanır. Ağdaban çayı Gərək çayının onlarla qolundan biridir. Amma səhvən bu gün də xəritələrdə çay Ağdaban çayı kimi qeyd edilir. Əsrin əvvəllərindən edilmiş səhv yoxlanılmadan bu günə qədər davam etdirilir. Nəticədə qədim bir yurd adını özündə əks etdirən hidronim süni çəkildə yox edilir. Çünki Gərək çayı öz adını “Gərək” adlı kənddən götürür. 18-ci əsr mənbələrində Gərək çayının adı çəkilir. İndi də çayın yuxarı hissəsində “Gərəyin düzü”, “Gərəyin qəbiristanlığı” adlanan yerlər var.

Tarixi arayış: Xanlıqlar dövründə söz gedən ərailər “Kolanı mahalı” adlanmışdır. Mənbələrdən məlum olur ki, nu mahal şərqdən və cənub-şərqdən “Xəmsə” məlikləri, qərbdən isə Göyçə mahalı ilə sərhəd olmuşdur. Kolanı mahalının kəndlərindən biri Gərravənd kəndi də “Kolanı yurdu” kimi xatırlanan Uşacıq kəndi ilə üzbəüz olmuşdur. Ümumiyyətlə, Tətərçayın orta axarı Kolanı tayfasından ibarət olan oba şenliklərlə zəngin olmuşdur. Gərrəvənd kəndi 19-cu əsrin 40-cı illərində I,II və III Gərrəvəndə kimi xatırlanır. Bu toponimin mənası hələlik açılmayıb. Gərrəvənd oykonimini Gərayvənd, yəni, Gəraya məxsus olan

tayfa, qəbilə kimi də izah edirlər. Mənə görə Gərrəvənd əhalisi elə “Gərək” kəndinin əhalisidir və Gərravənd burada “Gərəkvənd” kimi də izah edilir.

Mənbələrdə I Gərravənd kimi həm İmarət-Kərrəvənd, həm də Hacı (Ajı) Gərravənd, II Gərravənd kimi Çıraqlı, III Gərravənd kimi isə Umudlu kəndi xatırlanır.

Bu gün Azerk adlanan Həsənriz kəndi ilə sonralar Köhnə çapar adıanan Uşacıq kəndi arasında Qəyanəyə, Zəlifli, Seyidlər, Çıraqlı, Qarayözlü, Kərəmli, Qazıxanlı, Rəsilli, Almədədli və Bəylik obaları olmuşdur. Tərtər çayının yaınlığında isə Alıbəyli “Xot” adlanan günbəzdən yuxarı gərək çayının sol tərəfində isə 19-cu əsrin əvvəllərində Buruc kəndi olmuşdur. Burucla Seyidlər arasında Çıraqlı kəndi olmuşdur. İndi də orada “Çıraqlı suyu” adlı yer var. Seyidlər kəndinin yerində isə 1918-ci ildə ora gəlmiş ermənilər yerləşmiş və kənd Zərdəxaç adlanmışdır. Buruc və Çıraqlı kəndi 19-cu əsrin əvvəllərində baş verən mürəkkəb ictimai-siyasi proseslər nəticəsində dağılmışdır. İndi həmin əhali Tərtər rayonunda yaşayır. Yerdə qalan digər kəndlər isə 1905-1918-ci illərdə dağıdılmışdır.

19-cu əsrin axırlarında Kərəmli ayrıca kənd kimi xatırlanır. 1905-1918-ci illər erməni müsəlman davasından sonra adı çəkilən obalardan geri qayıdan əhali əsasən Kərəmli adlanan hissədə yerləşir.

## VƏTƏNİN HƏR QARIŞI UĞRUNDA DÖYÜŞƏNLƏR



8 aprel 1992-ci il... Bu gün tarixdə Ağdaban faciəsi kimi qalacaq. Həmin gün Ağdaban sakinləri ilə bərabər İmarət-Qərvəndin 6 döyüşçüsü də qəhrəmanlıqla həlak oldu. Onlardan biri də Misir Əliyev idi.

Əliyev Misir Pənah oğlu 1957-ci ildə anadan olub. Hərbi xidmətdən sonra Gəncə İnşaat Texnikumunu bitirib, kəndə qayıdır. Dakit, həlim təbiətli bu cavan öz peşəsinə uyğun qurub-yaratmaq arzusu ilə yaşayırdı. Həm də təşkilatçı idi. Kəndin mühasirədə olduğu bir şəraitdə cavanların dağılıb getməməsi üçün Kəlbəcərin Qılıclı kəndində olan peşə məktəbinin filialını kənddə açır. Elə o vaxtlar cavanlar bacardıqları şəkildə silaha sarılıb doğma yurdlarını qorumağa girişmişdilər.

... İmarət-Qərvənd yandırıldıqdan sonra Misirin ailəsi Kəlbəcərin Laçın kəndində yerləşmişdi. Özü isə İmarət-Qərvənd “Qisasçı” adı ilə tanınan özünümüdafiə batalyonunda döyüşürdü. Aterk, Zərdəxaç, Qetevan, Çapar və sonralar İmarət-Qərvənd kəndi uğrunda gedən döyüşlərdə dəfələrlə fərqlənmişdi.

8 aprel düşmən Ağdaban kəndini mühasirəyə alır. Kəndə köməyə tələsən İmarət-Qərvənd igidlərindən ibarət bir dəstə pusquya düşür. Mühasirəni yarıb çıxmaq istəyən dəstədən səkkiz nəfər həlak olur. Misir də həmin döyüşdə şəhid oldu... İki övladı qaldı: qızı Jalə və oğlu Elçin.

Kəlbəcərin Laçın kəndində dəfn olunub.

## KƏRƏMLİDƏN ZƏNGİLANADƏK UZANAN YOL



Dadaşov Xəlil İslam oğlu 1974-cü il yanvar ayının 23-də anadan olub. Orta məktəbi Kərəmlidə qurtarmaq Xəlilə qismət olmadı. Orta təhsilini Tərtər rayonunda 183 №-li texniki-peşə məktəbində davam etdirmişdi. 1992-ci ilin noyabrında Milli Orduya həqiqi hərbi xidmətə göndərilmişdir. Füzuli və Zəngilan bölgələrində dəfələrlə döyüşlərdə olmuşdu. 1993-cü il may ayının 12-də Zəngilan rayonunun Ağbənd kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu.

Subay idi. Tərtər rayonunun Sarov kənd qəbiristanlığında dəfn edilib.

## İTKİN

Azad haqqında məlumat ala bilmədik. Ancaq onu bilirik ki, İmarət-Qərvənddə anadan olub. Səkkizillik təhsilini başa vurub. 1988-ci ildən 1991-ci ilin sentyabrına qədər ermənilərə qarşı vuruşub Çapar, Zərdəxaç döyüşlərində iştirak edib. Sonralar Milli Ordunun tərkibində Drombon tərəflərdə döyüşüb. Çaylı, Maqavuz, Çardaklı, Madagiz, Mehmana və Ağdərənin digər kəndlərinin azad olunmasında iştirak edib. 1992-ci ilin axırlarında Drombon-Çıldıran tərəflərdə itkin düşüb... İtkin düşən vaxtı təxminən 19-20 yaşı olardı.

## OĞLUNU VƏTƏNƏ QURBAN DEMİŞDİ

Almasov Tağı Süleyman oğlu – 1929-cu il fevralın 17-də anadan olub. Ömrü boyu kolxozda çalışıb. Erməni xəyanəti başlayan zamandan onlarla mübarizəyə qalxıb. İmarət-Qərvənd partizan dəstəsinin qocaman və fəal üzvlərindən olub. Oğlanları da onunla birgə döyüşüb.

1991-ci il o gecə adlanan döyüşdə erməni hücumunun qarşısının alınmasında Tağı kişinin əvəzsiz xidmətləri olub. Ümumiyyətlə, elə bir döyüş olmadı ki, o öz oğlanları ilə birgə iştirak etməsin.

Kərməlinin qəhrəmanlıq epopeyası olan hücum və müdafiəsində, sonralar isə Kəlbəcərin, xüsusən də Ağdabanın müdafiəsində şücaətlər göstərən Tağı kişinin döyüşçü taleyinə də, şəhidlik yazılıbmış.

8 aprel 1992-ci il. Ağdaban faciəsi baş verən zaman Tağı kişi də köməyə tələsən dəstədə idi. Bağlıpəyə - Ağdaban yolunda pusquya düşürlər. Dəstə axıra qədər döyüşür, düşmənə təslim olmur. Bir neçə nəfər mühasirədən çıxa bilir. Qalanları isə həlak olur. Oğlu Şahid də bu döyüşdə düşmən gülləsinin qurbanı olur.

Bu ata-oğul şəhid Bağlıpəyə kənd qəbiristanlığında dəfn edilib.

## QƏHRƏMAN ATANIN QƏHRƏMAN OĞLU



Almasov Şahid Tağı oğlu 1 yanvar 1969-cu ildə anadan olub. 1991-ci il sentyabrın 24-də İmarət-Qərvənd kəndi yandırılan zaman düşməndən sonra qisas almağa can atan igidlər sonralar "Qisasçı" partizan dəstəsinə könüllü daxil olublar.

Şahid də belələrindən idi. Atası Tağı kişi və qardaşları ilə birgə döyüşürdü. Kəşfiyyatçı idi. Əsas döyüşləri Qetavan, Zərdəxaç, Aterk, Çapar uğrunda olmuşdu. Qardaşı ilə birlikdə kəşfiyyatda olarkən kənddə qalmış ağacı-daşı söküb aparan ermənilərі məhv etmişdilər. Çaparda neçə düşmən evi-eşiyi ilə birlikdə cəhənnəmə göndərmişdilər. Kəşfiyyatçı kimiəvəzsiz idi. Ancaq o, da Ağdaban faciəsi baş verən zaman köməyə tələsən dəstədə pusquya düşdü. Düşmənin sıx həlqəsini yarmağa cəhd edərkən həlak oldu. Misilsiz döyüş yolu keçmiş Şahid atası ilə birgə şəhid oldu. Arzusu kəndinə qayıtmaq, bu yolda axıra qədər döyüşüb qisas almaq idi.

9 apreldə Bağlıpəyədə dəfn onunub.

## GÜNAHSIZ QURBANLAR

Əliyeva Zeynəb 1894-cü ildə anadan olub. Üç dəfə ermənilərin Azərbaycan türkləri üzərinə hücumunun şahidi olub: 1905 – 07, 1918 – 20 və 1988-?

1991-ci il sentyabr ayının 17-də ermənilərin İmarət-Qərvənd üzərinə axırıncı və ardıcıl hücumları başladı. Hücumun ikinci günü, yəni sentyabrın 18-i axşamı kənddə yandırılan beş evdən birində Zeynəb qarı da yandırıldı. Zeynəb qarının hansı vəhşiliklə yandırılması erməni xarakterini tam açıqlayır, yaşlı kor, heç bir köməyi olmayan qarını ermənilər yandırmaqla həzz alırdılar.

Öz evi Zeynəb qarının son məzarı oldu.

## VƏTƏN YANĞISI YAŞA BAXMIR



Almasov Ağa Qaçay oğlu 1929-cu il yanvarın 1-də anadan olub. 1949-1952-ci illərdə hərbi xidmətdə olublar. Əmək fəaliyyətinə kolxozda başlayıb. Fəhləlikdən başlayaraq sahə briqadiri, ferma müdiri, ambardar, partiya təşkilatı katibi və kənd icraiyyə komitəsi sədrinə qədər həyat yolu keçib.

1988-1991-ci illərdə İmarət-Qərvənd müdafiəsinin əsas təşkilatlarından biri olub. İmarət-Qərvənd yandırılandan sonra yandırılan partizan dəstəsinin və onun əsasında təşkil olunmuş N batalyonun kəşfiyyatçısı olur.

İmarət-Qərvəndin “Qisasçı” dəstəsi onun məlumatları əsasında uğurlu əməliyyatlar aparıb.

1991-ci ilin payızında İmarət-Qərvənd yandırılsa da orada keçmiş Sovet Ordusunun bir batalyonu yerləşmişdi.

1991-ci il noyabrın əvvəllərində “Qisasçı” partizan dəstəsi İmarət-Qərvəndi azad etmək üçün ardıcıl döyüşlər aparırlar. Ağa kişi həmin döyüşlərdə fəal iştirak etmiş və dəfələrlə kəndin lazımi məntəqələrinə olub rus və erməni hərbi birləşmələrinin fəaliyyətini izləmişdir. Bu cəsur vətən oğlu 1991-ci il noyabrın 6-dan 7-nə keçən gecə başından küt alətlə ağır yara almış və Tərtərə gətirlimişdir. Noyabrın 15-də Ağa kişi şəhidlik zirvəsinə qovuşdu. Ailəsi Tərtərin Buruc kəndində məskunlaşıb. Hacı Qərvənd kəndində dəfi olunub.

## İTKİN



Alıyev Tələt 20 may 1972-ci ildə anadan olub. 1989-cu ildə İmarət-Qərvənd kəndinə olan hücumun qarşısının alınmasında fəal iştirakçısı olub. “Qarağacı” döyüşündə fərqlənib. 1991-ci il 24 sentyabrdan sonra Tərtər rayonuna gəliblər. Ağdamın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib.

1994-cü il aprel ayında düşmən Tərtər rayonu istiqamətində şiddətli hücuma keçir. Hər qarış torpaq uğrunda qanlı savaş gedirdi.

Düşmən müdafiəni yarmağa can atırdı. Tələt bu zamna Ağdamın Tağıbəyli kəndi ətrafında döyüşürdü. Qüvvələr qeyri-bərabər idi. Yaxınlaşan zirehli texnika onlara aman vermirdi. Tələt qumbaraatanla yaxınlaşan tanklardan birini nişan alır...

Geri çəkilən yuldaşları öz sıralarında Tələti görmürlər. Kimi onu yaralı gördüyünü, kimi də tankı vurandan sonra geri süründüyünü deyirdi.

1994-cü il aprelin 24-də Ağdamın Tağıbəyli kəndi uğrunda gedən döyüşlərdə Tələr Alıyev itgin düşdü.

## TARİX QƏHRƏMANLARA ÖZÜ QİYMƏT VERƏCƏK

Əliyev Azər Ələkbər oğlu 1969-cu ildə anadan olub. 1976-1986-cı illərdə orta təhsilini başa vurur və 1987-ci ildə hərbi xidmətə çağrılır. 1987-1989-cu illərdə Şərqi Almaniyada (keçmiş ADR) xidmət edən Azər sürücü-maxanik kimi həri texnikanın sirlərinə yiyələnib.

Azər doğma el-obasına qayıdanda erməni təcavüzü ilə rastlaşır. Yaxın yoldaşları ilə neçə-neçə basqının qarşısını alır, müxtəlif əməliyyatlarda iştirak edir.

Azər Əliyev 1991-ci ilin yanvar ayının İmarət-Qərvənd kəndində bu qədim hərbçilərlə birlikdə keçirilən Aterk (Həsənriz) əməliyyatında iştirak etdi.

1991-ci ilin 17 iyununda Aterk, Zərdəxaç, Çapar, Qetavan və s. kəndlərində olan erməni hərbi birləşmələri İmarət-Qərvəndə hücuma keçdilər. Kənd iri canlı pulemyotlardan, avtomatlardan, qranat atan silahlardan atəşə tutuldu. Azər Sarıqaya-Qarağacı istiqamətindən hücum edən Aterk, Zərdəxaç birləşmələrinə qarşı döyüşürdü. Azər bu döyüşdə fərqlənir... Ov tüfəngləri, tir və beşatılanlarla düşmənin qarşısını alır və geri otuzdururlar.

Aydınlıq üçün bildirirəm ki, avqustun 13-də Aterkdə Sovet Ordusunun 14 nəfər əsgər və katibi bütün texnikası və silahları ilə əsir düşdülər. Həmin əsgərlər avqustun 22-də azad olundu, silah və texnika ermənilərə qaldı. Yuxarıda qeyd etdiyim Aterk əməliyyat avqustun 18-i 22-də əsgərləri geri qaytarmaq şərti ilə keçirilmişdi. Azər digər polis yoldaşları ilə birlikdə bu əməliyyatda iştirak etmiş və fərqlənmişdi.

Sentyabrın əvvəllərindən kəndə hücumlar daha da şiddətləndi. 7 sentyabrda olan hücum zamanı Azər yenə də Sarıqaya-Qarağac cəbhəsində, kəndin şimal-qərbində döyüşür... Ayın 11-də M.Əsədovun gəlməsi ilə kəndə əlavə qüvvələr göndərildi. XTPD-nin 50-yə qədər köməyə gəldi...

17 sentyabr 1991-ci il. Bu gün axşamdan başlayan döyüş 24 sentyabra qədər çəkdi. Köməyə gələn qüvvələr kəndi tərk etdilər. Kənd iki gün dalbadal “Alazan” və digər ağır silahlarla atəşə tutuldu. Sonra isə piyadaların hücumu başlandı. Sentyabrın 22-də isə kənddə olan hərbçilər üçün gətirilən silahlar və döyüş sursatı BMP-lərə yükənib Çaparda olan erməni birləşmələrinə bağışlanmışdı. Bu Sovet Ordusunun hədiyyəsindən sonrakı açıq şəkildə ermənilərə verdiyi ikinci hədiyyəsi idi. Bütün bunları göstərməkdə məqsədim müdafiənin hansı şəraitdə getdiyini xatırlatmaqdır.

Azər bu döyüşlərdə gah Zəlligöl-Qarağac, gah da Çapar istiqamətində döyüşən yoldaşlarına köməyə atılırdı. Harada qorxulu vəziyyət yaransa idi Azəri oradagörmək olardı. Mən özüm şahidəm ki, (Q.Mustafayev nəzərdə tutulur – red.) 23 sentyabrda kəndin şimal-şərq ərazisindən, Sarıqaya, Məmmədxan istiqamətində düşmən kəndə girməyə cəhd edən zaman Azər özünü necə köməyə çatdırdı? Bir mövqedə 8 nəfər qalmışdıq. Düşmən sürətlə hücumla söz gedən ərazidə kəndə girməyə cəhd edirdi. Çapar tərəfdə, Alməd ətli istiqamətdə döyüşən Azər 5 nəfərlə köməyə çatdı. Həmin istiqamətdən düşməni 3 km-ə qədər geri oturtduq. Ancaq təəssüf ki, ermənilərin Çapardan olan hücumun qarşısını ala bilmədik. Ermənilər buradan kəndin Almədətli hissəsinə daxil olmuş Çökəkməhlə ilə mərkəzə doğru irəliləmişdi. Azər yenə də həmin istiqamətə köməyə getdi.

Hər ev uğrunda əlbəyaxa döyüş getdi. Ermənilərdən 12 nəfər öldürülmüş. 30-a qədər yaralanmışdı. Həmin dövr üçün ermənilərə güclü zərbə vurmuş, bir nəfəri çıxmaq şərtilə canlı qüvvədən itki verməmişdik. Amma evlərin dörddə üçünü yandırmışdılar... Ermənilərin rəsmi məlumatına görə 6 nəfərləri öldürülmüş 26-sı yaralanmışdı.

Azər bu döyüşdə bir erməni əsgəri öldürmüş, üçünü isə ağır yaralamışdı. Azər Ağdaban, Çərəklər, Marquşevan, Çaylı, Çardaqlı, Ağdərə, Mehmana, Drombon, Çıldıran uğrunda gedən döyüşlərdə iştirak etdi. Hər döyüşdə itirdiyi yoldaşlarının qanını aldığına görə qisasçı kimi tanınmışdı. Drombon (heyvalı) Vəng ərazisində dəfələrlə ölümlə üzləşdi.

Azər təhsilini artırmaq istəyirdi. Bu məqsədlə işlərini polis məktəbinə vermişdi.

1994-cü ilin aprel ayında başlayaraq düşmənin Tərtər istiqamətində başlanan hücumu qanlı xarakter aldı. Ona məzuniyyət verildi. Ancaq o, məzuniyyətdən axıra qədər istifadə etmədi. Döyüş və döyüşçü dostları üçün darıxırdı. Onu həm də darıxdıran düşmənin irəliləməsi idi.

26 aprel 1994-cü il. Borsunlu kəndi uğrunda qanlı döyüş gedirdi. Azər burada, döyüşən polis bölüyünə rəhbərlik edirdi. Öz qorxmaz hərəkətləri ilə döyüşçü dostlarını ruhlandıran və heyətləndirən Azər qabaqda gedirdi. Milli Ordunun əsgərləri ilə birlikdə onun rəhbərlik etdiyi polis vzvodu düşmənin öz səngərini zəbt edirlər. Geri otuzdurulan düşmənin ikinci xətdə olan səngərlərinə birinci girənlərdən biri də Azər olur. Həmin döyüşdə Azər düşmənin bir-neçə əsgər və zabitini məhv edir. Onun girdiyi səngər öldürdüyü düşmən zabitini səngəri idi. Azər əlini düşmən tərəfdən atılıb qalmış "patsiya"ya uzadır... Artıq geri otuzdurulmuş düşmən snayperçisi öz hədəfini axtarırdı. Dağlar oğlu isə öz el-obasının, yoldaşlarının qisasını alırdı...

Danışırlar ki, Azər onu aparan yoldaşlarına ürək-dirək verirmiş "ə kişisiz, nə olub sizə!" deyirmiş. Elə həmin gün aprelin 26-da Azər qospitala çatmamış şəhidlik zirvəsinə yüksəldi...

Bərdə rayonunun "Şəhidlər xiyabanın"da uyuyur..

Gülər və Günel adlı iki övladı qaldı.

R.S.Komandanlıq Əliyev Azər Ələkbərov oğlunun keçdiyi döyüş yolunu qiymətləndirərək Milli Qəhrəman adı vermək üçün ona təqdimat verib. Azər bu ada layiq idi. Onun hər cəhətdən bu ada sahib olmağa haqqı var idi.

## XATINBƏYLİ KƏNDİ

Tarixən bu kənd dörd dəfə yandırılıb. Xatınbəyli kəndi qədim Kolanı obasıdır. Və kolanılar ta qədimdən bu yurdda sakindirlər. Yerləşdiyi Sığnaq yaylası qədim türk toponimlərindəndir. Hələ Turanda belə əyalət və Türkistanda isə Sığnaq qalası olmuşdur. Qalanın tikintisi Əmir Teymurun adı ilə bağlıdır. (G.Bamberi "Əmir Teymur").

Əhalisi 286 nəfər və 32 evdən ibarət idi. Ağdərə-Xankəndi yolu üzərində yerləşirdi. Mövqecə hərbi-strateji əhəmiyyət malikdi. Kənd əhalisindən 6 nəfərə şəhid olmuş, 6 nəfər müxtəlif dərəcələrdə yara almışdır. İki nəfərə komandanlıq

tərəfindən Azərbaycanın Milli Qəhrəmanı adına təqdimat verilib. Bir nəfər Azərbaycan Bayrağı ordeniylə təltif edilib.

Əzizim ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir igid ölüb,
Göy kişnər, bulud ağlar.

## BAŞIMA BİR İŞ GƏLSƏ QANIMI YERDƏ QOYMAYIN...



Cahid Məstan oğlu Gəncəliyev 1966-cı ildə anadan olub. Xatınbəyli kəndinin ilk şəhididir. "Kolanı" qisasçı təşkilatının ən fəal, qorxubilməz, üzvlərindən olub. Xromordun azad edilməsində, Cinyataq kəndinə hücumda, Mehmanə kəndinə reyddə iştirak edib. Cahid düşmən postlarının dəfələrlə darmadağın edilməsinin əsl ilhamçısı isi. Cahid gecə-gündüz doğma torpağın müdafiəsində olardı. Erməni postuyla üzbəüz səngər qazmışdı. İndi də o yer Cahidin səngəri adlanır. Bu əfsanəvi qəhrəman hələ Milli Ordu olmayan dövrdə bir alayın işini görürdü. Onun gülləsindən düşmən can qurtara bilməzdi.

Cinyataq kəndi əsl quldur yuvasına çevrilmişdi. Bu kənd ətraf türk kəndlərinə dinclik vermirdi. Kolanı qisasçı təşkilatının rəhbərliyi V.Sarıkişiyev, və M.Alıyev tərəfindən Canyataq kəndinə girmək planı hazırlandı. Təşkilata daxil döyüşçülər Qur'ana əl basıb and içirdilər: "Biz qarətə deyil, qisas üçün gedirik!".

Həmin gecə səhərə qədər Canyataq ətrafında erməni postları bütünlüklə ələ keçirildi və səhərə yaxın yeddi nəfərlik bir qrup kəndə daxil oldu. Cahid Gəncəliyev də bu qrupa daxil oldu. Kəndə gedən işığı söndürmək lazımdı. Bu təhlükəli işin öhdəsindən gəlmək çətin idi. Çünki düşmən postu buna imkan verməyəcəkdi. Bu dəm Cahid işığı üç güllə ilə söndürəcəyinə və elə bu atəşin hücum siqnalı olmasını söylədi. Elə dediyini də yerinə yeritdi. Reyd dəstəsi kəndin içərilərinə doğtru hərəkət etdi. Mühasirəyə alınmış Canyataq əhalisi vahimə içində qaçıb kəndfdən uzaqlaşır və reydçilər müqavimət göstərən quldurları məhv edirdilər. Bu uğurlu əməliyyatda əsas məqsəd azğınlaşan ermənilərə dərs vermək idi və bu tapşırığa əməl edilmişdi.

Uzaqdan ruhlanan döyüşçülər evləri yandırır, küçə döyüşü aparan quldurları məhv edirdilər. On üç quldur öldürülmüşdü. Səhər açılar-açılmaz dəstəyə kəndi tərk etmək əmri verildi.

Döyüş yoldaşlarını xilas etmək məqsədilə pusquda dayanmış qulduru yarayayır və yaralı erməni quldurun atdığı güllə isə ondan yan ötmür. Ölümcül yaralanan qəhrəman özünü şax tutur və yoldaşlarına "Əgər başıma bir iş gəlsə qanımı yerdə qoymayın" – deyir. Cahidi yaralayan quldur elə oradaca qanına qəltan edilir. Onun döyüş dostları dəfələrlə Cahidin qisasını alırdılar.

Cahid Gəncəliyevin yuxusuz gecələr keçirdiyi dağlar 1992-ci il fevralın 1-də yasa batmışdı. Ərtaf kəndlərin əhalisi Cahidlə vidalaşmağa tələsirdi. Xatirimdədir ki, Cahidin ölümünü eşidənlər yana-yana: "Cahid də ölərmiş!" – deyirdilər.

Ermənilər Ağdərənin azərbaycanlı kəndlərinə hücumu bu əfsanəvi qəhrəmanın yas mərasiminin 40-cı gününə saldılar. Ölümündən sonra Xatınbəyli kənd orta məktəbinə və Ağdərə azad edildikdən sonra isə mərkəzi küçələrdən birinə C.Gəncəliyevin adı verilmişdi.

Əsl qəhrəmanları xalq unutmur. Hər dəfə Ağdərə igidlərindən söz düşəndə ilikn Cahidin adı yad edilir, onun qəhrəmanlıqlarından söz açılır.

Manikli kəndində dəfn edilib.

## YAŞAMAQ ÜÇÜN VƏTƏN UĞRUNDA ÖLMƏK LAZIMDIR...



Altay Vaqif oğlu Sarıkişiyev 1971-ci il avqust ayının 1-də dünyay göz açmışdı. Azərbaycan İnşaat Mühəndislər İnstitutunun 5-ci kurs tələbəsi idi.

Hələ hadisələrin ilk vaxtlarından Altay Sarıkişiyev erməni separatçılarına qarşı mübarizə aparan, yerlərdə müdafiə dəstələrinin yaradılmasında xüsusi xidmətləri olan əsl vətənpərvər idi. Hadisələrin kəskinliyini görən Altay üçün Bakıda qalmaq mübarizədən yayınmağa bərabərdi. Elə ona görə ki, o, oxuduğu məktəbdən qiyabi şöbəyə keçərək doğma Xatınbəyliyə qayıdır.

Ağdərə kəndlərinə diş qıcamış düşmənə qarşı A.Sarıkişiyev Qazançı, Canyataq və Kiçan əməliyyatlarında iştirak edir. O, dəfələrlə düşmən arxasına keçən Kolanı qisasçı dəstəsinin önündə və düşmənlərə ağır zərbələr endirilməsində xüsusi xidmətlər göstərmişdir.

Yaranmış vəziyyətdə gecə-gündüz yatmadan istehkamlar qurmaqdan yorulmurdu. Altay həlak olduğu anadək öz cibində gəzdirdiyi dəftərcəsində yazmışdı: "Yaşamaq üçün Vətən uğrunda ölmək lazımdır... Dünyada hər şeyi torpaq yaradır. Bitkinin də, heyvanın da, hətta insanın da. Və hər şey torpağa qovuşur. Deməli, Vətən dediyimiz insanın özdür... Ey Odlar diyarı qoy ər oğlanlarıdır, igid qızların məhv olsun, ancaq anamız Azərbaycan yadların tapdağına çevrilməsin".

Bu sözləri yazan qəhrəman hamı kimi yaşada bilməzdi. Doğma kəndini canı qədər sevən Altay işğaldan heç bir həftə ötməmiş xüsusi dəstə ilə kəndə yollanır və yolları minalayırlar.

A.Sarıkişiyevin iştirakıyla işğaldan sonra yerli əhalidən ibarət kəşfiyyat rotası təşkil edilir. Taqım komandiri kimi A.Sarıkişiyev dəfələrlə kəşfiyyata göndərilir və hər dəfə də yeni məlumatla qayıdır.

Sonra Ağdərənin azad edilməsi uğrunda döyüşlrlə iştirak edir. Düşmənin onlarla canlı qüvvəsini məhv etmiş, dəfələrlə düşmən arxasına keçərək düşmənə ağır zərbələr vurulmasında xüsusi rəşadət və igidlik nümunəsi göstərmişdir.

O, Dovşanlı dağı uğrunda gedən mühasirəni yarsalar da yaralı döyüş yoldaşına köməyə tələsən Altay düşmən gülləsinə tuş gəlir. Onun mübarizə dolu, qəhrəmanlıqla dolu əbədiyyət nəğməli qəlbi susdu. O son oynamış və 18 yanvar Dovşanlı dağında həlak olmuşdu.

Onu tanıyanlar və bu cümlələrin sahibi hələ də bu ölümə inanmırıq. Hər dəfə yadıma Altay düşəndə bir döyüş səhnəsi gözlərim önündə canlanır: “Güclü rəqabətə tablamayan düşmən Manikli, Xatınbəyli, Orta Güney, Baş Güneypəyə istiqamətlərində geriyə çəkilir. Düşmənin beş tankının mina sahəsində partlayaraq sıradan çıxmasıyla ruhlanan döyüşçülər artıq zərərsizləşmiş mina sahəsində PDM-nin Tellibinə istiqamətində kəndə girdiyini və PDM-i məhv etmək üçün nə qumbara, nə də qrantamyot olmadığından ruhdan düşürlər. Məğlubiyyətin qaçılmaz olduğunu dərk edib, geri çəkilir, daha əlverişli mövqe tutmağa çalışırlar. Bu dəm əlindəki avtomatı daşa vurub hönkürən Altay: “Biz nə üçün bu PDM-i vura bilmirik” - deyə geri çəkilməyəcəyini bildirir. Döyüş yoldaşları onu dilə tutub geri çəkilirlər”.

Altay Sarıkişiyevin döyüş yolundan günlərlə, aylarla danışmaq olar. Hər səhifəsi bir şücaət dastanı, hər sətiri bir qəhrəmanlıq epopeyası. Məhz bu şücaətlərinə görə komandanlıq onu ən yüksək ada təqdim etmişdi.

Bu yaxınlarda isə Azərbaycan Respublikasının hərbi qulluqçularının təltif edilməsi haqqında prezident fərmanıyla (9 oktyabr 1994-cü il) Altay Vaqif oğlu Sarıkişiyev “Azərbaycan Bayrağı” ordeni ilə təltif olunmuşdur.

Bu qəhrəmanın layiq olduğu ada tam layiq görülməsi olmasa da yenə bir təsəllidir.

Məzarı Ağdam Şəhidlər Xiyabanındadır.

## VƏTƏN UĞRUNDA ÖLÜMÜ SEÇDİ



Xanquliyev Xosrov Qulu oğlu 1939-cu ildə anadan olub. Hadisələrin ilk dövründən kəndin müdafiəsində fəallıq göstərib.

Canyataq kəndi üzərinə hücumda iştirak eləyib.

12 mart 1992-ci il irimiqyaslı erməni hücumunun qarşısının alınmasında xüsusi xidməti olub. Ermənilərin Sığnaq yüksəkliyindən vurub çıxaran dəstənin önündə olub. Snayper gülləsi elə həmin yüksəklikdə Xanquliyev Xosrovdan yan ötmədi. Oğlu Nazim isə Füzuli-Cəbrayıl rayonu uğrunda döyüşlərdə həlak oldu.

Məzarı Ağdam rayonunun Şəhidlər xiyabanındadır.

## TARİXLƏRƏ ÖRNƏK OLAN BİR ŞƏHİD ÖMRÜ



Xanqiliyev Nizami Xosrov oğlu 1969-cu ildə anadan olub. Hadisələrin ilk günlərindən silaha sarılanlardandır. 1990-cı ildən polis sıralarına daxil olan polis starşinası Nazim Xanquliyev gecəli-gündüzlü postlarda olardı. Döyüş dostları onun sayıqlığını, cəsurluğunu həmişə tərifləyirdilər.

Nazim 12 mart işğalından sonra Ağdam cəbhəsində Fərrux, Xanabad, Xramord, Abdal-Gülablı və s. yaşayış məntəqələri uğrunda gedən döyüşlərdə yaxından iştirak edir. Ağdərə bölgəsinin azad edilməsi uğrunda döyüşlərdə başlanan ilk gündən Ağdərə, Dəmirli, Moxrataq, Ortakənd, Maqavuz, Madagiz, Qlobs, Canyataq, Gülytaq, Xatınbəyli, Çıldıran, Baş Güneynəyə və s. yaşayış azad edilməsində misilsiz xidmətlər göstərib. Atası şəhid olduğuna görə cəbhədən geriyə Bakıya polis orqanlarına işə göndərilir. Daim doğma torpaqların azad edilməsini düşünən Nazim üçün Bakıda qalmaq cəbhədən yayınmağa bərabər idi. Öz həyatını Vətənin azadlığına həsr edən N. Xanquliyev raport yazaraq dəfələrlə cəbhəyə yollanır. O, Beyləqan, Ağdam, füzuli və Cəbrayıl bölgələrində olur. Sərrast atıcı və kəşfiyyatçı Nazim dəfələrlə düşmən arxasına keçərək səhih məlumatlarla geri dönərmiş. Füzuli və Cəbrayıl bölgələrinin bir sıra yaşayış məntəqələrinin azad edilməsində onun danılmaz xidmətləri olub.

Növbəti kəşfiyyat reydindən duyuq düşən düşmən dəstənin munemyot və pulemyot atəşinə məruz qoyur. Atılan mərmilərdən biri Nazimi ağır yaralayır. Ağır yaralı halda Bakıya xəstəxanaya gətirilir. Lakin həkimlərin səylərinə baxmayaraq qəlbi vətən eşqi ilə çırpınan qəhrəman el oğlunu xilas etmək mümkün olmur. Qırx gün sonra xəstəxanada həlak olur. O öz döyüş yolu ilə tarixlərə örnək olası bir qəhrəmanlıq tarixi yazdı. O öz ölümü ilə dəfələrlə qisasını aldığı şəhid balası olmuşdu.

Məzarı Bakıda Şəhidlər Xiyabanındadır.

## VƏTƏN TƏHLÜKƏDƏ OLANDA KİŞİNİN ÖZ ƏCƏLİ ÖLMƏSİ QƏBAHƏTDİR



Əli Zaman oğlu Qurbanov 1951-ci ildə anadan olub. Hadisələrin ilk çağlarından kəndlərin müdafiəsində iştirak edib. 1991-ci ildən özünümüdafiə dəstəsinin tərkibində, 1992-ci ildən isə N hərbi hissəsinin əlahiddə kəşfiyyat rotasının cəsur kəşfiyyatçısı kimi şöhrət qazanmışdı. Döyüş dostları ona Xilasgar ləqəbi vermişdilər. Onlarla əsgərin həyatını lal ölüm saçan minalardan xilas etmişdi. O piyada əleyhinə qurulmuş 50-dən artıq, tank əleyhinə 38 minanı tapıb zərərsizləşdirmiş, Aqdər-Xankəndi yolunu düşmən arxasına keçərək minalanmasında təşkilatçılardan biri olmuşdu.

Əli qurbanov bir dəfə qızının onu bu yoldan çəkindirmək üçün suala belə cavab vermişdi: “Qızım, Vətən təhlükədə olanda kişinin öz əcəli ilə ölməsi qəbahətdir”.

Artilleriya komandiri Elburus deyərdi: “Görəsən Qarabağda Əli kimi igid varmı?”

Azərbaycanın Milli Qəhrəmanı rəhmətlik Şirin Mirzəyev onun haqqında dəfələrlə söyləmişdi: “Əli kimi 10 əsgərim olsa mən bütün Qarabağı azad edərəm”.

Onun hər anı qorxulu, hər dəqiqəsi ölümlə üzbəüz, səksəkəli kəşfiyyatçı həyatı Manikli, Xatınbəyli, Orta güney, Baş Güney, Canyataq, Gülyataq, Çıldıran, Sırxavənd, Drmbon, Mehmana və s. yaşayış məntəqələrində düşmən mövqelərinin öyrənilməsi üçün dəfələrlə ölümlə üzləşmişdi. Hər dəfə həm özünü, həm də döyüş yoldaşlarını xilas etmişdi.

Əli döyüş dostlarının sevimlisi idi. Komandiri İ.Həsənov deyirdi: “Əli anadan döyüşçü doğulmuşdu. O, əsl kəşfiyyatçı idi. Minanın da, düşmənin də yerini sanki hiss eləyirdi”.

Növbəti kəşfiyyat reydindən qardaşı Məhərrəmlə geri dönəndə düşmən minasına toxunur. Minaaxtaranların bir sözü var: “Sapyor bir dəfə səhv eləyir”. Bu sanki Əlinin də bircə səhvi idi. Əli kimi əfsanəvi döyüşçünun ölümü bütün cəbhə üçün ağır itgi idi. Yadımdadır ki, çoxları bu xəbərə inanmırdı. İnanmırdılar ki, Əli kimi bir qəhrəman həlak ola bilər.

Kəşfiyyata yola düşəndə döyüş dostlarına son sözünü demiş, yadigar da bağışlamışdı. Sanki bu gedişinin sonuncu olduğunu bilə-bilə getmişdi. Getmişdi ki, təki Vətən yaşasın.

Vətən tarixi şəhid Əli Qurbanovun əbədiyyət əfsanəsini özüylə birgə yaşatmağa borcludur.

Ağdamın Şəhidlər xiyabanında dəfn edilib.

## QAZANÇI UĞRUNDA BİR PAYIZ DÖYÜŞÜ

Zülfüqar Baxşalı oğlu Qafarov 1959-cu ildə anadan olub. Ağdam rayonunun Qalayşılar kəndinə köçmüşdü. Doğma Xatınbəyli kəndinin işğalından sonra Orduya yazılmışdı.

N nömrəli hissədə taqım komandirinin müavini idi. Döyüş xəttində döyüş minalarının təmizlənməsində mahir minaaxtaran kimi tanınmışdı. O dəfələrlə döyüş ərəfəsində müxtəlif xətləri minalardan təmişləyərək ordumuza yol açmış və əməliyyatın baş tutması üçün həyatını təhlükəyə atmışdı.

1992-ci ilin 31 sentyabrında Qazançı kəndi uğrunda gedən döyüşlərdə düşmən gülləsi Qafarov Zülfüqarı əbədi susdurdu. Üç körpəsi qaldı. Onun əvəzsiz xidmətləri və şücaəti isə döyüş yoldaşları üçün əbədi bir xatirəyə çevrildi.

## ORTA GÜNEY KƏNDİ

Tarixən Orta Güney də dörd dəfə yandırılıb. Qədimdən bu kənddə kolanılar yaşayırlar. Orta Güney Ağdərə rayonundan 22 km qərbdə Ağdərə-Xankənd yolunun üstündə yerləşən ikinci azərbaycanlı kəndidir. Bu yolun bağlanmasında kənd əgalisinin xüsusi əməyim olub. Erməni separatçılarına qarşı İsacan Aslanovun başçılığı ilə aparılan mübarizəyə görə kənd dəfələrlə rus ordusu tərəfindən mühasirəyə alınıb və nəzarətdə saxlanılıb.

165 nəfər əhalidən və 33 evdən ibarət idi. Altı nəfər şəhid olmuş, altı nəfər müxtəlif dərəcədə yaralanmışlar. Bir nəfər ən yüksək ada Azərbaycanın Milli Qəhrəmanı adına təqdim edilib, lakin bu vaxtadək təqdimat nəzərə alınmayıb.

Martin qapısını odlayammadım,
Patronlarım töküldü, toplayammadım.
O yara məktub yazdım yollayammadım,
Vurmayın, arkadaşlar, mən yaralıyam...

**(türk folkloru)**

### Hamını xəbərdar edən adam



Aslanov Məstəli Rəşid oğlu 1932-ci ildə anadan olub. Hadisələrin kəskinləşdiyi dövrdə Orta Güney özünü müdafiə alayının silahlandırılmasında xüsusi xidmətləri var.

12 mart 1992-ci il erməni hərbi qüvvələrinin kolanı kəndlərinə hücumunu qonşu Baş Güneyə, Xatınbəyli kəndlərinə xəbər verir. Sırxavənd kəndinə doğru irəliləyən NİVA maşını düşmənlərin diqqətindən yayınmamışdı. Maşın yolu quldurlar tərəfindən mühasirəyə alınır və yaxınlaşan maşın müxtəlif istiqamətlərdən atəşə tutulur.

Aldığı güllə yarasından elə oradaca Aslanov Məstəli Rəşid oğlu həlak olur. Onun xəbərdarlığı ilə kəndlərin müdafiə dəstələri öz yerlərini tutur və düşmənə layiqli cavab verirlər.

Ağdam Şəhidlər xiyabanında dəfn edilib.

### Günahsız şəhid



Köçəriyeva Ofelya Məstəli qızı 29 iyun 1962-ci ildə anadan olub. Xatınbəyli kənd orta məktəbini bitirmişdi. Orta Güney kəndində gündəlik tələbat malları mağazasında satıcı işləyirdi. 12 mart 1992-ci il düşmənin irimiqyaslı hücumu zamanı atasının maşınında güllləbaran edilərək həlak olub. Dörd uşaq anası idi. Ağdam rayonu Uzundərə şəhidlər xiyabanında dəfn edilib.

**Taleyi bilinməyən körpə**

Köçəriyev Cahid Zahid oölu 1991-ci ildə anadan olub. 12 mart 1992-ci il ermənilərin Orta Güney üzərinə irimiqyaslı hücumu zamanı həlak olmuş körpənin ana və babasının meyitləri alınsa da ondan bir xəbər belə alınmamışdır.

**Özünü tank altına atan ilk əsgər**



Ziyadxan İslam oğlu Aslanov 1971-ci ildə anadan oub. Doğma Orta Güney kəndinin müdafiəsində ən fəal iştirakçılardan biri idi. 1991-92-ci illərdə Qazançı, Canyataq əməliyyatlarında və bir sıra təxribat xarakterli əməliyyatlarda iştirak etmişdi. Yaşının az olmasıyla bağlı onu qabağa buraxmayanda küsərdi. Orta Güneyin işğalından sonra bir gün də silahını yerə qoymayan Ziyadxan II Gəncə batalyonlarından birinin tərkibinə daxil olur. Dayılarının, əmisinin qanını almağa və doğma kəndi azad etməyə and içir.

Marquşevandan başlanan döyüş yolu Talış, Marağa, Madagiz, Həsənağa, Levanarx və sair yaşayış məntəqələrinin azad edilməsindən keçir. Bu döyüşlər Milli Ordunun qələbə çaldığı ən qanlı döyüşlər olmuşdur. Ağdərə istiqamətində ağır döyüşlər aparan ordunun ön sıralarında Z.Aslanovun öz yeri vardı. 3 iyul 1992-ci il bu istiqamətdə irəliləyən piyada qoşun hissələrimizə qarşı qəfil peyda olmuş tank aman vermirdi. Artıq tank postdakı canlı qüvvəni tırtılları altına almış onlarla əsgəri məhv etmiş, bir təcili yardım maşınını yaralılarla birgə tadpamış və başqa bir maşını vurub sıradan çıxarmışdı.

Ön dəstədə vahimə yarandığı vaxtda Ziyadxan tanka F-1 qumbarası atır, lakin partlayış tanka zərər yetirmir. Elə o an Ziyadxan minanı götürüb tanka doğru gedir və özünü tırtıllar altına atır.

Döyüş yoldaşı Akif: “ Ziyadxan heç nədən qorxmurdu. Həmişə öndə olardı. Tank üstümüzə gələndə də, öndə idi. Amma qaça bilərdi. Əvvəl tanka qumbara tulladı, sonra özü tankın altına atıldı. Bu hamının gözü qarşısında baş verdi. Heyrətdən hamımız donmuşduq. Belə oğula mütləq qəhrəman adı verilməliydi. Öz həyatı ilə bütün bir ordunun həyatını xilas etmişdi”.

Rota komandiriAydın Məmmədov: “Ziyadxan çox qorxmaz idi. İkikm-lik məsafədən 4 yaralı və 2 meyid çıxarıb gətirmişdi. Sonrakı gün isə özünü tankın altına tulladı. Hamı bu hadisədən sarsıldı. Hər şey bircə anın içində oldu”.

Z.Aslanovun bu qəhrəmanalığı Azərbaycan hərb tarixində özünü tankın tırtılları altına atmış ilk əsgər qəhrəmanlığı idi. Həmin tank indi də yanmış şəkildə Ağdərə-Tərtər yolunun sol kənarında qalmaqdadır. Əfsuslar olsun ki, dəfələrlə müraciətlərə, “Ağdərədən gələn var” kitabında, “Azərbaycan”, “Bərdə”, “R.S” və s. qəzetlərdə gedən yazılara baxmayaraq bu fakt kimsəni maraqlandırmayıb. Onun sənədləri MN-də iki dəfə itirilib, həmin tank özgələrinin adına çıxarılıb. Halbuki

Z.Aslanovun partlayış zamanı yalnız bir əli salamat qalıb və Bərdə rayonu .əhidlər xiyabanında basdırılıb.

Z.İ.Aslanov komandanlıq tərəfindən 14 iyul 1992-ci il tarixindən Azərbaycanın Milli Qəhrəmanıadına təqdim edilib. Lakin hərdən öz-özümdən soruşuram: " Görəsən qəhrəmanlıq necə olur? "

Heç olmasa tarix naminə, Azərbaycan hərbi tarixi naminə Müdafiə Nazirliyi, hökumət bu faktı araşdırmalı və tankın altına atılmış ilk əsgəri Milli Qəhrəman adına layiq görməlidir.

Məzarı Bərdə rayonunun Şəhidlər xiyabanındadır.

## Ya şəhid ol, ya qazi



Məstanov Dilqəm Sevindik oğlu 1970-ci il 12 dekabrda anadan olub. Döyüş yolu Orta Güney, Baş Güney, Xatınbəyli, Sırxavənd kəndinin müdafiəsindən başlanıb. Həmişə öndə olub. İstər kəndlərin müdafiəsində, istər Kiçan, Qazançı kəndləri üzərinə hücumda da, yaxından iştirak edirdi. Dilqəm hələ hadisələrin ilk vaxtlarında deyərmiş: "Ermənilərə bu dəfə layiqli cavab verməliyik".

1990-cı ildən polis sıralarına daxil olan Dilqəm gecəli-gündüzlü kəndin müdafiəsində dayanır.

12 mart döğma kəndin öşğalından dərhal sonra silahı yerə qoymayan Dilqəm Ağdam cəbhəsində bir sıra döyüşlərdə iştirak edir.

Polis starşinası Məstanov Dilqəm Ağdərə uğrunda gedən döyüşlərdə daim öndə gedənlərdən idi. Marquşevan, Çaylı, Seysulan, Ortakənd, Moxrataq, Meteşen, Umudlu, Orta Güney və s. Yaşayış məntəqələrinin azad edilməsində yaxından işirak edir. Teleqülləninin alınmasında xüsusi mərdlik nümunəsi göstərir.

1992-ci ilin dekabrında Dilqəmin son döyüşü olur. Pusquda duran düşmən əməliyyatdan qayıdan 30 nəfərlik dəstəni mühasirəyə alır. 1 saatlıq əlbəyaxa döyüşdə 10 nəfər ağır yaralanır, 5 nəfər isə həlak olur. Düşmən isə məhv edilir. Həlak olanların arasında xüsusi şücaət göstərmiş Dilqəm də var idi. Hər anı ölümlə üzbəüz bir əsgər ömrü doğma torpaqlar uğrunda gedən savaşlarda sona yetir. Onun arzu dolu qəlbi dayansa da xatirəsi döyüş yoldaşlarının qəlbində əbədi yaşayacaq. Dilqəm kimi mərd oğulların qanı çilənmiş müqəddəs torpaqlar azad edilməyincə şəhidlərimizin ruhu rahat olmayacaq.

Məzarı Bərdə rayonunun Şəhidlər xiyabanındadır.

## Onlar qocaya da rəhm etmirlər

Hümmətova Güllü Orta Güney kəndinin ən yaşlı sakinlərindən idi. 12 mart işğalı vaxtında kənddə qalıb. Sonrakı taleyindən xəbər yoxdur.

## Manikli kəndi

Manikli (Adıgözəlbəyli) kəndi erməni-türk savaşlarında dəfələrlə yandırılıb. Qədim insan məskənləri və kürqanlarla məşhur olan tarixi bir kənddir. 1937-ci ildə bu kəndin onlarla sakini sürgün edilib.

Hadisələrin ilk çağlarından fəallıq göstərən oğulların sayəsində özünümüdafiə dəstəsi yaradıldı.

Əhalisi 1100 nəfər və 150-yə yaxın evdən ibarət idi. Kənd əhalisindən beş nəfər şəhid olmuş, 11 nəfər isə yara almışdır.

**Adını savaş qoymuşlar,**
**Belə insana qıymışlar,**
**Burda bir igid vurmuşlar,**
**Əli xınalı...**

**(Aşıq Maqsud Xoca)**

## Düşmənə nifrət yaşla ölçülmür



Alıyev Möhü 1928-ci ildə anadan olub. Hadisələrin ilk çağlarından əlinə silah alıb doğma yerlərin müdafiəsinitəşkil edib. Bu el ağsaqqalı hələ dünyanın düz vaxtı erməni haqsızlığından qaçaq düşmüşdü. Düşmənə yaxşı bələd idiş Gecə-gündüz kəndin müdafiəsi üçün planlar hazırlayır, gənclərdən dəstələr düzəldirdi. Bir ağsaqqal kimi çox tədbirli idi. Yaşının çox olmasına baxmayaraq heç kim onun kimi cəld, sərrast ola bilməzdi. Əvvəlcə onun planıyla yaxınlıqda olan erməni postları drmadağın edildi. Azərbaycanın Milli Qəhrəmanı Ş.Mirzəyev Qazançının azad olunmasından sonra demişdi: “Möhü kişi kimi tədbirli komandirlərim olsa Xankəndini azad edərəm “.

M.Alıyev Kolanı qisasçı təşkilatının rəhbərlərindən olsa da hər bir əməliyyatda çəkdiyi plana özü nəzarət edər və əsgər kimi yaşının bu vaxtında nifrəti onu sakit dayanmağa qoymazdı. Qazançının azad edilməsi onun çəkdiyi planla başa gəlmişdi və bu az itkiylə böyük quldur yuvasını susdurmuşdu.

Gecəli-gündüzlü doğma yurdun keşiyini çəkən Möhü kişi 12 mart işğalı günü də ön postda olmuşdu. Sevdiyi Cəlal Quliyevin yaralandığını görüb özünü ona köməyə atması düşmən snayperinin gözündən yayınmır. Möhü Alıyev aldığı yaradan əbədiyyətə qovuşur.

Bu döyüş 64 yaşlı, qəlbi düşmənə qarşı nifrətlə döyünən Möhü kişinin son döyüşü oldu. O, ölümü ilə sübut etdi ki, düşmənə nifrət yaşla ölçülmür!

**Əfsanəvi qəhrəman-onu belə xatırlayırlar**



Quliyüv Cəlal Salman oğlu 1968-ci ildə anadan olub. Hadisələrin ilk çağlarında əldə silah doğma yurdun müdafiəsində dayanıb. Cəlal düşmənə qan uddurdu. Onun adı gələndə düşmənin canına vəlvələ düşürdü. Qonşu erməni kəndlərinin qorxu altında saxlanmasında danılmaz və əfsanəvi xidmətləri olub. O, gah Çaylıda, gah Qazançıda, gah da Canyataqda düşmənə ağır zərbələr vururdu. Düşmənin ratsiya vasitəsilə dediyi: “Elik (Cəlalı belə çağırırdılar) sənin başını kəsəcəyik – hədə-qorxusuna erməni başı kəsib gətirməklə cavab verirdi. O, onlarla erməni postunun ləğv edilməsində misilsiz şücaətlər göstərmişdi. Döyüş yoldaşları danışır ki, güllələr də Cəlaldan qorxurdular. Döyüş vaxtı Cəlal zarafatla atılan gülləyə əl atırmış.

Hələ ilk günlərdən əfsanəvi şöhrət qazanmış C.Quliyev-Sırxavənd polis bölməsində işə götürülür. O, gecəli-gündüzlü doğma kəndin müdafiəsində durur.

Cəlal Quliyev Xramort üzərinə hücumun yenilməz qəhrəmanı kimi ad qazanır. Mühasirədən yaralı döyüşçünü çıxarır. Cəlal Quliyev Sırxavənd, Manikli, Xatınbəyli, Tellibinə, Baş Güneypəyə uğrunda gedən bütün döyüşlərdə daim öndə olardı.

O, Canyataq kəndinə hücumun ilhamçısı və qəhrəmanı idi. Kiçan kəndinə hücumda və Sırxavəndin qəhrəmanlıq mücəssiməsi olan müdafiəsində iştirak etmişdi. Quldur yuvası olan Qazançı kəndinin azad edilməsində Cəlal az qala bir rotanın işini görmüşdü. Hələ düşmən müqaviməti azaltmadığı anlarda o, kəndə girən ilk əsgər kimi düşməni vahiməyə salmış və kənd Milli Ordunun əlinə keçmişdi.

12 mart 1992-ci il, işğal günü onun son döyüş günü oldu. Döyüş yoldaşlarıyla birgə saatlarla uzanan döyüşdə düşmənin bir addım belə olsun irəliləməsinə imkan verməmiş və yalnız özünü yaralı döyüş yoldaşının yanına atarkən ağır yara alır və elə

Bu yaradan qospitala çatmadan şəhid olur. Quliyev Cəlal Salman oğlu öz ölümüylə şəhidlik adının özünə yeni bir şərəf gətirdi.

Bu əfsanəvi qəhrəmanın adını Ağdərə azad edildikdən sonra mərkəzi küçələrdən birinə vermişdilər. Əsl qəhrəmanlara şöhrət çələngini, məhz tarix özü verir.

## Vətənə sipər oğullar



Hümmətov Nazim Möhü oğlu 1962-ci ildə anadan olub. İqtisad İnstitutunu bitirib, Manikli kənd ticarət birliyində işləyirdi.

Nazim də həmyaşıdları kimi hadisələrin ilk günlərindən doğma kəndin müdafiəsinə qalxmışdı. Dəfələrlə erməni hücumunun qarşısının alınmasında fərqlənmiş, müxtəlif əməliyyatlarda iştirak etmişdi.

N.Hümmətov kənddə özünümüdafiə batalyonu yaradılandan onun üzvlərindən biri olur. Qazançı, Canyataq kəndləri üzərinə hücumda yaxından iştirak edir.

Nazim gündüzlər işləyir, gecələr isə postlarda olardı. 12 mart 1992-ci ildə də strateji əhəmiyyətli postların birində kəndi müdafiə edən ön dəstənin üzvü kimi döyüşürdü. Düşmən bu postu götürmək üçün kəndin bir mərd oğlunu şəhid etdilər. Manikli kəndi bir gün ərzində Möhü, Cəlal, Nazim kimi üç igidi birdən itirdi.

## Ölüm onu əsir düşməyə qoymadı



Musayev Maarif kəndin fəal müdafiəçilərindən olub. Hadisələrin ilk çağlarından müdafiə postlarında, istehkamların qurulmasında yaxından iştirak edib.

Gündüz işləyib, gecələr isə döyüşçülərlə birgə olub.

Maarif Musayev 12 mart 1992-ci il işğal günü ön postda dayananların sırasında olub. Mühasirəyə düşərək düşmən tərəfindən yaralı halda əsir götürülüb. Əsir kimi düşmən BMP-sinə oturdublar. Düşmən texnikası tank əleyhinə minaya toxunub partlayır və Maarif Musayev düşmən əlinə küçmədən həlak olur. Ağdərə azad edildikdən sonra meyidi tapılıb dəfn edilir.

## Torpaq, uğrunda ölən varsa, vətəndir!



Hümmətov Məhyəddin Mədət oğlu 1960-cı ildə anadan olub. Əsgəri xidmətini Vladivostokda sərhəd qoşunlarında başa vurub. Krasnoyarsk milis məktəbini qurtarıb. Rusiyadan hadisələrlə bağlı geri dönən Məhyəddin əvvəlcə Şuşa rayon Daxili İşlər Şöbəsində işləyib. 1992-ci ildə Sırxavənd, Manikli və s. Yaşayış məntəqələri üzərinə hücumunun dəf edilməsində iştirak edib.

Hümmətov Məhyəddin Ağdərənin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Ağdərə azad edildikdən sonra yeni təşkil edilmiş Polis şöbəsində axtarış şöbəsinin rəisi işləyib. Levonarx, Umudlu, Ağdərə, Ortakənd,

Moxrataq, Madagiz, Maqavuz, Aterk, Qozlu, Çıldıran və s. Yaşayış məntəqələrinin azad edilməsi və müdafiəsində yaxından iştirak edib. Dəfələrlə ağır döyüşlərdən çıxmış Məhyəddin rəhbərlik etdiyi dəstə ilə əməliyyatdan qayıdarkən Sərsəng gölü ətrafında düşmən pusqusuna düşür. 4 saatlıq döyüşdən sonra düşmən dəf edilir, lakin bu döyüş Hümmətov Məhyəddin haqqında radioda verilişlər səslənmiş, respublika mətbuatında yazılar dərc edilmişdir. Onun Şuşadan başlanan döyüş yolu doğma Ağdərə uğrunda gedən qanlı savaşlarda sona yetdi.

## Umudlu kəndi

Ağdərə rayonunun şimalında yerləşən yaşayış məntəqəsidir, tarixi ərazidir. Əhalisi ta qədimdən kolanılardan ibarətdir. Kənd öz adını Umud bəyin adından götürüb. M.S.Ordubadinin yazdığına görə 1905-ci ildə Umudlu kəndindən 30 nəfər sağ qalıb. Bu kənd dəfələrlə əldən-ələ keçib.

Murov dağının ətəklərində və Sərsəng gölünün yaxınlığında yerləşən bu kənd təbiətin bütün gözəllikləri ilə zəngindir. Tarixi abidələr, qala divarları hələ də qalmaqdadır. 1500 nəfər əhalidən və 170 evdən ibarət idi.

Beş nəfər şəhid olub. Altı nəfər müxtəlif dərəcədə xəsarətlər alıb. Bir nəfər ən yüksək ada komandanlıq tərəfindən Azərbaycan Milli Qəhrəmanı adına təqdim edilib.

**Uca dağ başında yayılan atlar,**
**Yar məndil işləmiş ikiyə qatlar,**
**Məzarım üstündə beş qarış otlar,**
**Bitməyincə, könül yardan ayrılmaz.**

***(türk folkloru)***

## Umudlunun ilk şəhidi



Abbasov Məmməd Salman oğlu 1947-ci il fevral ayının 26-da anadan olub. M.Abbasov Umudlu kəndinin ilk şəhididir. Uzun sürən blokada və düşmən hücumları kənd sakinlərinə dinclik vermirdi. Dəfələrlə yaralananlar olsa da 1991-ci il 26 may ayınadək itkisiz keçinmək mümkün olmuşdu.

Növbəti hücumların birində rus əsgərlərinin postlarda o qədər də sayıq durmaması nəticəsində erməni-rus birləşmələri kəndə yaxınlamışdı. Ermənilərin növbəti həmləsinin dəf edilməsi üçün yerli əhali rus əsgərlərinə köməyə tələsirdilər.

Meşədə öldürülmüş iki erməninin qisasını almağa çalışan düşmən kəndi gecəyarısınadək atəş altında saxladı və yalnız dəstələrin güclü müqavimətindən sonra qaçmağa başladılar.

Bu döyüşdə Abbasov Məmməd Salman oğlu həlak oldu. Qəbri Umudlu kəndindədir.

**Müharibə adamı**



Ərəbov Polad Şəmşir oğlu 15 may 1967-ci ildə anadan olub. Onun qəhrəmanlıqlarla dolu keşməkeşli döyüş yolu Umudlunun qəhrəman müdafiəsindən başlanıb. Hadisələrin ilk çağlarından ələ silah götürən Polad, doğma kəndin müdafiəsində fəallıq göstərənlərdən olub. 1990-cı ildən polis orqanlarında işə qəbul edilir. Elə o vaxtdan kəndin müdafiəsinin təşkili, müdafiə istehkamlarının qorunmasında yaxından iştirak edir. Umudlu kəndinin erməni quldurlarının hücumlarından müdafiə edilməsində dəfələrlə qəhrəmanlıqlar göstərir. Kənd əhalisinə dinclik verməyən bir neçə erməni quldurunun meşədə qətlə yetirilməsində iştirak edir.

Kəndin işğalından dərhal sonra 1992-ci il 28 fevraldan etibarən Ağdam cəbhəsinə keçir. Xanabal, Fərrux, Gülablı və s. məntəqələri uğrunda gedən qanlı döyüşlərdə iştirak edir. Fərrux yüksəkliyi uğrunda gedən döyüşlərdə on nəfər yaralı əsgərin həyatını xilas edərək döyüş meydanından çıxarır.

Şərəfli döyüş yolu keşən Ağdərə polis şöbəsinin tərkibində 1992-ci ilin yayından etibarən Ağdərənin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edir və polis starşinası P.Ərəbov bu bölgədə elə bir döyüş olmazdı ki, iştirak etməsin. Polad barədə döyüş yoldaşları deyir: “O daim ön dəstədə olmağa can atardı. Əçətin məqamlarda ölümlə üzbəüz dayanmaq lazım olan yerlərə getmək, lazım gələndə Polad birinci sıradan çıxardı...”

Qəhrəmanın döyüş yolu 3 N-li sovxoz, Qırmızıkənd, Seysulan, Moxrabat, Dəmirli, Kasabet, madagiz, Maqavuz, Aterk, Umudlu, Çapar, Qozlu, Drmbon, Çıldıran və s. yaşayış məntəqələrinin düşməndən azad olunması uğrunda gedən qanlı savaşlardan keçib. Döyüşdən döyüşə atılan, döyüşdən döyüşə məntiqləşən Polad itirdiyi dostlarının yanğısı ilə yanardı. Torpaqlarımızın itkisiylə barışa bilmirdi. Hər dəfə nişanlı olduğu üçün toydan söz düşəndə: “Müharibə qurtarsın, torpaqları azad edək, sonra toy edərəm”-deyərdi.

Ərəbov Polad dəfələrlə mühasirədə qalsa da, hətta xəstələnsə də geridə qalmaq barəsində fikirləşmişdi. O, xəstə olduğu vaxtlar iynəsini elə sərgərdəcə döyüş dostlarına vurdurarmış. Bu fakta adam heyrətlənməyə bilmir.

Bir dəfə postdan qayıdarkən düşmən tərəfindən atəşə məruz qalırlar. Düşməni məhv etmək üçün irəli atılan Polad döyüş dostlarına: “Sizi evdə uşaqlarınız gözləyir. Qoyun mən hər şeyi yerbəyer edərəm”-deyir. Az keçməmiş düşmən məhv edilir.

Döyüş dostları söyləyirlər ki, qlobus yüksəkliyi uğrunda gedən döyüşlərdə düşmən Milli Orduya məxsus xüsusi təyinatlı rabitə maşınının vurub

ələ keçirmək istəyir. Polad bir an itirmədən düşmən arxasına keçir və düçməni pərən-pərən salaraq maşının ələ köçməsinə imkan vermir. Rabitə maşını döyüşçülərimizə təhvil verilir.

Polis starşinası N.Ərəbov dəfələrlə düşmən postlarının məhvində iştirak etmiş və ələ keçirdiyi hərbi sursatı şöbəyə təhvil vermişdir.

Dəfələrlə yağı düşməndə ölüm-dirim savaşında qalib çıxmış Poladın son döyüşü Qan çanağı adlanan 3 N-li sovxoz ərazisində oldu. Bu döyüş hərb tariximizdə ən qanlı döyüş idi. Tərtərin işğalını qarşısına məqsəd qoymuşməkrli düşmən niyyətinə çatmaq üçün üç istiqamətdə Tərtər üzərinə hücuma keçdi. 7 may 1994-cü il ön mövqedə dayanan polis dəstəsinə komandirlik məhz Ərəbov Polada tapşırılmışdı. Ağdərə polislərindən ibarət dəstə ən ön mövqedə dayanmışdı. Bu komandanlığın nəzərin cəlb etməyən tələdə müqavimət göstərmək olduqca çətin idi. Polad əsl komandir kimi ən ön sırada polis dostları Seymur və Mehmanla özü dayanmışdı.

Mayın 8-i sübh tezdən hücuma keçən düşmən Milli Ordu əsgərlərinin və polislərin müqavimətinə rast gəlir. İtkilər böyük idi. Bu döyüş həyatı qəhrəmanlıq salnaməsi olan bir igidin ömrünə nöqtə qoydu. O öz döyüş dostları iləbirgə bir addım da geri çəkilməyərək həlak oldu.

Tarixlər keçəcək və bu döyüşün tarixi əhəmiyyətli öyrənilərkən bir fakt diqqət mərkəzində olacaq. O gecə Tərtər rayonunun çox minlik əhalisi başları üzərini almış təhlükədən sovuşmuşdu. Məhz bu qəhrəmanların canı bahasına düşmənin işğal planı alt-üst edilmişdi.

Atası Şəmşir kişi deyir: “Ona bir gün qal evdə dincəl, deyəndə acığı tuturdu. Deyərdi ki, mən kimdən artığam. Uşaqları postda qoyub evdəmi oturum? Həmişə Umudlunun azad olunmasını arzulayırdı”.

Qardaşı Şakir onun haqqında xatirələr danışmaqdan yorulmur, Poladla həm qardaş, həm də dost olmuşuq. Döyüşlərdə də bir yerdə olmuşuq. O kimsəyə qıymazdı ki, təhlükə olan yerlərə getsin. Həmişə özünü qabağa verərdi. Həlak olmuş yoldaşlarını yan-yana xatırlayardı və Şəhidlər mahnısına qulaq asıbfikrə gedərdi. Allah onu müharibə üçün, yaxşılıq etmək üçün, insanlığa görk üçün yaratmışdı. O ancaq belə yaşamalıydı. Tanrısına əsl qəhrəman kimi qovuşmalıydı.

Anası Paklet xala, sinəsinə oğul dağı çəkilmiş bu məğrur qadın bu ayrılığa dözmür. Oğul harayındadır. Poladı çoxları od-alov, çoxları müharibə adamı adlandırırdı. Od-alov içindən, ölümdən dəfələrlə xilas olmuşdu və hər dəfə “təki vətən yaşasın”-deyə cəbhəyə, döyüş dostlarının yanına qayıtmışdı.

Kiçik qardaşı Qoşqarı özünə sirdaç sayırdı. Həmişə zarafatla deyərmiş ki, sən evdəkilərdən muğayat ol. Cəbhə mənlikdir. Bir də hamı evdə otursa, bəs düşmən qabağına kim çıxacaq?

Evdə, hamı Polad üçün yanır. Uzaqlardan dostları onun məzarını ziyarətə gəlirlər. Qardaşları Şöhrət, Vəkil, İsrafil, Nemət bu ağır itkini bir elin, bir

xalqın itkisi sayırlar. Polad kimi oğullar bir evin deyil, xalqın oğlu kimi yaşayacaqdır.

Əfsanəvi qəhrəman müharibə adamı kimi tanınan Polad Ərəbovun döyüşlərdə göstərdiyi rəşadətlər komandanlıq tərəfindən qiymətləndirilərək Azərbaycan Milli Qəhrəmanı adına təqdim edib. Bu onun xidmətlərinə görə layiq olduğu addır. İnanırıq ki, Azərbaycan rəhbərliyi bu təqdimatı nəzərə alacaq.

Polad haqqında radioda, televiziyada veriliş səslənmiş və çoxsaylı qəzetlərdə materiallar dərc olunub.

Məzarı Bərdə rayonu Şəhidlər xiyabanındadır.

### Günahsız şəhid



Qasımov Qara Səməd oğlu 1920-ci ildə anadan olub. 1991-ci ildə iyun ayının 4-də kəndin kənarında ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib. Yeddi uşağı var idi. Kənddə dəfn edilib.

### Əgər şəhid olsam oğluma mənim adımı qoyarsınız



Bağırov Şakir Əvəz oğlu 1961-ci ildə anadan olub. Hadisələrin ilk vaxtından Vətən torpaqlarının qorunmasında fəal iştirak edib. Umudlu kəndinin ağır vəziyyətini eşidib, Rusiyadan doğma kəndə qayıdan Şakir doğma kəndinin müdafiəsində dayanır.

Kəndin işğalından sonra Ağdam batalyonunda, 28 fevral1992-ci ildən isə Tərtər batalyonunun tərkibində vuruşub. O Ağdərənin azad olunması uğrunda əsl əsgəri rəşadət göstərib. Dəfələrlə döyüşdə fərqlənən Şakir Bağirov komandanlığın ən sevimli əsgərinə çevrilmişdi.

Mavquşevan, Çaylı, Madagiz, Ağdərə, Dəmirli, Ortakənd, Moxrataq, Aterk, Umudlu, Çapar və başqa məntəqələrin azad edilməsində daim öndə olan əsgərlərimizdəndi. Onun döyüş xidmətləri komandanlıq tərəfindən qızıl saatla və pul mükafatı ilə qiymətləndirilib.

Xidmət elədiyi N hərbi hissəsi onu əsl qəhrəman kimi xatırlayır. Əsl kəşfiyyatçı, əsl döyüşçü kima layiq olduğu bir adlamükafatlandırılmasını tələb edirlər. Son dəfə döyüşə yollananda demişdi: “Əgər mən qayıtmasam, oğlum olsa mənim adımı qoyarsınız”.

22 yanvar 1993-cü il onun üçün həyatının son günü oldu. Yoldaşlarının arasına düşən qumbaranın üstünü bədəniylə örtərək 8 nəfər döyüş yoldaşının həyatını xilas edir. Özü isə əbədiyyətə qovuşur.

İki oğlu qalıb. Ölümündən üç gün sonra dünyaya gələn körpəsinə onun öz adını qoyublar. Bağırlı Şakir Şakir oğlu. Bağırov Şakir Əvəz oğlu Tərtər rayonunun Buruc kəndində dəfn edilib.

## Umudluya az qalırdı



Ərəbov Nuşirəvan Yəhya oğlu 1965-ci ildə yanvar ayının 10-da anadan olub. Müharibə başlanandan Umudlu kəndinin müdafiəsində i.tirak edib. Uzun sürən blokada şəraitində postların təşkil edilməsində fəallıq göstərib. Umudlunun işğalından sonra könüllü olaraq Tərtər batalyonuna daxil olub. Ən ağır döyüşlərin iştirakçısı olub.

Marquşevan, Çayli, Seysulan, Levonarx, Qırmızıkənd, Ağdərə, Maqavuz, Malagiz, Sərsəng, Umudlu və s. məntəqələrin azad olunmasında əsl döyüşçü məharəti göstərib.

Dəfələrlə düşmən mövqelərinin darmadağın edilməsində, Sərsəng gölünün müdafiəsində iştirak edib. 1993-cü il yanvar ayının 27-də erməni quldurlarına qarşı növbəti döyüş əməliyyatında həlak olub.

Məzarı Bərdə rayonu Hacallı kəndindədir. Üç körpə uşağı yadigar qalıb.

## Çərəkdar kəndi

Ağdərə bölgəsinin şimal-qərbində Kəlbəcərlə sərhəddə yerləşirdi. Əsrin əvvəllərində də, sonunda da ermənilərə qarşı qəhrəmancasına mübarizə aparıb. Çərəkdarı Kəlbəcərin qapısı da adlandırmaq olardı.

Kənd 124 evdən və təxminən 700 nəfər əhalidən ibarət idi.

Çərəkdar kəndi 10 nəfər şəhid vermiş, onlarla adam müxtəlif dərəcələrdə yaralar almışdır.

Dağlıq Qarabağın işğaı edilən sonuncu kəndlərindən idi. 29 mart 1993-cü ildə Çərəkdar kəndi düşmən tapdağına çevrildi.

Buralarda savaş var,
Oralarda çiçək varmı?
Varsa sor ondan
Niyə qoxusu gəlmir,
Sizə gəldiyi qədər?

(F.Tuncur "Əsgər məktubu")

## Dağlar oğlunun son döyüşü

Erməni daşnaqları müharibənin ilk toxumunu Qarabağ torpağındasənədlə Yunus müəllim hiss edirdi ki, bu toxumun göyərməsi nahaq qanlara, göz yaşlarına səbəb olacaqdır. Odur ki, əlinə silah alıb özü kimi mərd oğulları başına topladı, elə ilk gündən kəndin müdafiəsini təşkil etdi.

Ynus Muxtar oğlu Məmmədov 1962-ci il mayına 1-də anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra dövrün tələbinə uyğun olaraq müəllimlik etməyə

başlamışdı. Ali təhsilini APİ-də almışdır. Uzun müddət Çərəkdar kənd orta məktəbinin müəllim kollektivinə rəhbərlik etmişdir.

Erməni quldurları ilk gündən cəhd göstərmişlər ki, Çərəkdar kəndini ələ keçirsinlər. Bu kənd Ağdərə Kəlbəcər arasında bir alınmaz qala idi. Dünyagörmüş

## Etibarsız dünyanın etibar oğlu



Əliyev Etibar Allahverdi oğlu 1975-ci il aprelin 6-da doğulmuşdu. 1992-ci ildə orta məktəbi bitirib Azərbaycan İqtisad İnstitutuna daxilolmuş, 1993-cü ildə birinci kursu qurtarıb könüllü olaraq hərbi xidmətə yollanmışdı. Mingəçevir şəhərində hava hücumundan müdafiə batalyonunda qulluq etsə də, daim ürəyi intiqam hissilə döyünür, yaşıdlarının intiqamını almağa can atırdı. Eyni zamanda onu bu addımı atmağa vadar edən bir ulu istək var idi . Hər yay tətilində havasını udduğu, sərin bulaqlarının suyunu içdiyi ata-baba yurdunun Ağdərə rayonunun Çərəkdar kəndinin düşmən tapdağı altında olması ona çox ağır gəlirdi. Həmin dilbər guşənin, ümumiyyətlə, Azərbaycanın neçə-neçə el-obasının düşmən tapdağı altında inləməsi, öz yurdunda qaçqına dönmüş minlərlə adamın, körpələrin, qocaların üzləşdikləri məşəqqətlər onun gənc ürəyini göynədirdi...

1994-cü ilin aprel-may aylarında Tərtər ağır sınaq günlərini yaşayırdı. Döyüşlər ara vermirdi. Mayın 10-da Qapanlı kəndinə soxulmuş azğın düşmənlə ölüm-dirim savaşına başlayan Tərtər batalyonu növbəti gün kəndi düşməndən təmizləməli oldu. Döyüş bir qədər səngidikdən sonra qəlpə yarası alan Etibarı arxaya göndərirlər. O burada yaxın dostu Pərvizi silahdaşları arasında görməyəndə yenidən mövqeyə qayıdır, orada tank mərmisindən yıxıan iri gövdəli söyüdün altında qalan Pərvizi tapır. Pərvizi oradan çıxarmağa, xilas etməyə nə qədər cəhd göstərsə də bacarmır. Yorulub əldən düşən Etibar bir qədər dincini almaq həm də avtomatın darağını doldurmaq üçün yaxınlığdakı suyu quruyan arxın qırağında oturur. Elə bu vaxt..

Etibar xeyli müalicə olundu. Çətin və ağır cərrahiyyə əməliyyatına dözdü. Valideynləri, qohumları, dostları onun ağır yaralara necə mətanətlə dözdüyünü gördülər. Ümidlərini üzmədilər. Amma... Amma Etibar kimi bir oğula etibarsız çıxdı dünya. Onu dünyalar qədər sevən, bir gün belə yoxluğuna inanmayan elinin-obasının, qohum-əqrəbasının əlindən aldı.

İgid döyüşçü Etibar Əliyevin adı əbədiləşdirilib. Bakı şəhəri 62 saylı orta məktəb Etibarın adını daşıyır. Məktəbdə yenilməz döyüşçümüzün büstü qoyulub.

Bakıda Şəhidlər xiyabanında dəfn edilib.

## DAĞLAR OĞLUNUN SON DÖYÜŞÜ

Erməni daşnakları müharibənin ilk toxumunu Qarabağ torpağına səpəndə Yunus müəllim hiss edirdi ki, bu toxumun göyərməsi nahaq qanları, göz yaşlarına səbəb olacaqdır. Odur ki, əlinə silah alıb özü kimi mərd oğulları başına topladı, elə ilk gündən kəndin müdafiəsini təşkil etdi.

Yunus Muxtar oğlu Məmmədov 1926-cı il mayın 1-də anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra dövrün tələbinə uyğun olaraq müəlliklik etməyə başlamışdı. Ali təhsilini APİ-də almışdır. Uzun müddət Çərəkdar kənd orta məktəbinin müəllim kollektivinə rəhbərlik etmişdir.

Erməni quldurları ilk gündən cəhd göstərmişdilər. Ki, Çərəkdar kəndini ələ keçirsinlər. Bu kənd Ağdərə Kəlbəcər arasında bir alınmaz qala idi.

## QARDAŞ

**Əmim oğlu S. Qabilova ithaf olunur:**
Getdin ki, balanı xilas edəsən,
Gözündə dağ-dərə düz oldu, qardaş!
Düşmənə göstərdin öz nifrətini
Deyilən hamısı düz oldu, qardaş!
Sən odun içinə atıldın o an
Erməni əlində qalmasın balan.
Elə ki eşitdim şəhid olmusan
Ürəyim qovruldu, köz oldu, qardaş!
Bala həsrətilə bulud tək doldun,
Düşmən gülləsindən saraldın, soldun.
Sən döyüş vaxtında heyf...tək oldun.
Allahsız düşmənsə yüz oldu, qardaş!

## BU KARVAN, QƏM KARVANI...

Xıdırov Aslan Məcoy oğlu Bağlıpəyədə doğulub boya-başa çatmışdı. Hadisələrin ilk çağında qətlə yetirilən eloğullarımızdan idi. Ağdərə ərazisində Otaq Qaya adlanan yerdən Tərtər, Kəlbəcər yolu ilə irəliləyən karvan müxtəlif istiqamətlərdən atəşə tutulur. Aslan Xıdırov düşmən gülləsi ilə qətlə yetirilir. Maraqlı faktdır ki, eyni karvanda, eyni düşmən gülləsi ilə həlak olanlardan birinə Azərbaycan Milli Qəhrəmanı adı verilib, o birilərinin isə heç adı çəkilmir.

Xıdırov Aslan Məcoy oğlu Bağlıpəyənin ilk şəhidi kimi kənd qəbiristanlığında dəfn edilib.

## SON DÖYÜŞ VƏ ƏBƏDİYYƏT QAPISI...

Vidadi Yusif oğlu Bağırov 1959-cu il noyabrın 8-ində anadan olub. Hadisələrin ilk çağlarında ələ silah götürən el oğullarımızdan olub. O Bağlıpəyə, Çərəkdar, Ağdaban kəndlərinin strateji əhəmiyyətini yaxşı başa düşürdü. Vidadi bir sıra döyüşlərin iştirakçısı olmuşdu.

8 Aprel 1992-ci il Ağdaban üzərinə düşmən hücumunun qarşısının alınması onun son döyüşü oldu. Səhər tezdən düşmən ətraf yüksəklikləri ələ keçirərək kəndi mühasirəyə almışdı. Bağırov Vidadi Çayqovuşanla Ağdaban arasında hündür təpəlikdən qəbiristanlıq istiqamətində irəliləyən ön dəstənin tərkibində mühasirəyə düşür. Qanlı döyüşlər başlanır. Vidadi bir neçə döyüş yoldaşı ilə birlikdə xüsusi şücaət göstərərək həlak olur.

Məzarı Bağlıpəyə kənd qəbiristanlığındadır.

Sən şəhid oğlu şəhid,
İstəmə məndən məqbər,
Sənə ağuşunu açmış və durur peyğəmbər

M. Arif Ersoy

## KƏLBƏCƏR RAYONU, BAĞLIPƏYƏ KƏNDİ

Bağlıpəyə kəndi Kəlbəcər rayonunun tabeliyində olan qədim kolanı obasıdır. Coğrafi mövqeyinə görə strateji əhəmiyyəti var idi. “Ağdərədə nələr oldu?” kitabına həm tayfa birliyi baxımından, həm də döyüşlərin gedişi baxımından məqsədəuyğun olduğundan bu fəsli əlavə etməli olduq. Çünki istər Ağdərənin azad edilməsində, istərsə də müdafiə döyüşlərində ilk hücumlar yönələn kəndlərdən biri də Bağlıpəyə kəndi olbu. Kənd 35 evdən və təxminən 300 nəfər əhalidən ibarət idi. Üç nəfər övladı şəhid olub.

P.S. Bağlıpəyə şəhidləri haqqında yazıların və şerlərin müəllifi Məhyəddin İsmayılovdur.

### Əsir kəndim

Ata qəbri, ruhun məni incidir,
Həsrətindən bilsən necə solmuşam?
Gündən-günə canım şam tək əriyir,
Ah-vayımdan dəli kimi olmuşam.
Nə gələn var,nə gedən var üstünə,
Hər tərəfdə çəəmən-çiçək qan ağlar,
Hiss etmirəm soyuq nədir,isti nə,
Niyə belə ağlar qaldı bu dağlar,

Məcid dayı, qəzəblisən bilirəm,
Bığlarını çeynəyirsən durmadan,
Hakim Nofəl həsrətindən ölürəm,
Mən nə deyim ağlar qalsın bu zaman.
Qartal gözlü Əziz, sənin əlindən,
Sızlamayan bircə düşmən qalmadı.
Bilmirsən namərdlərin işini,
Söz çevirən bir erməni olmadı.
Sən olsaydın bu dərd bizi tapmazdı,
Namərdlərin əzrayılı sən idin.
Elim, obam öz yerindən qopmazdı,
Çox heyf ki, bu günləri görmədin.
Bağlıpəyə, nəslimizin gorgahı,
Qaraqaya, Laçınqaya, Kəmər daş.
Tərtər çayı, söylədikcə sən ağı,
Burda mənim gözlərimdən yaş axır.

## ÖLMƏ QARDAŞ DÜŞMƏN YAMAN ÇOXALDI

Qabilov Sədrəddin Qədir oğlu 1952-ci ildə Kəlbəcər rayonunun Bağlıpəyə kəndində dünyaya göz açıb. Bağlıpəyə rayonunun füsunkar gözəlliyi, Tərtərin şaqraq səsi, əzəmətli Laçınqayanın heyranedici ucalığı sədrəddində vətənə sonsuz məhəbbət yaratmışdı. O, Sovet ordusu sıralarında xitmətini başa vurub yenidən kəndinə qayıtmışdı. 1986-cı ildə Ağdabanlı Şəmşirin qızı Təranə ilə ailə həyatı qurmuşdu. Bir neçə ildən sonra atası rəhmətə getmiş Sədrəddin isə ailəsi ilə birlikdə Tərtər rayonuna köçüb orada yaşayırdı.

1988-ci ildə Erməni-Azərbaycan ziddiyyətləri başladıqdan sonra öz doğma kəndi olan Bağlıpəyə kəndinə qayıdır. O, çox çevik və inadkar oğlan idi.

O təxminən Ağdaban faciəsindən 10 gün qabaq mənim yanıma gəldi və Milli orduya keçmək istədiyini bildirdi. Düzü mən razı olmadım və dedim: “Sədrəddin, sənin iki körpə uşağın var. Sənin körpələrini kim saxlayacaq?” (M. İsmayılov nəzərdə tutulur –red.) Bir neçə gün sonra eşitdim ki, o Milli orduya keçmək üçün sənədlərini təqdim edib.

1992-ci il aprelin 8-də səhər tezdən erməni hərbi birləşmələri Ağdaban kəndini mühasirəyə almışdı. Sədrəddinin silahı yox idi. O hadisəni eşidən kimi fikirləşmədən özünü bacısının qaynatası, kənd ağsaqqalı Əmiraslan müəllimin evinə çatdırıb çox axtarandan sonra 28 № li quş tüfəngi ilə hadisə yerinə çatmağa çalışır. Qarşısına çıxanlar nə qədər desələr də onu yolundan döndərə bilmirlər. O deyir:” Ağdaban çətin ayaqdadı, onlara kömək lazımdır, ölsəm də getməliyəm.”

Həmin vaxt Sədrəddin Qabilovun bir qızı və qaynatası ilə qaynatası Ağdabanda idilər. O dostları ilə birlikdə Ağdaban gedir.

Düşmənlər qumabaraatanla Ağdaban kəndinə gedən maşın yolunu kəsmişdi. Sədrəddin dostları ilə birlikdə güclü müqavimətə rast gəldilər. Atışma zamanı dostlarını itirən Sədrəddin ölmüş ermənilərdən birini silahını götürüb ermənilərə atəş açır. Lakin o ağır yaralı idi. Düşmən gülləsi onun üstünə dolu kimi səpələnirdi. Xeyli atışmadan sonra o döyüş dostları ilə birlikdə Turşsu deyilən yerdə şəhid oldu. O şəhid olarkən avtomatı öz qucağına sıxılı qalmışdı. Sədrəddinin o vaxt iki qızı vardı. Onun ölümündən sonra dünyaya bir oğlu gəldi. Sədrəddin və onun dostları Bağlıpəyə qəbiristanlığında dəfn edildi, əbədiyyətə qovuşdular. Həmin gün Bağlıpəyə kənd qəbiristanlığı beş nəfər şəhidi ğz balası kimi qoynuna aldı.

Sədrəddin Qabilovun həyat yoldaşı və üç uşağı hazırda Tərtər rayonunun Sarov kəndində yaşayır.

## QARALARIN QƏHRƏMAN OĞLU

Qəzənfər Surxay oğlu Məmmədov 1970-ci il fevralın 16-da doğulub. 1987-ci ildə qonşu Sırxavənd kəndində orta məktəbi bitirmişdi. Sonra Xnakəndində sürücülük peşəsinə yiyələnmişdi. 1988-90-cı illərdə Voronej şəhərində əsgərlik borcunu yerinə yetirib. Qəzənfər hərbi xidmətdən tərxis olunandan sonra doğulub boya-başa çatdığı Qaralar kəndinə yox, Yeni Qaralara qayıtmalı oldu.Həmin vaxt dədə-baba yurdu Qaralar kəndi düşmən tapdağı altında idi. Öz yuvasından məcburi köçgkün düşmüş Qaralar camaatı Xaçın çayı sahilində Yeni Qaralar adı ilə yeni kənd salmışdılar. Qəzənfər bu dərdə, ağrıya dözə bilmir, gecə-gündüz ana yurdunu düşmən tapdağından qurtarmaq, erməni quldurlarına sarsıdıcı zərbələr vurmaq haqqında fikirləşirdi, yollar axtarırdı. Hər gün olmasa da günaşırı 25 km yol qət edərək Qaralar kəndinə gedir, saatlarla oturub havası, suyu, təbiəti ilə boya-başa çatdığı yurdun yoluna , izinə, viranə qoyulmuş ev-eşiyinə baxır, dil açıb ağlayan bulaq və çayların naləsinə qulaq asırdı.

1991-ci ildə Qan çanağı Qazançıdan ermənilər hücuma keçirlər. Dərhal beşatılanı əlinə alıb quldurların basqınının qarşısını alan Qəzənfər, onları bir addım olsun irəli buraxmır. Onun köməyinə çatana kimi bir neçə qulduru qanına bulayır. Günü-gündən döyüşlərdə püxtələşən Qəzənfər Xankəndi-Ağdərə yolu üzərində Palçıqlı dərə üzərində təkbaşına pusqu quraraq bir avtobus erməni quldurunu məhv edir, yük maşını dolu hərbi sürsatı qənimət götürür. Qazançı kəndində daşnaqların komandiri Montaj öz dəstəsi ilə ətraf kəndləri dinc yaşamağa qoymur, istədikləri vəhşilikləri edirdi. Qəzənfər kəşfiyyata gedərkən Montajın yataq otağına girir, başının altından silahını götürür, sonra yazıb göstərir ki, elə evinizdəcə hamınızı öldürəcəyik.

Və özünü igid sayan bir quldur atını minib geri qayıdır. Qaralar oğlunun bu qeyrəti, şücaəti bütün kolanı elinə səs salır.

Q. Məmmədov təcrübəli döyüşçü kimi Ağdam özünümüdafiə batalyonuna yazılır. İlk gündən batalyon komandiri Şirin Mirzəyevi və əsgər yoldaşlarının hörmətini qazanır. Fərrux kəndinin erməni quldurlarından təmizlənməsində öndə gedərək düşmənə ilk zərbəni o endirir. Naxçıvanik, Xramod döyüşlərində qəhrəmanlıqlar göstərir. Erməni quldurları Hümbət kişinin evini mühasirəyə alıb onları girov götürmək istəyirdilər. Bunu eşidən Qəzənfər yenə beşatılanı götürüb erməni quldurları ilə təkbaşına ölüm-dirim döyüşünə girir. Çox keçmir ki, düşmənin hücumunu dəf edir, hər tərəfdn od tutmuş evin pəncərələrini qıraraq Hümbət kişinin ailəsini ölümün cəngindən qurtarır.

Erməni dilini təmiz bilən Qəzənfər erməni quldurlarının yuva saldığı kəndlərə kəşfiyyata gedir, daimi tapşırıqları yerinə yetirirdi. Hər an, hər dəqiqə erməni quldurlarını qorxuya salan Qəzənfəri ələ keçirib məhv etməyə çalışırdılar. Hətta onu ələ keçirən erməni quldurunu böyük mükafat gözləyirdi. Dovşanlı kəndinə kəşfiyyata gedən Qəzənfər beş nəfər ermənini öz silahları ilə məhv edir. Bir neçə yeni mərmi, alazan qurğusunu qənimət götürür.

1992-ci ildə Qazançı istiqamətində gedən döyüşdə böyük şücaət göstərən Q. Məmmədov qəhrəmancasına həlak olur. Torpaqlarımızın müstəqilliyi, azadlığı uğrunda şəhid olur.

## QƏLBLƏRDƏ YAŞAYAN İGİD

Əliqulu Tohid oğlu Alışanov 1972-ci ildə dünyaya göz açıb. O təhsilini öz kəndlərində almışdı. Uşaqlıqdan zəhmətə alışan Əliqulu məktəbi qurtardıqdan sonra elə təsərrüfatda işləməyə başlayır. Əməksevərliyi, qorxmazlığı və çevikliyi ilə yaşıdlarından fərqlənirdi. Erməni daşnaqları torpaq iddiasına düşdükləri ilk gündən Əliqulu silaha sarılaraq elin-obanın müdafiəsinə qalxanlarda biri idi. Qaralar kəndini düşmən tapdağına çevrildiyi gündən Əliqulu döyüş yolunu Sırxavənd polis şöbəsində davam etdirmişdi. Günü-gündən azğınlaşmış erməni yaraqlıları Sırxavənd, Baş Güneypəyə, Orta Güney, Manikli, Xatınbəyli və Yeni Qaralar kəndlərinə hücum edir və bu məntəqələri ələ keçirmək istəyirdilər. Bu kəndlərin müdafiəsində Əliqulu həmişə silahdaşlarına nümunə olur, verilən tapşırığı ustalıqla yerinə yetirirdi.

Ə. Alışanov Qazançı kəndinin erməni quldurlarından təmizlənməsində böyük şücaətlər göstərir. 1992-ci il iyulun 15-də erməni yaraqlıları Yeni Qaralara böyük qüvvə ilə hücuma keçir. Artilleriya atəşinə tutulan Yeni Qaralar kəndinin müdafiəsi polis əməkdaşları tərəfindən təşkil olunurdu. Döyüşdə Əliqulu düşmən gülləsinə tuş gəlir. Bu gün Ə. Alışanov bir igid döyüşçü kimi onu tanıyanların qəlbində yaşayır.

## GÜNAHSIZ QURBANLAR

Əsədov Ələkbər 1992-ci ildə kəndin yaxınlığında heyvan otararkən öldürülüb. Əlavə heç bir məlumat yoxdur.

## QƏMLİ, BAŞI QARLI DAĞLAR

Təhməz Muxtar oğlu Baxşalıyev 1941-ci ildə anadan olub. Təhməz kişi Narınclar kəndinin zəhmətkeşlərindən biri idi. Bu kənd onun ata-baba torpağıdır. Bu torpağın bir udum saf havasını, bi içim suyunu heç nəyə dəyişməzdi. Təhməz kişi torpaqlarımızda müharibənin başladığı ilk gündən əlinə silah aldı, dədə-baba yurdunun müdafiəsinə dayandı. Gündüzlər təsərrüfatda işlədi, gecələr isə kəndin keşiyində dayandı. Kənddə yaradılan özünümüdafiə dəstəsinin ən fəal üzvlərindən idi. Erməni quduzları günü-gündən öz təcavüzlərini genişləndirirdilər. Təhməz kişi var qüvvəsi ilə kəndin müdafiəsini təşlik edir, erməni quldurlarının hər bir həmləsini dəf edərək göstərdiyi rəşadətlərə görə komandanlığın və əsgər yoldaşlarının hörmətini qazanır. Təhməz kişinin həyat yoldaşı Raya da onunla çiyin-çiyinə döyüşürdü. Bir ana kimi döyüşçülərin qulluğunda durur, onların yemək –içməklərini hazırlayırdı. T. Baxşalıyev Vəng, Qozlu, Qızılqaya, Aterk kəndlərində yuva salan erməni quldurlarının hücumlarının qarşısını alır. O yerləri tanıyan adam kimi kəşfiyyata gedir, verilən tapşırıqları ustalıqla yerinə yetirirdi.

1992-ci il aprelin 28-də Aydoğan yüksəkliyi uğrunda gedən ölüm-dirim döyüşündə Təhməz kişi qəhrəmanlıqla həlak olur. T. Baxşalıyev iki oğul, dörd qız atası idi.

## QARALAR KƏNDİ

Qaralar kəndi Azərbaycanın qədim azərbaycanlı kəndlərindəndir. Sonrada götürülüb bu ərazidə ermənilərə torpaq verilib. Qədim Qaralar kəndi get-gedə böyüməkdə olan Araçazor kəndinin içərisində itir.

Qaralar kəndi Azərbaycanda ilk yandırılan kənddir və əhalinin birgə səyiylə Aödərə ərazisində Yeni Qaralar kəndini salıblar. Bu kənd Sırxavəndlə Əliağalı kəndlərinin arasında yerləşirdi.

Əvvəllər bu kənddə üç yüzə qədər əhali yaşayıb. İki nəfər övladı şəhid olub.

Buralarda savaş varmı,
Oralarda günəş varmı?
Varsa sor ondan
Niyə isitmir bizi,
Sizi isitdiyi qədər?

(F. Tuncər "Əsgər məktubu")

## ONU DOĞMA YERLƏRDƏ SƏSLƏYİRDİ

Tahirov Əlövsət Kamran oğlu 1969-cu ildə anadan olub. Bir yaşında ikən ana nəvazişindən məhrum olan Əlövsət atasının himayəsində yaşayıb. 1986-cı ildə Şuşa texniki-peşə məktəbini bitirib. Bakıda yaşasa da hadisələrin ilk günündən doğma torpaqların müdafiəsinə qalxan oğullardan idi.

Əlövsət Tahirov 22 gün Xocalı ətrafındakı ağır döyüşlərdə mərdliklə iştirak etmişdir. Meşəli və Malıbəyli kəndlərinin müdafiəsi zamanı mühasirəyə düşmüş 11 döyüş yoldaşını xilas edib.

Tahirov Əlövsət Kərgicahanın müdafiəsində əsl topçu kimi şöhrət qazanır. 27 gün onun topu düşmənə sarsıdıcı zərbə vurub. Bakıya göndərilsə də çox qalmır. Şuşanın Daşaltı kəndinin azad edilməsi uğrunda gedən döyüş əməliyyatında iştirak edir.

Daşaltı döyüşü onun son döyüşü olur. Əlövsət də başqa döyüş yoldaşları kimi Daşaltı xəyanətinin qurbanı olur. Qəlbi yaşamaq hissi, vətən sevgisi ilə dolu olan qəhrəmanın meyidi geri alınaraq Ağdam Şəhidlər xiyabanında dəfn edilib.

## GERİYƏ YOLUMUZ YOXDU

Şükürov Zahid Kamal oğlu 1969-cu ildə anadan olub. Şuşa kənd təsərrüfatı texnikumunu və 1991-ci ildə milis məktəbini bitirərək Sırxavənd polis bölməsində işə götürülmüşdü. İlk gündən azğın düşmənə qarşı əsl şücaət göstərən zahid Şükürov yoldaşlarının sevimlisi idi. Hər dəfə deyərmiş: “Geriyə yolumuz yoxdu!”

O Sırxavənd, Baş Güneypəyə, Maniklon, Fərrux və s. Yaşayış məntəqələrinin müdafiəsində və  Kiçan, Qazınçı kəndlərinin azad edilməsində xüsusi fəallıq göstərirdi. Fərrux dağının Qarabağ üçün nə demək olduğunu bilmək üçün hüç də strateq olmaq lazım deyil. Zahis dəfələrlə istər hücum, istərsə də Fərrux dağının müdafiəsində iştirak etmişdi.

20 fevral 1992-ci il onun son döyüş günü oldu. Fərrux əməliyyatında düşmənlə üzbəüz vuruşan Zahidin gülləsi tükənir və özünü müdafiə edə bilmir. Qarabağın azadlığı üçün strateji əhəmiyyətə malik bir yüksəklikdə bir addım geri çəkilmədən əsl qəhrəman kimi həlak olur.

## ON SƏKKİZİNCİ AŞIRIM

Ölüm çox zaman ən yaxşıların, ən bacarıqlıların qapısını kəsdirir.  Əksər hallarda vaxtsız-vədəsiz gəlib, bütün işləri yarımçıq qoyur, bir ömrü yaridan kəsməklə neçə ömrə balta çalır. Vətənin təhlükədə olduğu son 6 ildə neçə-neçə belə ölümün acısını dadmış, ağrısını çəkmişik. Neçə sayseçmə oğulun taleyi

qismətinə düşən kölgə bizi ürəkdən yandırıb. Belə oğullardan biri də Natiq Xurşud oğlu Abdullayevdir.

1965-ci il noyabrın 18-də anadan olan Natiq xurşud oğlunun heç vaxt ağlına gəlməzdi ki, dünyaya göz açdığı gün 18 rəqəmi bütün ömrüboyu qarabaqara izləyəcək, ona həm sevinc, həm də İbrahimovlar ailəsinə ömürlük bala dağı çəkəcəkdir. 1984-cü il noyabrın 18-də hərbi xidmətə yola düşən Natiq düz 2 ildən sonra noyabrın 18-də hərbi xidmətdən tərxis olub doğma elinə qayıdır.

N. Abdullayev 1987-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına daxil olur. Qarabağ torpağında yaranmış ağır vəziyyət hamıdan çox Natiqi narahat edir. Belə ki, onun doğulub boya-başa çatdığı Narınclar kəndi hər tərəfdən erməni kəndlərinin mühasirəsində idi. Hər an erməni quldurlarının təcavüzünə məruz qalırdı. N. Abdullayev Çaykəndindən erməni quldurlarının təmizlənməsində böyük şücaətlər göstərir. İdarə etdiyi tank Çaykəndə daxil olmuş və daşnaq tör-töküntülərinin qərargahlarını yerlə-yeksan etmişdi.

1990-cı ildə Qarabağın Dağ hissəsində yerləşən kəndlərdə vəziyyətin günü-gündən gərginləşdiyini görən N. Abdullayev qərara gəlir ki, təhsilini qiyabi davam etdirsin. O doğma Narınclara qayıdan kimi silaha sarılaraq kəndin müdafiəsində dayandı. Vəng, Qozlu, Qızılqaya, Aterk kəndlərində düşmənə qarşı doyüşlərdə əsl qəhrəmanlıqlar göstərdi. Namiq, Natiq qardaşları həmişə döyüşlərin önündə gedir, erməni quldurlarına qan uddururdular.

1993-cü ilin yazında düşmən tapdağına çevrilən Narınclar kəndinin camaatı köçkün həyatı sürməyə başlayır. Kəndin ər igidləri müxtəlif hərbi hissələrdə düşmənlə üz-üzə gəlir.

N. Abdullayev öz döyüş yolunu Yevlax rayon hərbi polis bölməsində davam etdirməyə başlayır. İntiqam hissi Natiqi yenidən cəbhəyə gətirdi. Ağdam, Tərtər, Goranboy bölgələrinin müdafiəsində dayandı, Gülüstan döyüşlərində şücaətlər göstərdi. Güllücə kəndində əfsanəvi qəhrəmanlığını nümayiş etdirdi. Həmin kənd uğrunda savaşda 7 gün öz silahdaşları ilə quldurların mühasirəsində qalan Natiq ölümlə üz-üzə dayanaraq mühasirəni yarıb dostları ilə sağ-salamat mühasirədən çıxır və düşmənin xeyli canlı qüvvəsini, tankını məhv edirlər.

Ancaq dünyaya gəldiyi gün ayın 18-i bir qara kölgə kimi onun ətrafında hərlənirdi. Bəli, bir zamanlar Ulduzə anaya, Xurşud ataya sonsuz sevinc bəxş eləmiş 18 rəqəmi bu dəfə özü ilə ailəyə böyük bir dərd, bir ümman göz yaşı gətirdi. 1994-cü ilin iyunun 18-i Natiqin ömrünə son qoydu. Çarpışıb vuruşmaq, qurub yaratmaq eşqilə yaşayan bir igidin ömrü beləcə yarımçıq qaldı.

İndi Kürün sahilindəki Şəhidlər xiyabanında bir məzar da uyuyur. Natiqin yadigar qoyub getdiyi iki övladı neçə vaxtdır ki, atalarının yolunu gözləyir. Ancaq hələ onlar şəhidlik zirvəsinin nə olduğunu anlamırlar. Vaxt gələcək bu fidanlar böyüyəcək, atalırının qəhrəmanlıqları ilə fəxr edəcəklər.

## QƏHRƏMANLIQ YAŞA BAXMIR

Alıyev Hüsü Əli oğlu 1927-ci ildə anadan olub.

Yaşının bu vədəsində silaha sarılıb dəfələrlə ağır sınaqlardan çıxmışdı. Müxtılif əməliyyatlarda iştirak etmişdi. O cavanlardan geri qalmazdı. Ordumuzun qabiliyyətli yürüşləri dövründə Z. Rzayevin komandanlığı altında qoşun hissələrimiz Çərəkdardan Qozlu Körpü istiqamətində hücuma keçdi. Bu yol el arasında Ölüm dərəsi adı ilə məşhur idi. Bu yol Tərtərin sıldırımlı sahili ilə uzanan Turşsu yolu idi. Döyüşün ilk günlərində düşmənə israrla müqavimət göstərirdi. Bu döyüşlərin birində ağsaqqal döyüşçü Hüsü kişi qəhrəmanlıqla həlak oldu. Yurdunda dörd oğlu və iki qızı qaldı.

## GÜNAHSIZ QURBANLAR

Quluşov Namiq Bəzirxan oğlu 24 aprel 1976-cı ildə anadan olub. Çərəkdarda doğulub boya-başa çatıb. 1994-cü ildə Ağdərə bölgəsinin Talış kəndi yaxınlığında qətlə yetirilib. Onun haqqında əlavə məlumat ala bilmədik.

## NARINCLAR KƏNDİ

Ağdərə rayonunun qərbində ucqar dağ kəndlərindəndir. Kənd Qırxqız, Pirdağı, Taxtabaşı dağları ilə əhatə olunub. Xaçınçay öz başlanğıcını bu dağlardan götürür. Narınclar kəndi Alban abidələri ilə zəngindir. Pirdağın zirvəsində pir yerləşir. Tarixi məlumatlara görə XII-XVIII əsrdə kənd ərazisi Xaçın məlikliyinə tabe idi. 1913-cü ildə Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirilib.

1992-ci il iyulun 1-də ermənilər tərəfindən işğal edilib. El arasında bu yurd Kolanı Narıncları kimi tanınır. 60 ev və 314 nəfər əhalidən ibarətdir. 5 nəfər övladı şəhid olub.

## TƏKİ VƏTƏN BASILMASIN

Şakir Yunus oğlu Ağamalıyev 1958-ci ildə anadan olub. Orta məktəbi bitirdikdən sonra Rusiyada hərbi xidmətdə olmuş və hərbi borcunu verdikdən sonra elə orda qalıb işləmişdi. Qarabağ savaşı başlanan gündən Şakir çox narahat olmuş və son illər erməni təcavüzünün genişləndiyini eşidən kimi öz doğma kəndinə geri qayıtmışdı. Özü də əliboş gəlməmişdi. Bir yük maşını da gətirmişdi. Çox adam təəccüblə soruşmuşdu ki, hamı minik maşını alır, sən isə yük maşını almısan. Vətənin bu dar günündə dağ yollarına elə yük maşını lazımdi deyən Şakir əlinə silah almışdı. O təki vətən basılmasın deyərək gecə-gündüzlü vətənin keşiyində dayanmışdı. Şakir ilk döyüşlərdən öz mərdliyi, qorxmazlığı və şücaəti ilə döyüşçü yoldaşlarının hörmətini qazanməşdı. Kənd özünümüdafiə dəstəsinin komandiri Y.

Məmmədov döyüşlərdə Şakirə xüsusi tapşırıqlar verir, ən ağır mövqenin müdafiəsini ona tapşırırdı. Döyüşdən-döyüşə bir döyüşçü kimi püxtələşən Ş. Ağamalıyev hər sınaqdan, əməliyyatdan ustalıqla çıxır, verilən tapşırıqları vaxtında yerinə yetirirdi. Şakirlə birlikdə qardaşları Adil, Mobil və Kərəm də düşmən hücumlarına sinə gərirdi. Adil və Mobil təhsillərini yarımçıq qoyub əsgər paltarını geyinmişdilər.

Çərəkdar kəndi strateji mövqeyinə görə Kəlbəcərin giriş qapısı idi. Erməni quldurları cəhd göstərirdilər ki, nəyin bahasına olursa-olsun Çərəkdar kəndini ələ keçirsinlər. Amma heç bir qüvvə Çərəkdar igidlərinin iradəsini qıra bilmirdi. 1992-ci il iyunun 10-dan 11-nə keçən gecə erməni qüvvəsi texnikanın gücündən istifadə edərək kəndi ələ keçirmək istəyirdilər. Şakir yenə də komandirin əmri ilə saö cinahdan döyüşün ağırlığını öz üzərinə götürmüşdü. Salman, Hüsü, Nazim, Şaban, Natiq, Mürşüd, Fəqan, Aqşin, Əkbər və Vəli düşmənlə üz-üzə gəlmişdi. Düşmən böyük qüvvəyə malik olmasına baxmayaraq, Şakirin mövqeyinə yaxınlaşa bilmirdi. Şakirin pulemyotu dağlara səs salmışdı. Düşmən asanlıqla tutduqları mövqeləri geri vermək istəmirdi. Erməni quldurlarının bir PDM-i heyəti ilə birlikdə darmadağın edilməsi ər igirlərin döyüş əhval-ruhiyyəsini daha da artırdı. Özünü itirən erməni quldurlarına Şakirgilin dəstəsi hər tərəfdən atəşi daha da yüksəltdi. Qorxuya düşən erməni quldurları geri çəkilməyə məcbur oldular. Rasim irəliləyərək daha əlverişli mövqe tutdu. Dərhal bir neçə quldurü qanına qəltan etdi. Düşmən xeyli itki vermişdi. Çərəkdar döyüşçüləri daha bir sınaqdan mərd-mərdanə çıxdılar. Bu döyüşdə Şakir qəhrəmanlığını, qorxmazlığını bir daha göstərdi. Amma düşmən gülləsi yenilməz igidi lap döyüşün sonunda yaxaladı.

1992-ci il iyunun 11-də Çərəkdarlılar Vətən, qeyrət, namus yolunda şahidlik zirvəsinə ucalan Şakir Yunus oğlu Ağamalıyevlə vidalaşdı.

## NƏSİLLƏRƏ ÖRNƏK OLAN ŞƏHİD ÖMRÜ

Qasımov Nadir Qara oğlu 1961-ci il sentyabrın 15-də anadan olub. Hərbi xidmətdən sonra azərbaycan Dövlət Pedaqoji Institutunun ibtidai hərbi hazırlıq və bədən tərbiyəsi fakultəsini bitirib. Doğma Çərəkdar kəndində hərbi hazırlıq müəllimi işləyib. Hadisələrin ilk günündən doğma kəndin müdafiəsi əməliyatlarında yaxından iştirak edib. Dəfələrlə erməni quldurlarına qarşı döyüşlərdə fərqlənib. 1990-cı ildən polis sıralarına daxil olan Qasımov Nadirin qayğıları daha da artdı. Postların yaradılması, müdafiə qabiliyyətli adamların səfərbər edilməsi işinə rəhbərlik edir.

Ağdərə bölgəsinin yağı düşməndən azad edilməsi uğuunda gedən döyüşlərdə daim öndə olub. Dəfələrlə azğın düşmənə ağır zərbə vurmuş qoşun hissələrimizin tərkibində fərqlənib. O Manquşevan, Çaylı, Moxrataq, Ağdərə, Çapar, Dəmiri, Maqavuz, Sərsəng, Umudlu, Çıldıran, Drmbon və s. kimi strateji

əhəmiyyətli məntəqələrin azad edilməsi uğrunda gedən döyüşlərdə, doğma kəndi Çərəkdarın müdafiəsində iştirak edib.

1992-ci ilin 4 dekabrında Ağdərə rayonunun Drmbon (Heyvalı) kəndi uğrunda gedən döyüşlərdə həlak olub. Polis leytenantı nadir Qasımov öz döyüş yolu ilə nəsillərə örnək ola biləcək bir ömür idi.

Ailəli idi. Üç körpəsi qalıb. Ailəsi hal-hazırda Yevlax rayonunun qaçqın düşərgəsində yaşayır.

## İTKİN DÜŞÜB

Məmişov Yusif Əsgər oğlu 1938-ci ildə anadan olub. 27 mart 1993-cü ildə Çərəkdar kəndi üzərinə erməni jərbi birləşmələri hücuma küçən zaman meşədə itkin düşüb. Sonrakı taleyindən heç bir xəbər yoxdur.

## DÖYÜŞƏ DƏ BİR GEDİRDİLƏR

Məmmədov Rasim Bəhlul oğlu 1973-1992

Alıyev Əkbər Salman oğlu 1973-1992

Bir kənddə anadan olmuşdular. Orta məktəbi də bir qurtarmışdılar. Çərəkdarın durna gözlü bulaqları, yaşıl meşələri, zirvəsi buludlardan nəm çəkən dağları, sıldırım qayaları Rasimə, Əkbərə sevdirmişdi bu yerləri. Düşmən üstünə də bir gedərdilər. Mərdlikləri,, qorxmazlıqları, igidlikləri ilə seçilən bu cavanlar hələ nə yaşamışdılar, nə görmüşdülər? Sevməyə, seçməyə də vaxt tapmamışdılar.

1992-ci ilin avqustun 1-də erməni daşnaqları böyük qüvvə ilə qızılqaya üzərinə hücuma keçirlər. Ölüm-dirim döyüşləri gedirdi. Rasimlə Əkbər özləri üçün əlverişli mövqe seçmişdilər. Sübh tezdən başlanan döyüşdə hər ikisi əsl qəhrəmanlıq göstərirdilər. Getdikcə qızışan döyüşdə Rasimlə Əkbər bir neçə erməni quldurunu məhv edirlər. Erməni quldurları öz mövqelərini vermək istəmirdilər. Amma Rasimlə Əkbərgilin dəstəsi düşmənə sarsıdıcı zərbə endirirdilər. Ər igidlərin həmləsinə, zərbəsinə tab gətirməyən erməni quldurları məcbur olaraq geri çəkilməyə başlayırlar. Bu döyüşdə qəhrəmanlıqlar göstərən Rasim və Əkbər düşmənə qan uddurdu. Hər ikisi igidlik göstəriblər. Amma düşmən gülləsi igid oğullarımızdan yan keçmədi. Bu itki, bu ağrı təkcə çərəkdarlıların deyil, Rasimi, Əkbəri tanıyıb qəhrəmanlığına bələd olan minlərlə adamı sarsıtdı. Sizi Vətən unutmayacaq, Əkbər, Rasim! Ruhunuz şad olsun!